AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# USTA SÖYLƏYİCİLƏRİN REPERTUARI

## II KİTAB

BAKI – 2024

**AMEA Folklor İnstitutunun Elmi Şurasının**
**qərarı ilə çap olunur**

**Layihənin rəhbəri:** **Muxtar KAZIMOĞLU (İMANOV)**
**Akademik**

**Toplayıb tərtib edən,**
**ön sözün müəllifi:** **Elnarə Hüseynqızı-ƏMİRLİ**
**Filologiya üzrə fəlsəfə doktoru**

**Elmi redaktoru:** **Xalidə Şaiqqızı-MƏMMƏDOVA**
**Filologiya üzrə fəlsəfə doktoru**

**Usta söyləyicilərin repertuarı, II kitab**. Bakı, "Sabah", 2024, – 180 səh.

ISBN: 978-9952-565-24-9

Kitabda Biləsuvar rayonu Aşağı Cürəli kənd sakini Əzizova Gülgəz Hüseyn qızından toplanmış folklor örnəkləri verilmişdir.

folklorinstitutu.com

029 - 2024

© Folklor İnstitutu, 2024
© Elnarə Əmirli, 2024

# TƏRTİBÇİDƏN

Əzizova Gülgəz Hüseyn qızı 1947-ci il Biləsuvar rayonu, Əsgərabad kəndində anadan olub, on altı yaşına qədər orada yaşayıb. On altı yaşında ailə quraraq Aşağı Cürəli kəndinə gəlin köçüb, həmin vaxtdan da bu kənddə yaşayır. Gülgəz nənə orta boylu, dolu qadındır. Sohbət edərkən əksər hallarda əllərini sinəsinin altına dayayıb barmaqlarını bir-birinə keçirir. Keçmiş günlərdən çox həvəslə bəhs edir, etdiyi söhbətlərin müşayiəti ilə bəzən üzünə sevinc yansıyır, gözləri gülür, bəzi hallarda isə çöhrəsinə dərin kədər çökür, gözləri yaşarır. Gülgəz nənə söylədiklərini sanki yenidən yaşayır. Ən əsası, o, dediklərinin çox lazmlı olduğunu dərk edir və həvəslə danışır, kitabın ərsəyə gəlməsi üçün əlindən gələni əsirgəmir.

Gülgəz nənə həm də ənənəvi bir xarakterə sahibdir. "Qonşudan heç vaxt çörək almazdım, xoşum gəlməzdi. İşim nə qədər çox olsa da, mayanı hazır edib çörəyimi salardım", "kim ac qalsa, günah onun özündədir", "bu yaşımda da ağır işlər görürəm. Bədənim ağır işlərə öyrənib, otura bilmərəm" fikirləri onun qürurlu, təpərli və qoçaq bir insan olduğunu ifadə edir.

Gülgəz nənə ilə ilk görüşümüz 2016-cı ildə baş tutmuşdu. Ailəmlə Təbrizə gedərkən onların evində qonaq olmuşduq. Gecə yarısına kimi Gülgəz nənənin şirin, bir-birindən maraqlı söhbətlərinə qulaq asmışdıq. 2022-ci ildə ikinci görüşümüz zamanı Gülgəz nənənin əsl ənənə daşıyıcısı olduğuna bir daha əmin olduq. Ondan ilk dəfə folklor örnəkləri toplayarkən düşünmüşdük ki, səs yazılanın üzünü köçürüb "Dədə Qorqud" elmi toplusunda (folklor örnəkləri guşəsində) nəşr etdirərik. Ancaq Gülgəz nənə danışdıqca, bayatı, rəvayət, xatirə, tapmaca, atalar sözləri və folklorun digər janrlarına aid örnəkləri həvəslə, yorulmadan bir-birinin ardınca düzüb söylədikcə toplanacaq materialın həcminin

böyük olacağına şübhəmiz qalmadı. Bu səbəbdən də topladığımız materiallardan kitab hazırlamaq qərarına gəldik.

Gülgəz nənənin ənənə xanımı olduğu hər halından bəllidir. Onun geyimindən tutmuş davranışına, hərəkətlərinə, baxışına qədər bütün təbiətində özünü göstərən xüsusiyyətləri zəngin türk ənənəsinin bariz nümunəsi olduğunu sübut edir. Gülgəz nənənin başını aşağı salıb qaş altından yuxarı dikilən baxışları bizə çox tanış idi: biz bu "altdan-yuxarı" baxışları babalarımızda, nənələrimizdə də görmüşdük.

Söyləyicimizlə söhbət edərkən: "Gülgəz nənə, nə bilirsən, hamısını bir-bir danış, sənin bütün dediklərini bir yerə toplayıb kitab nəşr etdirəcəyik", dedik, o isə: "mən neynirəm kitabı, danışacam, sən öz adını yazarsan kitaba, əsas odur ki, bu sözlər itib-batmasın", demişdi. Mən isə "elə şey olmaz" deyib gülümsəmişdim. Yəni Gülgəz nənə təhsilsiz qadın olsa da, öz şifahi bilgilərində aid olduğu ənənənin bütün xüsusiyyətlərini, ünsürlərini dəqiqliklə qoruyub saxladığını və daşıdığı ən kiçik məlumatların da bir xalqın elmi və gələcəyi üçün çox faydalı olacağını yaxşı bilirdi. O, bu dəyərli şifahi ənənə nümunələrinin yaşlı nəsil dünyadan köçdükcə get-gedə itib-gedəcəyindən narahat olaraq "bunnarı çox adam bilmir, heyifdi, deməsəm, itib gedəcəh" demişdi. Buna görə də Gülgəz nənə bu örnəklərin toplanmasında çox maraqlı idi və onları həvəslə söyləyirdi. Onunla bir neçə dəfə görüşərək söylədiklərini diktofona yazmışdıq. Mən Bakıya qayıdandan sonra söyləyicimiz "narahat olma, indi çox şey yadıma düşmür ey, nə vaxt yadıma düşsə, tez dəfdərə yazıb saa göndərəcəm" – demişdi. Gülgəz nənə dediyi kimi də etdi. Daha sonra bir neçə dəftər folklor materialı göndərdi.

Söyləyicimiz haqqında bir məqamı da qeyd etmək yerinə düşərdi: indiyə kimi görüşdüyümüz söyləyicilər içərisində Gülgəz nənə qədər səlis şəkildə və sayca çox bayatı söyləyən

olmamışdı. O, bir "oturum"a rahatlıqla 40-50 bayatı söyləyəndə çox təəccüblənmişdik. Toplama təcrübələrinə əsaslanıb deyə bilərik ki, əksər söyləyicilər bayatını yadda saxlamaqda çətinlik çəkirlər.

Gülgəz nənədən topladığımız şifahi örnəklər içərisində, yuxarıda da vurğuladığımız kimi, bayatılar çoxluq təşkil edir. Onun söylədiyi bayatılar, əsasən, Vətən sevgisi, Vətən həsrəti, övlad həsrəti, sevgi, nisgil, kədər və s. mövzuları əhatə edir. Topladığımız materillar içərisində nəzm və nəsrin sintezindən ibarət rəvayətlər də yer alır. Bu örnəklər, əsasən, didaktik məzmunludur və nəzm hissələri mətnin didaktiklik xüsusiyyətini daha da önə çıxarır.

Söyləyicimizin təhkiyəsində diqqət çəkən məqamlardan biri də eyni örnəklərin variantlaşması məsələsidir. Biz onunla söhbət edərkən variantlaşmanın iki xüsusiyyətini müşahidə etdik. Birinci odur ki, müxtəlif vaxtlarda Gülgəz nənə eyni şifahi örnəyi fərqli şəkildə söyləmişdi. Məsələn, birinci dəfə "Ayıblı ayıbın bilsə, başına papaq örtər" deyən söyləyicimiz ikinci dəfə "Ayıblı ayıbın bilsə, başına papaq atar" deyərək "örtər" feilini "atar" feili ilə əvəz edir.

İkincisi odur ki, söyləyicimiz özü bayatı söyləyərkən misralardakı variantlaşmaya xüsusi olaraq diqqəti cəlb edir və fikrini "belə də deyillər", " belə də olur" şəklində ifadə edir.

"Bağban bar deyib ağlar,
Heyva nar deyib ağlar.

Analar oğul deyər" dedikdən sonra "belə də olur" deyərək variantlaşan sətirlə bayatını söyləməyə davam edir:

"Bacılar qardaş deyər,
Gəlin də yar deyib ağlar".

Hər iki halda eyni nümunələrin müxtəlif variantlarını biz bərabərlik (=) işarəsi ilə fərqləndirmişik.

Bundan başqa, Gülgəz nənə bayatı söyləyərkən bəzi hallarda bayatı sətrinin sonuna heca ölçüsündən kənara çıxaraq müəyyən ifadələr də əlavə edir, həmin əlavələri isə kursivlə fərqləndirmişik:

Ördək göl olan yerdə,
Ceyran çöl olan yerdə.
Anunan bacuun qurban, *ay şəhitdər,*
Qanun göl olan yerdə.

Gülgəz nənə yaşadığı kənddə baş verən maraqlı əhvalatlardan da bir neçəsini söyləsə də, həmin əhvalatlarda haqqında danışılan kənd sakinlərinin adlarının kitaba verilməsini istəmədi. Bu səbəbdən də onun öz istəyi ilə biz həmin adları "Filankəs" ifadəsi ilə əvəz etdik. Məsələn, "Bu da deyir ki, bizim filankəsdi də, çoxdanıydı xəsdeydi"; və yaxud "Deyir ki, bizim kəntdən cavan gəlindi. Filankəsin gəlinidi, cavan rəhmətə getdi, balaları da qaldı". Düşünürük ki, mətnlər üzərində söyləyicimizin istəyi ilə edilən bu kiçik düzəlişlər mətnin süjet və mətn xüsusiyyətlərini zədələməyəcək.

Söyləyicinin repertuarında bayatıdan sonra atalar sözləri və məsəllər çoxluq təşkil edir. Bundan başqa, rəvayətlər, xatirələr, mərasim folkloru ilə bağlı örnəklər, əzizləmələr və digər janrlara aid nümunələr söyləyicidən topladığımız materillar içərisində xüsusi yer tutur. Örnəklərdə qarşıya çıxan bölgəyə xas ifadələrə söyləyici tərəfindən izah verilmişdir və həmin izahlar ətək yazısında yerləşdirilmişdir.

“Usta söyləyicilərin repertuarı” seriyasından olan birinci kitabda təhkiyəsinə, sənətkarlığına və zəngin repertuarına görə seçilən dörd söyləyicinin şifahi irsindən örnəklər verilmişdir.

Düşünürük ki, Biləsuvar rayonunun Əsgərabad kəndində doğulub böyümüş, ömrünün çox hissəsini Aşağı Cürəli kəndində yaşamış Gülgəz nənənin söylədikləri Biləsuvar bölgəsi folklorunun toplanması işində uğurlu addım kimi əhəmiyyətini göstərəcək və Azərbaycanın Cənub bölgəsinin folklor tədqiqatlarına yeni nümunələr və örnəklərin variantlaşması müstəvisindən öz tövhəsini verəcəkdir.

Kitabın hazırlanmasında göstərdikləri köməyə görə Samir Ağakişiyevə, fil.ü.f.d. Xalidə Məmmədovaya, fil.ü.f.d. Qumru Şəhriyara, fil.ü.f.d Səbuhi Adiloğluna və İlahə Qurbanovaya öz dərin təşəkkürümüzü bildiririk.

# I

# MİFLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## DÜNYANIN YARANIŞI HAQQINDA

Allah-Taala yeri altı günə yaradıb. Görüb yox yerdə o qədər silkələnmə olub dağları üstünə atıbdı ki, yer çox tərpənməsin.

***

Allah-Taala yeri altı günə yaradıb. Yer o qədər titriyirmiş ki, üsdünə dağları bənd vurub ki, dayansın.

***

Deyirlər, əgər öküzün bi tükü dəbərsə, yer silkələnər. Öküz qalxsa, yerlə göy tar-mar olar. Öküz yatıb yerin altında.

***

Biri də deyir, yerin altında balıx var. Balığın bir pulu balaca dəbərsə, yer təpənər.

***

Deyir, Adəm bir dilim buğda yeyib, şeytan yoldan çıxardıb, bir dilim yeyip. Görürsən, buğdanın qarnının yarığı qalıp. Yeddi ilə onu cənnətdən çıxarıblar. Yeddi il Adəmlə Həvva birbirin görmüyüp.

## ÜLKƏR ULDUZU

Bir oğlannan bir qızın görüşü olur. Deyir:
Mən aşığam ay Mədət,
Ülkər Mədəd, ay Mədəd.
Ayrılığdı, ay Mədət.

Qız qaçıb gedir, deyir atam, anam qalxar, görər evdə yoxam. Yəni, Dan ulduzu doğulanda bizi görə bilərlər, tez qaçıb ayrılır.

***

Elə Dan ulduzu Ülkərdi da. Ülkər ən axırıncı ulduzdu da. Dan ulduzu doğulupdu.

## MƏKKƏ YOLU

Göydə belə bir bulut kimi gedir ey. Görürsən, yayda olur. Mənim o vaxdı nənəm deyərdi: gündüzlər okqədər isti olub. Əri Kəlbəlaya gedirmiş. Deyirdi, gecələr yol gedirmişlər onun səmtində - həmin o göydə bulut kimi görünənin. Gündüzdər Kərbəla tərəf həddindən artıq isti olduğuna görə bunlar gündüzdər çadırın altına girərmişlər, gecələr yol gedərmişlər. Həmin onun izi ilə gedirmişlər Məkgəyə.

## TOYUQ

Toyuğa deyiplər, gəl sənə bir əmbüz[1] buğda verəh, sən eşələmməyinnən əl çək. Toyux razı olmuyup. Deyip, yox, mən gərəg eşəliyəm. Bir əmbüz buğdanı töksən, səhər gəlip görrərsən ki, buğda gedip hara çıxıb.

## PİŞİK MUNDAR SAYILMAZ

Deyillər, o vaxdı Peyğəmbər əlin beləcə pişigin arxasına çəkib. Ona görə də heç vaxdı pişigin arxası yerə dəymir. Pişigi dört qıçınnan yerə tullasan da, belə dört qıçıyla da yerə düşür,

[1] Taya

arxası yerə dəymir. Həm də pişik mundar sayılmaz. Namaz qılırsansa, pişik gəlip yanınnan keçirsə, mundar sayilmaz. İt mundardı ama.

## DİL BƏLASI

Bir məclis olub. İki kişi üz-üzə oturublar. Bular hər ikisi söznən, baxışnan bir şeyi anlayan, arif adamlar olub. Məclisdə bular bir-birinə baxanda birinci kişi başdıyıp başını qaşımağa, başın qaşıyır, o biri kişi də dilin çıxardıb (belə dilin çıxardıb – söyləyici göstərir – top.). Başdıyıb şifahi sual veribdi ki, mən başımı qaşıyıram, sən niyə dilüü çıxardırsan? Deyir, sən mənə baxdun, sual verdün, dedün bu baş nədən bəla çəkər? Mən də sənə cavab verdim ki, dildən.

## CAVANLAR NİYƏ ÖLÜR?

Peyğəmbərə sual verillər ki, ya Peyğəmbər, sənə qurban olum, niyə bı cavannarın ölümünə Allah-Taala razı olur? Yaşdılara baxıp deyillər ki, əşi, gün görüp, dövran sürüp də. Lazımınca yaşıyıp, Allah rəhmət eləsin. Bı cavannar bəs? Oydu ki, peyğəmbər deyip ki, gedin meşədən mənə on dənə ağaç kəsin gətirin. Balta götürüplər gediplər, baxıplar, ağacın yaxşısınnan, düzünnən on dənə kəsip gətiriplər. Gətirip uzadıplar Peyğəmbərin qabağına. Deyip, bəs siz gedip bı cavan ağajdarı niyə kəsip gətiripsiz? Deyib, biz də sənə ləyax, yaxşı ağajdarı kəsdih, gətidih. Deyib, hə, Allah-Taala da ona layığ olan cavannarı tezkən aparır ki, bular qalar, çox günah işlədər. Oydu ku, bı cavannarın ölümü də bı ağajdar kimidi.

## BORC

Biri gəlip borc isdeyir, aparır, gətirmir. Borc verən çox gözdüyür, bı borcu gətirmir. Bi gün ikinci dəfə bı yenə borca gəlir. Borc verən deyir ki, döşəgcəni qaldır, altındadı, götür apar. Bı qaldırıp deyir ki, axı bırda pul yoxdu. Deyir, əvvəlin gətirmişdin ki, indi aparasan? Odu ki, gərəg aldığuu verəsən.

## XORNƏÇİ TƏPƏSİ

Deyillər, o təpəni camahat qurup. Xornəçi yatırmış orda. Sonra camaat görüb bu, belədir, yeddi dənə təpə quruf. Bajısı gəlib təpələri eşincən təpənin altında ölüf. Doğurdan da, yeddi balaca yüngül təpə var idi orda. Elə ona görə Xornəci təpəsi deyirdilər.

## İTƏ YAZILAN DUA

Deyillər, Molla Pənah Vaqif hələ ad-san açmamışımış. Çoban ona ət gətirip gəlip deyir ki, mənim bu itimə duva yaz. Bı da yazıb asdıyıp itin boynunnan. Bi dəfə kimsə çobana ras gəlib bına deyip:

– Bı nədi?

Deyib:

– Molla Pənah Vaqifə yazdımışam.

Onda mollaya deyib:

– Bu nədi yazmısan?

Deyib:

– Açın, görün nə yazmısan.

Yazıp ki,

Gözün düşdü ətivə,

Duva yazdım itivə.
Vaqif onnan sora başdıyıp yazmağa.

## VARINI ÖZ ƏLİNLƏ VER

Deyir, birinin xurma bağı variymiş. Xurmanı yığmışımış böyük bir ambara. Kişinin vəzyəti ağırraşanda peyğəmbəri çağırıp deyip ki, mənim bu xurmamı mən ölənnən sora paylıyarsan. Bı ölüp. Üçü, yeddisi çıxıp, peyğəmbər gəlip bunun xurmasın paylıyıp. Hamı deyir ki, bəxdəvər başua, bının xurmasın peyğəmbər paylıyır. Yəni hörmətdi şəxs bının ehsanatın paylıyır. Peyğəmbər gəlip camahat baxıp, baxıp, gedip girib içəri, görüb ambarın bir cüng[1]ündə bir çatlaxda bir xurma qalıp. O xurmanı götürüp gəlib. Deyib, ey millət, başa düşün, mənim bu boyda ambarı paylamağımnansa, özü öz əlinən bi gilə[2] xurmanı payleseydi, çox osanata düşərdi. İnsan gərəh öz varın öz əliynən versin. Nə qədər sağsuz, varız varsa, özüz öz əliiznən kasıba-kusuba, olmuyana onu verin. Özüün ürəyin gəlmir, ölənnən də soora başqası paylıyır. Öz əlinnın versən, o dünyaya da bi şey aparарsan.

## BAL - ÇÖRƏK

Deyir, birinin oğlu səfərə gedirmiş. Atası-anası heybəyə gətirib muna çörək qoyub. Deyiplər:

– Oğul, gedərsən, haçan acdun, baxarsan, çörək bala dönəndə yeyərsən. Bala dömməmiş yemə. Bu gedib bi müdət görüb acıb, deyib, əşi, oturum həm dincimi alım, həm də biraz

[1] Künc
[2] Dənə

çörək yeyim. Baxıb görür çörək atam-anam nə təhər qoyubsa, o cürə qalıb. Bi xeylək də yol gedib. Yenə baxıbdı, yox, əşi çörəyi atan-anam necə qoyupsa, eləcə də qalıb. Heç bunun bala-zada çönmək halı yoxdur. Bir xeylək da gedib. Deyir, mənim daha yeriməyə taqətim, hərəkətim yoxdur, acımdan[1] ürəyim keşdi. Baxıbdı, yox əşi, çörək genə bala dönmiyip. Deyib, bala dönmədi bu, çörəyi götürüb başdıyıb yeməyə. Çörəyi yeyendə deyib, bay, atam-anam muna görə deyirmiş e, çörəg, doğurdan da, nə yaman bal kimidir. Möhkəm acanda və yorulanda görürsən, çörək sənə bal kimi gəlir. Amma könülsüz yeyəndə və yaxud yeyifsən e, sora biri sənə təklif eliyir ki, bı çörəkdən ye, çörək sənə o cür dad vermir. Ac olanda o çörək, ya nə cür datsız yemək olsa, sənə daddı gəlir, onnan doymursan.

## QARIYA BAX, QARIYA

Bi gün bi qarı Həccə gedirmiş. Bı qarı gedəndə o vaxtı bi dəstə lotu məzəli kişilər çıxıb qarının qavağına. Tutuf qarının paltarın soyunduruflar. Qarıya deyiplər, biz əl çalax, sən oyna. Bınnan qabax lotular deyirmişdər. Məzəli bir şeyi ortalığa salıp gülməgçün eliyirmişdər. Bı qoca qarını da gətiriplər, lüt eliyiplər. Arıya salıp əl çalıplar, deyiplər, indi qarı, sən oyna, biz sənə baxax. Hamısı da belə-belə əl çalırmışdar. Qarı da bir az oynuyup deyip:

– Qaarıya bax, qarıya,
Qaarıya bax, qarıya.

Bütün məclis əl çalıb. Qarı da oynaya-oynaya:

– Arı yox, namusu yox,
Taarıya bax, Taarıya.

---

[1] acından

Yəni Allah qoruxusu olmalıdı adamda, ar olmalıdı, namus olmalıdı.

## DUZ UCUZ, KƏRMƏ BAHA

Deyir, bala, bir gün olub, arvada bicdik gəlir, deyir kişim çox avam *kişidir*, çıxsın getsin, mən burda öz bildigimi edim üstüörtülü. Deyib:

– A kişi, bilirsən nə var, deyirlər, Kirmanşahda təzək[1] yaman bahadır, orda da duz ucuzdur. Gə bırdan kərmə yühlə apar, ordan da gələndə duz yühlə gəti bırda sat, qazan. Kişi bunu yığır, yükləyir bi yekə dəvəyə, düzəlir yola, gedir ora. Camaat buna gülür, deyirlər:

– Hər tərəf mal-heyvan, təzək doludur, hara gedirsən?

Deyir:

– Məni arvad yollayıb, burda, deyir, duz ucuzdur, kərmə[2] baha. Mən də bunu gətirmişəm ki, bunu satım, əvəzində duz alıb götürüm aparım evə, bizdə duz bahadır. Deyirlər:

– A kişi, sənin arvadın düz arvad olmayıb, nəsə bir fırıldağı varmış, səni azdırıb evdən çıxardıb. Sən getginən evə, girmə, bir dalda yerdə arvadı güd, gör bu arvad nə işlə məşquldur, səni aldadıb, kərmə nə olan şeydir ki, baha olsun.

Kişi gəlib suyu süzülə-süzülə, qayıdıb gennən baxıb görüb bunun evində nəsə yığıncaqdır, özü üçün məclis qurub. Çıxıp, bə nağayrım? Alçağ evimiş, bi balaca yırtıq açıb, başdıyıb kişi ordan baxmağa. Kişi baxıb görüb arvad kef məclisi açıb. Gedib bi keçi dərisi götürüb kəsib iki dənə gözdüg açıb atıb

[1] Heyvanın nəcisini divara yapırsan, təzək olur.
[2] Heyvanın nəcisi yerdə yığılır, kərmə olur.

başına. Bunu tanımamaxdan ötrü. Girib içəri, görüb biri çalır, biri oynayır, arvad da bulara qoşulub kefdədi. Deyiblər:

– Ayə, sən kimsən?

Deyib:

– Mən də sizin kimi belə məclisin adamıyam.

– Onda yaxşı, biz çalağ, sən oyna.

Deyir, kişi çırtma çala-çala başdıyıb oynamağa:

– Duz ucuz, kərmə baha,
Sür Babaxan, Şirvanşaha,
Qara keçə, ortası dəlik,
Bu dəzgaha bax Babaxan, bax Babaxan!

Sora hamı başa düşür ki, kül başuva, bu Babaxan imiş, başına dəri keçirdib, gəlib arvadun məclisinə.

## İZ EŞŞƏYİN, FEL GƏLİNİN

Qaynanam deyirdi ki, biri varıydı, heç vax gəlini dirrig işinə[1] buraxmazdı. Yəni, sütü, qaymağı, pendiri özü rahatlardı. Gəlinin ixdiyarı yoxiydi ki, o otağa keçsin. Bir gün gəlinin könlünə qaymaq düşür. Qayananası evdə yoxiymiş. Gəlin gedip həyətdə bağlanan eşşəyi açıp minir, eşşəyin belində gəlir dirrig otağına. O vaxdı evlər alçaq olarmış, yerdən olarmış. Gəlin eşşəyin belində sütün üzün, yəni qaymağı yığıp yeyir. Qaynana gələndə deyir:

– Ay ana, eşşəg açılıp girip sənin dirrig otağına, qaymaq içib. Qaynana baxıp görür ki, doğurdan da, eşşəyin ayaq izləri var. Onda deyir:

İz eşşəyin, fel gəlinin.

[1] Südü, pendiri, qaymağı hazırlamaq işi

## ATA-ANA BORCU

Deyir, məclis qurulmuşmuş. Biri oğluna atanın-ananın ehtiramın gətirməkdən, ata-ananın yol-yolağın gətirməgdən danışırmış ki, bala, ataza-anaaza belə hörmət eliyin. Zəhmətnən, əzyətnən saxlıyıp sizi. Biri öyənnən qalxıp deyipdi:

– Mən anamın əzyətinnən çıxmışam.

Deyiplər:

– Nağarıpsan?

Deyip:

– Üş dəfə dalıma mindirip piyada Kəlbəlaya ziyarətə aparmışam.

Söbəti eliyən deyip ki, yox, oğul, onun heç bir gecəsinin hakqı döyür. Sənin onu apardığın üç gün ananın çəkdiyi bir gecənin əzyəti döyür. Ona görə bizim həmişə borcumuzdu, atamıza, anamıza eytiram eliyək, onun yol-yolağın gətirək. Nə qədər gətirsək, ata-anamızın borcunnan çıxa bilmərik.

## SƏBƏT

Bi kişinin atası o qədər qocalır, əldən düşür. Gərək bunun ağzına yemək verəsən. Day özün idarə edə bilmirmiş. Evin banında bi səbət varıymış. Gedir o səbəti gətirir, qoyur kişini içinə, sarıyır dalına. Deyir, aparım qoyum meşəyə, qayıdım gəlim. Gedir, bi uzax yer aparır. Səbəti qoyur yerə. Kişini səbət qarışıq qoyur. Kişi deyir:

– Hara qayıdırsan?

Deyir:

– Evə.

Deyir:

– Səbəti götür, apar özünnən.

Deyir:

– Bə niyə?

– Vaxtilə, mən də atamı bu səbətdə gətirib belə bi yerə atmışam. Bu lazım olar da sənin oğlua. Səni də bu səbətdə gətirib qoyallar. Cünki mən də atama belə olmuşam. Sən də bil ki, o bu səbətdə gətirəcək.

## QAZİNİN BÖLGÜSÜ

Bir gün bir bacı-qardaş varıymış. Onların ata-anaları rəhmətə gedir. Qazini çağırırlar ki, ata mirasını bölsün. Qazi bacı-qardaş arasında bütün əşyaları bölür. İş gəlib qapıdakı ördəklə qaza çatır. Bunuböləndə qardaş yavaşca qaziyə deyir:

– Mənim payımı çox elə.

Qaz-ördəyə çatanda qazi üzünü bacıya tutub deyir:

– Qaz, əti az-maz. Bu, sənin qardaşuun.
Ördək – yağı gürdək-gürdək. Bu da sənin.

## BEŞİ MOLLANIN

Molladan xahiş edirlər ki, yeddi nəfər arasında bir ət payını bölsün. Molla deyir:

– Əgər mən bölürəmsə, mən də sizə şərik.

Başdıyır bölməyə. Bölənnən sonra camaat baxır ki, onlara çox az düşür.

Camahat etiraz edəndə molla deyir:

– Ay bala, başı mollanın, leşi mollanın. Yeddi payın beşi mollanın.

## MOLLA, GƏL AL BUNU...

Bir molla düşüp dəryada boğulurmuş. Camaat yığılıb "molla əlüü mənə, əlüü mənə" deyip əllərini uzadıllar ki, mollanı sudan dartıb çıxartsınlar. Bu molla boğulurmuş, ancaq əl vermirmiş. Bir nəfər oyannan gəlib deyib ki, siz indiyənə qədər mollanın bir şey verdiyin görübsüz? Ona deyin ki, molla gəla bunu, gəla bunu... Bunu deyəndə molla tez ikiəlli yapışır bunnan, tez çəkib sudan çıxardıblar. Molla tayfası belədi...

## BƏY VƏ NÖKƏR

Bir bəy oturmuşumuş arabada, nökər arabanı sürürmüş. İndiki kimi də asvalt döyülmüş də, palçıxlığımış. Gedip palçıxda batıp. Nökər onda arabıya köməhliy eliyirmiş də - heyvana ki araba çıxsın. Nökər arabanı itəliyirmiş, bəy də yuxarda oturup deyirmiş:

– "İiiii..".

Nökər deyip:

– Ay bəy, mən arabanı çəkirəm, sən niyə "iiii" eliyirsən? Deyir, adam var burda iş görür – nə bilim, yer şumluyur, nə bilim nə iş görür, o birsi orda sızıldıyır ki, ay Allah, qutarmadı, canımız dincələ. O qədir rahatçılığıa öyrəşip ki, o birinin işdəməyinə də höösələsi çatmır. Mənası bıdı.

## QONŞUNUN ƏCƏLİ

Bir gün iki qonşu savaşırmış. Savaşanda o qonşu gəlip bını vırıp. Bı qonşu da əl atıp daşı götüməyə, daş bının əlinə atdanıp. Daş atdananda deyip, yox, bırda səbir eliyim, bı daş mənim əlimə atıldı. Mən isdədim daşı götürəm, daş mənim

əlimə düşdü. Bı əlin saxlıyıp, daşı qoyur cibinə gedir, da bına əhəmiyət vermir. Aradan bir ay keçir, beş ay keçir, bilmirəm, bı savaşan qonşunun vəzyəti ağırraşır, ölüm əyağına gəlir. Ha bi gün, iki gün, üç gün, bı qonşu ölməh bilmir. Bı elə can verə-verə qalır. Xəbər gedir bına, deyir, fılan qonşunun canı çıxmır, haçandı, can verir, ancax ölmür.

Deyir:

– Həə, mən onun bilirəm, dərdi nədi. O qonşu mənim əlimnən ölməliydi – bı daşnan. Mən əl atdım onu daşnan vırmağa, daş mənim əlimə atıldı, mən başa düşdüm ki, bırda nəsə var, bı daş mənim əlimə atıldı. İndi icazə verin, bı daşı aparıp qoyum ora.

Qonşu daşı götürür aparır onun elə sinəsinə qoyan kimi bının canı çıxır. Yəni bının əcəli bınnan tamamıymış.

## UŞAĞIN BÖYÜKLÜYÜ

Bir gün şah vəziri ilə söhbət edirdi. Birdən dedi:

– Vəzir, məndən güclü bir adam var?

Vəzir dedi:

– Şah sağ olsun, acığın tutmasa, deyərdim.

Şah dedi:

– İzindi de.

Dedi:

– Uşaq.

Şah dedi:

– Sən nə danışırsan? Bir uşaq nədir ki, məndən güclü olsun?

Vəzir dedi:

– İnammırsan, çağır soruş.

Gedip bir uşaq gətirdilər. Uşağa dedilər:

– Nə istəyirsən?

Dedi:

– Süd.

Südü gətirdilər.

Uşaq bir az baxıb dedi:

– İndi su gətirin, gedin su gətirin.

Gedib su da gətirdilər.

– İndi südə su qatın.

Südün üstünə su qatdılar. Uşaq biraz süddən içib dedi:

– İndi suyu süddən ayırın, süd dadsızdır.

Nə qədər elədilər, uşaq ovummadı. Başqa süd gətirdilər, razı olmadı, dedi, öz südümü verin. Onda vəzir dedi:

– Qibleyi aləm, görürsən, uşaq səndən güclüdür, hər dediyi olur.

## RÜSTƏM ZAL

Bir gün Rüstəm Zalın öyrətdiyi tələbəsi bütün fəndləri öyrənir. Rüstəm Zal bir fəndi öyrətmir tələbəsinə. Çox gücdü pəhlivanıymış. Onun kürəyini heş kəs yerə vurmurmuş. Bir gün Rüstəm Zal yaşdaşır. Şagirdi deyir ki, mən onsuz da bütün fəndləri bilirəm, güləşsəm, onun kürəyini yerə vuracam. Onlar güləş meydanına çıxır. Rüstəm Zal baxır ki, şagirdi ona güc gəlir. O, saxladığı fəndi burda işlədir və şagirdini yıxır. Özü-özünə deyir ki, yaxşı ki mən bu fəndi ona öyrətmədim, yoxsa kürəyimi yerə vurardı. Ona görə deyirlər, ustadına kəm baxanın gözlərinə qan damar. Şagird ustadının əməyini yerə vurmaz. Rüstəm Zal oğludu, Zal Sam oğludu, Sam Nal oğludu.

## QADINLAR ÜÇ CÜR OLUR...

Bir gün bir səyyah gəzirmiş. Gəlir bir obaya çıxır. Bərk susamışmış. Obada qadına deyir, ay bacı, mənə çayın olsa, çay ver. Qadın deyir, çayım olar, ancaq qəndim yoxdur. Səyyah deyir, gəl sənə bir misal çəkim. Görüm sən hansındansan. Qadın gəlir oturur bunun yanında. Səyyah deyir, qadınnar üç cür olur.

– Biri hopdurum hop,
Biri şıldırım şıp,
Biri qıldırım qıp.
İndi de görüm sən hansındansan?

Qadın deyir:

– Bu nə deməkdir?

Deyir:

– Hopdurum hop – kişi ət, düyü, kişmiş, yağ, ümumiyyətlə, ərzaq alar, gətirər. Arvad beş günün içində qutarar. Evə qonağ gələndə kişi deyər, ay arvad alıb gətirmişəm, du qonağa qazan as. Arvad deyər, nə var idi, hamısı qutarıb. Buna deyərlər, hopdurum-hop. Bundan qabaq bazar işin kişilər edərmiş. Bəli keçək, şıldırım şıpa. Kişi bazara gedib paltar parça alarmış. Arvad o uşağa paltar tikərmiş, bu uşağa cırılanı tikməzmiş. Qalanı ona pay, buna pay. Bir yerə gedəndə kişi deyərmiş arvad gətir o parçadan pay qoyaq. Arvad deyərmiş, nə pay, hamısın tikmişəm, qurtarıb. Buna da deyərlər, şıldırım-şıp. Hə keçək, qıldırım qıpa. Kişi bazarlıq edib gətirdiyi şeylərdən lazımı qədər gizlədib dar günə saxlarmış. Buna da deyərlər qıldırım qıp. İndi sən de görək hansındansan? Arvad gülə-gülə durub fərməşin ağzın açıb ordan bir qənd qabı kişmiş gətirib səyyaha çay içmək üçün. Səyyah deyib:

– Bacı, sən oldun qıldırım qıp.

## HƏR ƏT ÖZ DIRNAĞINDAN ASILAR

Bir gün Bəhlul Danəndə çox bikef gəzirmiş. Bunu görən Harun ər Rəşid deyir:

– Kim Bəhlulu gülən görsə, ona Bəhlul ağırrıxda xələt verəcəm.

Hamı düşür Bəhlulun arxasınca, görək Bəhlul nə vaxt güləcək.

Bir gün Bəhlul bazarda ət dükanının yanınnan keçəndə onu gülmək tutur. Bir nəfər qaçır Harun ər-Rəşidə ki gözün aydın, Bəhlul güldü. Bəhlulu çağırırlar:

– Sən niyə gülmürdün? İndi nə gördün güldin?

Bəhlul deyir:

– Mən bu camahata baxıb çox fikir edirdim. Hamı bir-birin aldadır, tərəzilər düz işləmir. Bunların o dünyada axırı nə olacaq? Bazarda ət tükanının yanınnan keçəndə gördüm ki, hər ət öz dırnağından asılır. Onda başa düşdüm ki, hər kəs elədiyi günaha özü cavab verəcək.

## ATASINA RƏHMƏT

Qədim zamanlarda bir dəyirmançı var imiş. O çəkdiyi buğdanın pulunu əvvəl alıb sonra onu un edərmiş. Bir gün o bərk xəstələnir. Gəlir ölüm ayağına. Oğlunu çağırıb deyir:

– Ay oğul, mən ölürəm. Ancaq camahatı çox incitmişəm.

Oğlu deyir:

– Ata qorxma, mən elə edəcəm ki, hamı sənə rəhmət deyəcək.

Ata ölür. Oğul onu dəfn edib ehsanın verir. Hüzür qutarannan sonra gedib dəyirmanın dörd tərəfinə hündür bir hasar

çəkdirir. Dən gətirənnər əvvəl hasarın o üzündə pulu verib sonra dəyirmana girirmişlər. Buna görə camahat deyir:

– Atasına Allah rəhmət eləsin. Camahatı içəri buraxıb sonra pul alırdı. Oğlu isə çöldə pulu alıb sonra içəri buraxır.

## QARA DAŞ NƏ VAXT DİLLƏNDİ, SƏN DƏ O VAXT...

Bir gün analıq ögey qızını gəlin köçürür, onun cibinə bir qara daş qoyur. Deyir bu qara daş nə vaxt diləndi, sən də o vaxt danşarsan kim nə desə, heç vaxt cavab qaytarma. Vaxt keçir, bu gəlini lal kimi başa düşürlər. Bir gün ata-ana oğlanlarını danışan bir gəlinlə evləndirmək qərarına gəlirlər. Onlar başqa bir kənddən gəlin gətirillər. O vaxtı gəlin at belində gələrmiş. Gəlin at belində gələndə evdəki lal gəlin də ocaq başında süd bişirirmiş. Atın belində gələn gəlinə baxırmış. Birdən süd daşır. Atın belindəki gəlin tez dillənir:

– Süd daşdı.

Lal gəlin özunnən ixtiyarsız tez deyir:

– Oturub zərər başında,
Gözü ocaq başında.
Nə tez gördün süd daşdı?

Bunu görənnər çaşıb qalırlar. Deyirlər, sən danışa bilirsən, indiyə kimi niyə danışmırdın. O cibindən qara daşı çıxarıb deyir:

– Analığım mən gəlin gələndə dedi ki, bu daş nə vaxt dillənsə, dilənərsən. Mən də daşı gözləyirdim. Ona görə, danışmırdım. Evdəki gəlinin saf və təmiz olduğunu görən ata-ana elə gəlini atın belindəcə geri qaytarıllar.

## QARĞANIN NARAHATLIĞI

Bir gün ala qarğa balalarına deyir:

– Ay balalarım, gördüz insanlar yerdən daş götürür, bilin ki, onlar sizə atacaqlar.

Balaları deyir:

– Ay ana, bəlkə o daşı uzaqdan götürüblər.

Ana qarğa deyir:

– Hə, indi bildim ki özünüzü qoruya bilərsiz.

## GÖY MUNCUQ

Bir qadının "üç yeznəsi" var idi. Yeznələr həmişə bir-birinə deyərmiş, qaynana səni çox istəyir. Bunu görən qaynana gizlincə hər yeznəsinə bir göy muncuq verir və deyir:

– Göy muncuğum kimdədir.

Mənim canım ondadır.

Yeznələr hərəsi özlüyündə deyərmiş ki, elə məni deyir.

## EHSANI OLSUN

Şahın qızı yatdığı yerdə görür ki, ona baxan qarabaş zarıyır:

– Ay Allah, yanıram, su olsaydı, içərdim. Bunu eşidən xanım tez qarabaşı səsləyir, ona deyir:

– Dur mənə bir kasa su gətir.

Qarabaş tez durub bir kasa su gətirir.

Xanım deyir:

– İndi suyu iç.

Qarabaş suyu axıracan içir. Deyir:

– Ay Allah, xanımın atasının payı – “ehsanı olsun”, susuzluqdan yanırdım.

## MARALIN İNCİKLİYİ

Bir gün çayın qırağında olan qurbağa görür bir yaralı maral su içir. Bunu görən qurbağa deyir:

– Görəsən, ay maral, bu ovçular sən maraldan, mən maraldan nə istəyirlər?

Bunu eşidən maral başdayır can verməyə. Deyir:

Ay qurbağa, ovçunun gülləsi məni öldürmədi. Amma sənin bu sözün məni öldürdü. Sən maral oldunsa, vay mənim halıma.

## ANANIN GÜNAHI

Bir gün bir oğrunu tuturlar. O qədər oğurruğ etmişdi, onu aparıb dar ağacınnan asmax qərarına gəlillər. Oğrunu dar ağacının yanına gətirib deyirlər son sözünü de. Oğru deyir:

– Mənim anamı gətirin, onunla görüşüm.

Oğrunun anasını gətirirlər. Oğru anasının üz-gözündən öpəndən sonra deyir:

– Ana, dilini çıxart, qoy dilindən öpüm.

Arvad dilin çıxardır, oğlu anasının dilini ağzına alıb dişi ilə qoparır. Şahın adamları arvadı onun əlindən alıllar və sual edillər:

– Sən ananın niyə dilini dişinlə qopardın?

Oğru deyir:

– Mən oğurluq edəndə anam məni danlasaydı, vursaydı, mən də oğurluq etməzdim. Mən oğurluq edəndə elə anam dedi, get gətir, mənim də qorxum olmadı. Ona görə günahın çoxu anamdadır.

## AĞILLI MƏSLƏHƏT

Qədim zamanlarda iki bacı oturub söhbət edirmişlər. Bacının biri ona sual edir:

– Ay bacı, sənin ərin səninlə çox mehribandır. Amma mənimki çox qəzəblidir. Mən nə edim ki, o da mənimlə mehriban olsun?

Bacısı ona deyir:

– Sən mənə get üç dənə şir buğu gətir, mən də onun sirrin deyim.

Bacısı bir müddətdən sonra ona üç dənə şir buğu gətirir. Bacısı ona sual edir:

– Sən bunu necə əldə etdin? Axı şir vəhşi heyvandır.

Bacısı deyir:

– Mən şirlə xoş rəftar etdim. Ona yemək apardım. Yeyənnən sonra onun boyun-boğazını qaşıdım, tumarladım, sonra bir buğun çəkdim, belə-belə üç dənə buğ elədi.

Bacısı dedi:

– Ay bacı, elə bu rəftarı ərinlə də eləsən, o da səninlə yaxşı rəftar edər. Sən vəhşi bir şiri yola gətirirsən, amma öz ərini də yola gətirə bilmirsən.

## ŞİR VƏ TÜLKÜ

Bir gün şir balası ilə gəzirmiş. Bunu görən tülkü şirə baxıb gülür, deyir:

– Ay şir, bu boyda şirsən, yanında bir bala, mənim isə altı balam var. Onlara baxıb fəxr edirəm.

Şir deyir:

– Ay tülkü, mən bir bala doğuram. Doğanda da şir doğuram. Sənin kimi tülkü-mülkü doğmuram.

## BƏXTSİZ KİŞİ

Bir kişi evlənir, aylə həyatı qurur. Bir-iki il keçməmiş bunun arvadı ölür. Bunun qırxı çıxır, bu bir az keçənnən sonra təzədən evlənir. Bu arvad da yıxılıb ölür. Kişi bunun da qırxın verir. Bir az gözləyir, təzədən evlənmək istəyir. Buna gedib başqa kəntdən arvad alırlar. Arvadı at ilə gətirirmişlər. Kəndə gəlmək üçün gərək çaydan keçələr. Bunlar çaydan keçəndə at büdrəyir arvad atın üstündən yıxılır, elə ordaca ölür. Bunu görə kişi deyir:

– Aparın tez basdırın. Çox qulluğumu tutdu.

## HƏR KƏSƏ ÖZ YURDU

Keçmiş zamanlarda şahın gözəl bir quşu var imiş. O quşuna qızıldan qəfəs düzəldir. İçinə qızıldan cam, camın içində ona dən, su qoyarmış. Quş qızıl camdan dən yeyərmiş, qızıl qabdan su içərmiş. Buna baxmayaraq, arada çox bikef oxuyarmış. Deyərmiş:

– Gəvən[1] evim,
Gənc evim,
Orda yatım dincəlim.

Bunu görən şah əmr edir, quşu buraxın, görün, bu hara gedir? Quşu buraxıb dalınca düşürlər, görürlər, quş gedib böyük bir gölün altında uzanıb yatır. Və yenə mahnısın oxuyur:

– Gəvən evim,
Gənc evim,
Rahat yatım, dincəlim.

Ona görə hər kəsə öz yurdu gözəldir.

[1] Söyləyici: tikan kolu

## ALLAH KƏRİMDİR

Günnərin bir günündə bir şəxs gedir peyğəmbər yanına deyir.

– Ya peyğəmbər, on bir ayın ruzusu var, bir ayın ruzusu yoxdur. Mən nə edim ki onu qazanım?

Peyğəmbər deyir:

– Get filankəsin yanına, o sənə deyər.

O gedir peyğəmbər deyən səmtə. Axşam vaxtı imiş. Görür evin xanımı süfrə açır. O, ərinə deyir:

– Ay kişi, nəyimiz vardı, gətirdim. Sabaha heç nəyimiz qalmadı.

Əri deyir:

– Ay arvad, bunu yeyək, sabah Allah kərimdir.

Kişi deyir, vay mənim halıma. Mən bir ayın ruzisin dərdin çəkirdim. Bu isə deyir, sabaha Allah kərimdir. Sonra başa düşür ki, peyğəmbər bunu niyə bura göndərib.

## XƏŞİL

Günlərin bir günü bir qonşunun qonağı gəlir. Qonşu qonağa xaşıl bişirir. Yaxınlıqdakı qonşu bunu görür və tamahından keçir ki, nə olaydı, mən də o xaşıldan yeyəydim. Çox fikirləşib axırda arvadı çağırıb deyir.

– Mən səni yalandan döyüm, sən də qaç qonşugilə, hay-haray sal, bəlkə biz də o xaşıldan yeyək. Arvad razılaşır. Bunlar boğuşa-boğuşa qonşugilə gedirlər. Qonşu bunları sakitləşdirib hərəsin bir tərəfdə oturdur. Xəşil ortaya gəlir. Ev yiyəsi qonşu ilə bir qabda xəşilini yeməyə başlayır. Kişi baxıb görür ki, qonşu xəşilin yağın öz tərəfinə çəkir. Başdayır haray-həşirə:

– Bəs mən deyirəm, ay arvad, yolu düz gəl!

Kişi guya düz yolu göstərməg üçün xəşilin üstünə düz xətlər çəkir ki, yağ ona tərəf axsın. Bu beləcə qaşıqla xaşılın yağın özünə tərəf çəkir. Arvad mənə deyir, mən fırlanacam, kişi. Onda qaşıqla yağı öz tərəfinnən fırladır. Beləliklə, qonşunun xaşılının yağlı yerin yeyir.

## ZİYARƏT

Bir gün bir kişi ziyarətə getmək istəyir. Adətən ziyarətə gedənlər qohum-qonşu ilə halallaşıb gedərmişlər. Bu kişinin də bir az uzaqda rəhmətə gedən qardaşının külfəti var imiş. Arvadı deyir, ay kişi gəl gedək görək onlar nə edir. Gedib görürlər, beş uşaq mitil bir yorğanın altınnan baxıllar. Kişi onların anasını soruşur. Onlar deyir ki, anaları qapılarda işləməyə gedir və işdədiyi para ilə onlara çörək-azuqə alıb gətirərmiş. Kişi arvadına tapşırır ki, bunları sən yuyundur, mən indi gəlirəm. Kişi gedir bazara. Beş uşağın hamısına pal-paltar alır. Qalan pula da ərzaq. Uşaqlar təzə paltar geyib sevinirlər. Anaları evə gələndə görür, evdə toy-bayramdır. Kişi evinə qayıdır.

Kişi deyir, ziyarətə getmək üçün pulum çatmaz. O, ziyarətə gedənlərə deyir, mən gedəsi olmadım, atım bərk xəstələnib. Camahat gedir ziyarətə. Onlar ziyarət yerində görürlər ki, kişi onlardan qabaq orda ziyarət edir. Nə qədər çalışırlar, ona çatsınlar, çata bilmirlər. Evə qayıdanda onu qınamaq üçün evinə gedib deyillər:

- A kişi, sən bizimlə niyə getmədin? Orda bizdən qabaq ziyarət edirdin.

Kişi nə qədər and içib, onlar inanmayıb. Onda kişi deyir:

- Səfərə gedənin atı həmişə tərli olar. Gedin mənim atıma baxın.

Kişi elədiklərin deyir. Onda deyirlər:

- Sən nə savab iş görübsən. Sən bizdən qabaq ziyarət etdin. Ay camahat, ziyarət bu kişininkidir. Siz bizi yox, bu kişini ziyarət edin.

## ALTI DAŞ, ÜSTÜ AŞ

Bir qadının bir oğlu var imiş. O oğlunu evləndirir. Gəlin hər yemək bişirəndə onun yeməyinin içinə bir daş qoyurmuş. Sonra da ərinə deyirmiş ki, gör anan nə qədər yeyir. Arvad yeməyi yeyəndə gizlincə daşı götürüb cibinə qoyurmuş ki, evdə söz-söhbət olmasın. Bir gün arvad gedir qızının evinə. Kürəkəni görür ki, bu arvad gedənə oxşamır. Fikirrəşir, nə edim? Onun bir yaxşı bıçağı var imiş. Həmşə deyərmiş bıçağı yaxşı saxlayın ki, itməsin. O, bıçağı götürüb qoyur qaynananın cibinə və bıçağı başlayır isdəməyə. Evi ələk-vələk edirlər, bıçaq tapılmır. Onda deyir, hələ arvadın cibinə baxın. Bıçaq arvadın cibindən çıxır. Arvad xəcalətdən bilmir, nə etsin. Durur gəlir öz evinə. Yenə də gəlin plov bişirir, daşı qoyur plovun altına. Qaynana yeyir, daşı cibinə qoyur deyir:

- Altı daş, üstü aş,
Ginə də gəlin yaxşıdı.

## KEÇİB GEDƏR...

Günlərin bir günündə bir şah öz vəzirinə deyir. Vəzir mənə bir şey düzəlt ki, mən öz çətin günümdə ona baxıb təsəlli tapım. Vəzir gedir ona bir üzük düzəltdirir. Onun üstünə yazdırır "keçib gedər", gətirib verir şaha. Aylar, illər keçir. Bir gün şahın ölkəsinə hücum edirlər. Şah görür az qalıb imarətin ələ keçirtsinnər. Özünü ələ keçməmək üçün pəncərədən atmaq istəyir. Bu

vaxt gözü üzüyün yazısına düşür. Yadına düşür ki, mən çətin günümdə baxım təsəlli tapım. Bu vaxt səbr edib özünü atmır. Şahın qoşunu düşmənə qalib gəlir. Şah başa düşür ki çətin vaxtda gərək səbr edib dözəsən.

## GƏLİNİN SƏHVİ

Evə gələn gəlinin qaynatasının gözləri gömgöy imiş. Gəlin elə bilirmiş göygözlü adamlar görmürlər. O istədiyini edirmiş. Bir gün bu şübhələnir, gedib qaynatasına sual edir. Əmi, göygözlü adamlar görür? Kişi onun pərt olmaması üçün deyir, göygözlü adamlar gecə görür, gündüz görmür. Gəlin başa düşür ki, qaynatası onun pərt olmaması üçün bu sözü deyir. Elədiyi səhvə görə ondan üzr istəyir.

## ÖVLAD BORCU

Bir gün bir alim söhbət edirmiş. Övladın ata-anaya xidmətindən danışırmış. Məclisdə bir nəfər durub deyir ki mən anamın əziyyətindən çıxmışam. Alim ona sual edir ki, nə etmisən? Oğlan deyir, mən anamı kürəyimə mindirib yeddi dəfə Kərbə-laya aparmışam. Alim deyir ay bala, o heç onun bir gecə yuxusuz qalan gecəsinin haqqı deyil. Ona görə biz nə qədər ata-anaya xidmət etsək, yenə onlara borcluyuq.

## NAŞÜKÜR QOHUM

Qonşumuz idi. İranda olufdu. Deyirdi, iki bacı idih. Mənim yoldaşım zirəng idi, çalan-çapan idi. Hər yerdə olsa, gedib ayləsin-uşağun şad-xürrəm saxluyan idi. Mənim bacımın əri biraz əciz-əvara idi, nəsə çörək qazanan döyüldü. Hə, deyir,

günlərin bir günündə bu gəldi. Mənim də yoldaşım evdə yox idi. Həmişə gələndə biz onu yaxşı yola salurduğ. O vaxtları atın üsdünə xurcun atub gəlirdi. Deyir, gətdim düyüdən, yağdan, kişmişdən, xurmadan yığdım doldurdum, bi gözünə də paldan-paltardan, əlimə gələndən yığdım, yüklədim, bunu di salıram yola. Bu gedib, atın böyrünə keçib. Mənim yoldaşım da o tərəfdən bəri gəlirmiş, bu yoldaşımı görmüyüp. Yoldaşım görüp ki, bu əlin üzün tutub o yana, deyib, ay Allah, sənə qurban olum, mən haçanacan gəlib bularun qapısından buları aparacam. Ya məni muna çatdır, ya bunu mənə çatdır. Daha deməyib ha, Allah bərəkət versin. Nə yaxşı munda var, mənə verir. Allah, saa çox şükür. Elələri var ki, deyir, cəhənnəmə acsan, gora acsan, nağayrım. Sən də canın üstə, get qazan ye. Kişi munu eşidən kimi, əl atıb xurcuna, muna bi söyüş də verib, deyib ki, sən gəlirsən, mən verirəm. Şükür Allaha ki, məndə var, mən də sənə verirəm. Yoxsa sən də ac qalacaqsan. Başqası sənə verməz ki, mən qohumam da, sənə verirəm. Əl atıb xurcunu götürüb deyib, yeri çıx get, bir də səni bu qapıda görmüyüm.

## QORXU

Bir gün bir şahın balaca oğlu görür ki, darvaza açıqdı, tez darvazadan çıxır gedir gəzməyə. Bir vaxt gorüllər ki, uşaq yoxdur. Tez uşağı axdarmağa başlıyıllar. Nə qədər axtarıllarsa, uşağı tapa bilmillər. Şah deyir:

– Kim mənim oğlumu tapıb gətirsə, ona uşaq ağırrığında qızıl verəcəm.

Carçılar car çəkir, uşaq tapılmır ki tapılmır.

Bir qarı uşağı tapır, amma uşağı gizlədir. Deyir, sabah aparıb iki uşaq ağırrığında qızıl alaram. Səhər açılır, qarı uşağı aparır şahın sarayına və deyir:

– Şah sağ olsun, mən sənin uşağını tapmışam.

Şah deyir:

– Ay qarı, o uşaq mənə lazım olmadı. Mən ona dünən uşaq ağırrığında qızıl verirdim. Amma uşaq bir gecə sənin evində qalıb. O uşaq sənin çörəyini yeyib. Ola bilsin, onun lütvəsi[2] dəyişildi, gələcəkdə mənə oxşamadı. Götür o uşağı özünlə apar.

Şah bilir ki, qarı çox tamahgirdi, onun çörəyin yeyən uşağın da ona oxşamasından çox qorxur. Ona görə də uşağı isdəmir.

## VARLI ÇOBAN

Bir dəfə şah vəzirə deyir, ay vəzir, gör məndən varlı kimdir? Vəzir düşür vilayətə. Heç kəsin şahdan varlı olduğunu görmür. Kor-peşiman evə gələndə yolda bir çobana rast gəlir. Çoban uzunboylu cüssəli bir adam imiş. Çoban onun fikirli olduğunu görüb bunun nə üçün fikirli olduğunu soruşur. Vəzir ona əhvalatı danışır. Çoban deyir:

– Şahdan varlı mənəm.

Vəzir deyir:

– Sən bir çoban, nə təhər oldu, sən ondan varlı oldun?

Çoban deyir:

– İnanmırsan, məni apar şahın yanına. Mən ona sübut eyləyim.

Vəzir nəilac qalıb çobanı şahın yanına gətirir. Şaha deyir:

– Şah sağ olsun, bu çoban deyir, mən şahdan varlıyam. Şah çobana baxır. Çoban uzun bir adam imiş. Deyir:

– Ay çoban, sübut eylə. Görüm, sən məndən necə varlısan?

---

[2] Xasiyyəti

Çoban deyir:

– Şah sağ olsun, mən öləndə on metr ağ aparacam, sən isə beş metir. Bizim yığdığımız var-döölət hamısı bu dünyada qalacaq. Bizim apardığımız ancaq bu kəfəndir. İndi de görüm sən varlısan, ya mən?

# KƏRAMƏT SAHİBLƏRİ

## MİR SULTAN AĞA

Cürəlidə Mir Sultan ağa varıdı, Haca gedəndə elə orda da rəhmətə getdi. Hacda Abutalıp qəbrisdannığı var, orda dəfn elədilər. Oğlu-qızı getdi, bir nişangah qoymuşdular ki, yiyəsi gəlsə, tanısın. Baş daşı qoymax yoxdu. Qızın buraxmamışdılar ki, bırda adət döyül, qadın qəbir üsdə gedə. Ama oğlu dedi ki, qumsal yerdi də ora, bir dənə daş nişanə qoyuplar. Deyir, qəbir itməlidi.

Mir Sultan ağanın bacısı Seyit Yasəməniydi. Əlin kimin qarnına çəkirdi, uşağı olurdu. Doğurdammı, onun cəddinin kəramətidi, ya elə Allah Talanın rəhmi gəlip o qadına verdi... Belə şeylər çox olup.

Mir Əhməd ağa da Cürəlidəndi. Onun ziyaratgahı da qəbərisdannıxdadı. Bir nəzir qutusu qoyuplar, gələn-gedən atır ora.

## SEYİD TAPI

Deyirdilər, Seyid Tapının əsli Yardımlıdanıydı. Adı Tapdığıydı, nəyidisə, Tapı deyirdilər. Sakit, səssiz kişiydi. İşi müşgülə düşənlər, səfərə çıxanlar, xəsdələr, əməlyata gedənlər ona nəzir deyirdilər. Nəzir verənlər “Ya Tapının cəddi, mənə kköməg ol!”, – deyirdilər. Rusun vaxdında hamı ona bir manat nəzir çıxardırdı. Sakitcə “Allah qəbul etsin” deyirdi. İndi də qəbrisdannıxda onun qəbrinin üsdündə kümbəz tikiblər. Camahat yenə ora nəzir qoyur.

## MİR FƏTTAH AĞA

Mir Əhməd ağa varıydı, müəllimiydi. Onun atası Mir Fəttah ağaydı. Oların əsilləri Səlyannan olup. Çox gözütox seyid olup. Anam deyirdi, birinin uşağı olurdu, olurdu, ölürdü, qalmırdı. Bı yenə hamlə olanda nailac qalıp Mir Fətdah ağaya nəzir deyir. Deyir ki, bı uşax qalsın, ona bir inək aparacam. Uşağı olub, inəyi aparıp Mir Fəttah ağanın qapısına. Deyip ki, sənin cəddivü çağırdım, uşağım ölmədi, qaldı, ona görə gətirmişəm bu inəyi. O da deyip ki, yox, inəkdən nəzir olmaz. Mir Fətdah ağa deyip ki, sən höülləmmisən[3], bı inəyi nəzir demisən, amma olmaz. Bı nəkqədər eliyibsə, nəzir deyən əl çəkmiyib, aparıb inəyi qoyub onun qapısına. Kişi yenə razılaşmıyıb, adam çağırıb ki, inəyə qiymət qoysun. Qiymət qoydurub onu dörd yerə bölüb. Bir hissəni nəzir gətirənə, bir hissəni füqəra seyitdərə, bir hissəni adi kasıplara verib, bir hissəni də özü götürüp. Helə gözütox olub. İndi də camahat onun qəbrini ziyarat eliyir.

[3] Qorxuya düşmək

# MİFOLOJİ MƏTNLƏR

## QARAÇUXA

Qaraçuxa haqqında deyirlər, Allah, heç bəndənin Qaraçuxası yatmasın. Adama tez-tez fəlakət üz verəndə, deyirlər, filankəsin Qaraçuxası yatıb. Hər bi adamın Qaraçuxası onu qoruyur deyərlər. Ona salavat çəkin, yasin oxutdurun. Deyillər, gözə görünür, amma bilmirsən Qaraçuxadır.

## XORNƏÇİ

Xornəci – yekəpərimiş, guya çox xorulduyarmış, munun adın belə qoyarmışlar. Yeddi dənə orda təpə varıydı. Bu yatanda bunun nəfəsi, səsi kəsiləndə munun bajısı gələrmiş, okqədər uzunqol imiş, qardaşın tez oyadarmış. Bi dəfə də gəlib munun üstün torpağlıyırmışlar. Yenə munun bacısı gəlib tez taparmış. Əlin salarmış, tez qardaşın çıxararmış.

## Al ARVADI

Balıqqulağı olurdu, deyirdilər, əl anasının göbəyidir. Doğan qadının, azad olmuş qadının yanına qoyurdular. Guya onun göbəyidi. Dəmir, qara şüvə qoyurdular – al yaxın durmasın. Deyirdilər sancax vurun, yaxın durmasın. Başının altına dəmir pıçax, mismar qoyurdılar. Guya qorxmasın.

***

O vaxdı deyirdilər ki, al arvadı zahı arvaddarın içinçalatın əl atıb çıxarır.

## GECƏQUŞU

Bundan qabax gecəquşu çox idi. Ələlxüsus, bizim tərəfdə o qədər var idi. Mışdar daşıdı, onu yedi. Bi qadının uşağı olanda, deyərmişdər, çiləli uşağın üstünə gecəquşu gəlsə, guya o uşax tələf olur, ölür, qalmır. Quş idi də, söz idi, deyirdilər. Özü də, gecəquşu belə idi də, gündüz görmür, gecələr görür.

# XATİRƏLƏR

## QIZLARI ZƏLİL ELƏDİK...

Yoldaşımın həddən artığ yaxşı hörməti var idi. Çağırıblar bir gün. Görüp kişilər yığışıb. Deyib, nədi? Görüp ki, hansısa qızsa gətirib atıbdı uşağı (kül sizin başuza bunu aparun torpağa basdurun – söy.). Onnan sora kişi gəlib dedi, vur-öldür, qoymaram qız oxuya. Qıza etibar var? Qızı göndər oxusun, sora qız sənin başını yerə soxsun. Bu olmaz. Mən qızdarı qoymaram oxuya. Biz qızdarı elədik şikəst, zəlil. Qoymadu oxumağa. Amma bibim qızı oxudu. Üçüncü il Tibb İnstitutuna girdi.

## QORXULU ZARAFAT

Bizdə o vaxdı, müharibə vaxdı oluf, mən balaca idim, uşağ idim. İki ana-bala idi. Elə bil Səlyan tərəfdən, oğlun uşağ öyünə vermişdi, qızın götürüf gəlmişdi. Bizim orda ata eviynən qonşuydu. Onun Ranazar adında hündürboylu qızı varıydı. Sora bundan qabağ qadınnar, elə bil, arxa cəbhə idiydi də, burda əkirtökürdü ki, müharibə vaxtını ora ərzaq versinlər. Kim axşama kimi, yetmiş kilo, səksən-doxsan kilo pambığı yığmasaydı, bunu təzədən qaytarırdılar ki, get, səhərəcən canın çıxsın, yığ, onnan sora gəlginən. Buları da aparıp töküblər bizdən o yana, yeyəsiz sahədir də, boş sahədir. Qamışdıx, hünü[4] dolu imiş. Zarafat eliyillər ki, miçitkana[5] bürünür, atı çapar, o yana, atı çapır bu yana. Arvaddar deyir, Ay Allah, yeyəsizdikdi. Deyirlər burada əl arvadı[6] var. O çapır bu yana, uzun görünməkdən sarı, əllərin

---

[4] Ağcaqanad
[5] Ağ cuna
[6] Hal arvadı

belə tutur, atın üstündə, miçitkan[7]a bürünür, özün o hala salır. Qorxudan onun gözünə, qara su deyirdilər, o vaxt gəldi. Baxır, gözləri görmürdü. Qorxudan kor oldu.

[7] Milçəkdən qorunmaq üçün tənzifdən tikilir.

# DEYİMLƏR

## TOXUM GÖTÜR, YER AXTAR

İkinci oğluma elçi gedirdim, bir nəfər dedi, kimlərdən alırsan? Dedim, rayonnandı. Dedi, kimi alırsan al, bir dənə məsləhətim odu ki, qız alırsansa, toxum götü, yer axtar. Yanı elə bir yerdən qız algınan ki, yer də yaxşı olsun, toxumu ora atanda yaxşı məhsul versin. Kasıb al, ancax adı təmiz, özü təmiz olsun.

## CAN AL GƏTİR

Bir qadın öz ərinə deyir ki, bazara gedirmiş, deyir a kişi, mənə get can al gətir, olmasa, yarım can al gəti, olmasa, badımcan al gəti. Yanı, can ətdi, yarım can göbələhdi, badımcan da ki badımcandı də.

## QARĞA QARĞAYLA UÇAR

Bir məclisdə layıxlı, abırrı, mədəni adamı aparıllar, bir düşügün yanında oturdurlar, və yaxud bir danışığını bilməyənin yanına qoyullar. Özün çəkmək kimi yox e. Deyir axı mənə yaraşmazdı, mənim tayım-tuşum döyül, mənə ləyax, bab adam döyül. Qarğa qarğaynan uçar, serçə serçəynən.

## BİRİNİ ÖTÜR, BİRİNİ GÖTÜR

Təzə gəlinə deyillər ki, gedipsən, sənin eviin xasyəti ayrı, bının xasyəti ayrı, isdersən, evində söz-söbət olmasın, ona gora, birin ötür, birin götür.

## QARI DEYİR, ÖLƏCƏM...

Keçmiş zamanlarda bir qarı, bir qızı varmış. Qarı çox qoca imiş. Deyib, onsuz da mən öləcəm. Qız da deyib, anam öləcək, mən də ərə gedəcəm. Bunlar qış ehtiyatı etmirlər. Vurur qış çox sərt gəlir. Bunlar üçün deyirlər.

Qarı deyir, öləcəm.
Qız deyir, ərə gedəcəm.

## SAİLİ BOŞ QAYTARMA

Deyərlər, sayıl qapıya gələndə onu boş qaytarma.

Axırıncı imamımız, zühr edib, rəhmətə getməyib. Ən axırıncı imamımız, Sahib-əz Zaman (ə.s.). Deyərlər, sayıl qapıya gələndə o gəlir. Mənim bəndəm kasıba hörmət eliyir-eləmir? Ona görə həmişə deyərlər, qapıya gəlsə, onu boş qaytarma. Gəlib hamını görür. Yaxşı olar ki, onu yola salasınız.

## OVSANAYA DÜŞMƏK

Oosanıya düşməg belədi ki, Allah eləməsin, misalçün avarya düşüp, maşın ikiqat olup, içində adam salamatdı. Deyir, filankəsə bi tikə çörəg verip, oosanıya düşüb. Nəsə bir “amin”ə düşüp.

## QIRX EŞŞƏYİ SAĞINA GEDİR

Özünnən razı adamlara deyillər ki, qırx eşşəyi sağına gedir.

## HƏMƏDAN EŞŞƏYİ

Qalın adamlara deyillər, Həmədan eşşəyi. Söz batmıyannara. Gönü qalınnara.

# LƏTİFƏLƏR

## MOLLA NƏSRƏDDİN VƏ EŞŞƏK

Günnərin bi günündə Molla Nəsrəddin eşşəyi minir. Uşağı qucağına alıb yol gedirmiş. Bi dəstə adam çıxıb, deyib, muna bax e, kül kişi başuva. Bu heyvan yazıx döyül. Uşağı da alıb, özü də minib eşşəyin belinə yol gedir. Bu tez düşüb aşağa. Uşağı da, özü də başdıyıb yeriməyə. Bi dəstə yenə adam gəlib munun qabağına. Deyib, kişiyə bax e eşşək boş-boşuna yeriyir, özü də, uşaq da boşuna gedir. Bu dəfə uşağı mindirif eşşəyin üstünə, başdıyıf özü gedməyə. Yenə bi dəstə adam çıxıb qabağına. Deyib, yekə kişisən, uşağı oturdubsan eşşəyin belində, özün niyə yeriyirsən? Bu dəfə uşağı düşürüb, özü minib eşşəyin belinə. Yenə bi dəstə gedənnən sora gedib camaat gəib deyib: Kişiyə bax e, ağsaqqal kişidi, atdanıb minib eşşəyin belinə, yazıq uşaq piyada yeriyir. Bu dəfə uşağı da salıb, özü də düşübdü yeriyib. Eşşəyi mindirib dalına. Deyib, görək indi nə deyəcəklər?

## HÜNƏRİN VAR, DİLLƏN

Deyir, molla bir gün Yasin oxuyurmuş bir ölənin başının üsdündə. Deyir, gəlin gəldi otudu munun ayağının altında. Dedi:

– Hə, nətəhərsən? Girmişdim ha dama. Qaymaxdan belə yedim. Necəsən? Hünərin var, indi dillən. Yağdan götüdüm qoydum çörəyimin arasına, yedim. Hünərin var, indi dillən.

Mollanı gülmək tutur. Deyir:

– Allah sənə lənət eləsin, axı mən yasin oxuyuram, sən nə danışırsan?

## FİL HƏKİMİ

Günnərin bir günü bir rus impratoru gedir Afrika tərəfə. Gedip baxır görür adə, burda nə boyda yekə fil var. Deyir, bı nədi? O biri deyir ki, bı fildi. Bınnan bi dənə bına hədiyyə verir, götürüf gəlir. Biri də gəlir deyir ki, nə iş görürsən? Deyir, mən fil həkimiyəm. Deyir, hə, lap yaxşı. Bını saxlıyır, yedirir-içirdir. Bı fil də xəsdələmmiyən heyvandı də. Günnərin bir günü fil xəsdələnir. Bı deyir ki, axı mən aybaay maaş verirəm, gedin fılankəsi çağırın gəlsin, o fil həkimidi, gəlsin mənim bı filimə baxsın, dərdinə dərman eləsin. Bı filin fırranır sağına, soluna.... Deyir, ay həkim, nədi bının xəsdəliyi? Deyip, bilirsən nə var? Bının başıynan dalın mənə gösdər, sora mən bının dərdin deyim. Deməh, bının həkimligdən başı çıxmırmış.

## RUS DİLİNİ BİLƏN OĞLAN

Bir arvat oğlun göndərir rus məktəbinə ki, rus dilin öyrən. Uşax da gedip bir müddət öyrənip gəlip. Bı arvat da avam arvadıymış da, gələndə soruşup ki, ay bala, sən rus dilin öyrənə bildin? Deyip, hə yaxşı bilirəm. Bı arvat da bir şey tapa bilmiyip, bınnan qabax tuman geyirdilər, bağnan bağlıyırdılar beldən, deyip, bala, bı tuman bağına nə deyillər. Deyip, nənə, deyillər, tumannaya bağlara. Evin yanında da nərdivan varıymış. Deyir, yaxşı, bala, bı nərdivana nə deyillər? Deyip, nənə, ona deyillər, dırmaşenka. Deyip, bala, sən nə qəşəh bilirsən rus dilin.

## QONŞUNUN QƏZƏBİ

Bir gün bir qonşu oğluna toy edirmiş. Yaxın qonşusunu toya dəvət etmir. Bir-iki gündən sonra dəvətsiz qonşu gəlib onun qapısını mundarlayır. Bərk qəzəblənən qonşu gəlir buların qapısına. Deyir, bu nə hörmətsizlikdir. Qonşu deyir, mən nə etmi-

şəm. Deyir, a kişi heç utanmırsan? Hələ bir danışırsan. Mən səni gözümlə gördüm. Kişi deyir, heç belə şey yoxdur. Qonşu bərk qəzəblənir, bunun yalanına. Onda kişi deyir, sən o boyda toy elədin, məni görmədin. Bir balaca şeyimi nə tez gördün.

## AĞILSIZ GƏLİN

Bir gün oğlanların evləndirən ata-ana evlənəndən sonra oğlanlarının günü-gündən saraldığın görüb bərk təşvişə düşürlər. Onlar nə qədər soruşurlar. Ay bala, sənə nə olub belə saralırsan. Oğlan heç nə demir. Onlar məcbur qalıb molla yanına gedib vəziyyəti danışırlar. Molla deyir, sizin gəlin o...çıdır. Bunlar inanmır deyir, onda gedin evdə çox bikef oturub ax-uf edin. Gəlin sizdən soruşsa, deyin şah bizdən yüz o... istəyir. Onda görün, gəlin nə deyəcək. Onlar evə gəlib molla dediyi kimi edirlər. Gəlin gəlir, deyir axı sizə nə olub, belə bikefsiniz. Onlar şahın istədiyini deyəndə gəlin deyib, bu nədir ki, onnan ötrü bikefsiz. O məndə. Bunlar gətirib gəlinə bir çuval verirlər, deyirlər, vurduqca sayarsan. Gəlin çuvalı alır, sabah qaytarır. Onlar soruşurlar, ay bala, neçə dənə oldu? Gəlin deyir, heç arası kəsilmədi ki say deyim. Elə birbaşa vurdum.

## HEÇ MƏN DİNDİM?

Bir arvadın üç qızı varmış, üçü də pəltəg imiş. O, qızları çölə bayıra qoymurmuş ki, pəltək olmaların heç kim bilməsin. Bir dəfə bu qızlara elçi gəlir. Arvad bərk-bərk tapşırır ki, nabada elçinin yanında danışasız. Heç nə danışmayın. Birdən otaqdan siçan qaçır. Qızın biri deyir, ay ana, çiçanə bax çiçanə. İkincisi deyir: ay qız, nəmən. Sənə nə tanə? Üçüncüsü deyir: heç mən dimdi? Bunu görən elçi görür ki, qızlar pəltəkdi, çıxıb gedir.

## AY EŞŞƏK, ÇIX YOLDAN!

Biri də genə olubdur. Çobanıymış, mal-qara otarırmış. Görüb o yannan xan gəlir, qaçıb gedip durup. Bı da yolun orta-sında durub gözün cütdüyüp, deyip görən xan nətəər adamdır? Xan görüb, mən gəldim at çapıb muna çatdım, bu çıxmadı yoldan. Deyib, ay eşşək, yoldan çıx. Gəlib evə sevinə-sevinə. Arvat deyib, a kişi nədi? Arvad başın sağ olsun, gördüm xan gəlir yolnan, qaşdım durdum yolun ortasında. Xan da mənə dedi, ay eşşəh, yoldan çıx. Fəxr eliyif ki, xan məni dindirdi. Dedi: ay eşşəh, yoldan çıx!

## CANAVAR

Deyir, bir gün bir canavar gəlir bir evə soxulur, düşür ev yeəsinin əl-ayağına ki başuva dönüm, kəndin camahatı məni öldürür, qoyma. Ev yeəsi deyir:

- Yox, mən çıxıp desəm ki, bını öldürməyin, mənim sözümü heç kim eşitməz. Getginən kətdə Əhməd addı bir kişi var, kəndin ağsakqalıdı. Ged ona denən, sənə köməklig eləsin. Deyir:

- Yox, üzüm qaradı. Onun bir yaxşı, yekə cöngəsi varıdı, onu yemişəm.

Deyir:

- Onda get filan arvadın evinə, onu da yaxşı eşdidillər.

Deyir:

- Yox, onun da aman-zaman bi keçisi varıydı, onu da yemişəm.

Deyir:

- Eybi yox, onda get filankəsin evinə.

Deyir:

- Onun da bir quzusu varıydı, onu da yemişəm.

Hansın söyliyir, deyir, onu yemişəm. Deyir:

- Ay köpöyoğlunun canavarı, kətdə ta kimin yanında hörmətin var? Heç kəsə hörmət qoymuyubsan. Səni elə mənim özüm kötəyliyib öldürüm ki sən bu cür pisdig eliyipsən. Mənim evimə nəyə gəlmisən?

# MARAQLI ƏHVALATLAR

## ÖLÜNÜZƏ SAHİB ÇIXIN

Babam deyirdi ki, kətdə bir kişi rəhmətə gedip. Başqa bir kişi də zarafatca iki-üç metir ağ alıb başına keçirdir, iki dənə də göz yeri qoyur. Qarğı olurdu, onu götürüp ucuna da bir qıyıq bağlayır, vurur qoltuğuna, qapı-qapı düşür. O vax işıx yoxuydu, lampa yandırırdılar. Gəlip qapıları döyüp deyirdi ki, ay camahat, mən xortduyup gəlmişəm[8], acam, yemək verin. Kəndin itdəri də buna yaxınnaşanda qarğının ucundakı bizi nətəər batırırmışsa, itdər baş götürüp qaçırmış. Camahat da deyirmiş ki, elə bu xortandı ki, it də bunnan qorxur. Bir gün belə, iki gün belə... Hamı vahimə içindeymiş. Caçahat da gedip həmin ölü yeəsinin qapısına ki, ölüüzə yeə durun, xortduyupsa, aparın basdırın. Ya ehsan verginən, nəysə bir iş eləginən, bu gündə gəlip qapımızı kəsdirir ki, acmışam, bi tikə çörəg atıruğ, bu götürüp gedir.

Atam deyirdi ki, bir gün evdiyəm, bizim də iki itimiz variydi, gördüm, itdər əvvəl hürdü, soora zingildədi. Biz çıxdıx çölə, gördüh, bıy, həmin ölüdü, ağ paltarda gəlip dayanıpdı. Deyir, mən baltanı götürdüm, dedim, gedip bunu tikə-tikə doğriyacam. Deyir, dədəm dedi, ağıllı ol, otu aşağa, bala, bu ölü döyür, görəh, bu kimdi. Deyir, getdik gördüg budu. Deməynən bu başına bu ağı atırmış, gəlip camahatı çağırıp qorxudarmış. Bi dəfə də həmlə qadın qorxusunnan uşax salıp. Camahatda belə vahimə yaratmışmış.

---

[8] Guya həmin ölən adam imiş, xortlayıb gəlib.

## AĞAQULU BİZİ AC EYLƏDİ

Anam danışır ki, 41-45 muharbəsinnən qabax qalxoz sədriydi. Taxıl əkirdüg. Taxılı qalxoza piçip verənnən sora, yerə düşəni-yadı yığarmışdar. Ajdığımış da. Başax deyirmişdər. Camahat onu yığıp gətirirmiş də. Bu kişi qoymazmış, ciddi kişiymiş də. Bizim bı kanalı görüpsən də. Onun suyu azalanda qıraxlarında lehmə olur. Oğlan uşaxları gəlip lüt olurmuş, palçığı üz-gözünə, başına yaxırmış, bi dənə gözdəri görünürmüş. Bı kişi bu uşaxları tanımırmış. Bı kişi kanalın bu üzüynın gedəndə uşaxlar o üznən gedirmiş. Uşaxlar suynan keçirmiş, bı atnan keçə bilmirmiş. Uşaxlar çığırırmışdar:

Ağaqulu bizi ac eylədi,
Qılıcıya[9] möhtac eylədi.
Saldı Göllü[10] yoluna,
Çörəgə möhtac eylədi.

## DİNC DURMAZ

Bınnan qabağ iki kəndin bir qəbrisdannığı olurmuş. Hər iki kənd, yaxın olduğuna bir-birinə, aparıb ölülərin orda dəfn edirmişdər. Kəntdə bir əliəyri adam varıymış, o ölür. Bını aparıp dəfn eliyəndə o biri kəndin mollası da ordaymış, dəfndə iştirak edirmiş. O biri kəndin mollası bına sual verir ki, bəs kimdi rəhmətə gedən? Bu da deyir ki, bizim filankəsdi də, çoxdanıydı xəsdeydi. Bu biri deyir, a kişi, sən onu niyə bura gətiripsən? O, dinc dayanan döyür. Onu gərəg aparıp başqa yerdə basdırırdız.

[9] Arpa növü. Arpa dörd qanad olur, ancaq qılıca yabanı şəkildə çıxır və iki qanadı olur.
[10] Yuxarı Cürəli yaxınlığında yol

Bunu eşidən bu biri kəndin mollası birəz pərt olur. Heç nə demir ona. Bir müddət vax keçənnən sora o biri kəntdən yenə rəhmətə gedən olur. Yenə hər iki molla yığışır qəbrisdannığa. Bu dəfə bu biri kəndin mollası sual edir ki, kimdi rəhmətə gedən? Deyir ki, bizim kəntdən cavan gəlindi. Filankəsin gəlinidi, cavan rəhmətə getdi, balaları da qaldı. Deyir, a kişi, siz onu burda niyə basdırırsız. Deyir, niyə? Deyir, bizim kişi dinç duran döyür axı. O, burda dinş durmaz. Gərək siz onu aparıp, gəlin xaylağıydı, başqa yerdə basdırırdız. Bunun sözünə ta bu söz tapa bilmiyip. Ona görə belə misal deyillər ki, qabaxda danışan bilsə ki soradan gələn bına nə cavab verəcək, o əvvəldən sözün deməh qaydasın bilər.

## ZİRƏK ARVAD

Müharibə vaxtı, 41-45-də, deyir kəntdə, qonşulardan kiminsə keçisi oğurrammışdı. Arvad kişidən zirəng idi. Gəliblər evi bütöv gəziflər, axtarış eliyiflər, tapa bilmiyiflər. Demə, bu keçinin ətini yığır həsir zənbilə, buxarıdan divarın içinə. İçəridən mıx vurup keçinin ətini buxarının içində saxlıyıp. Heç kimin xayalına gəlmiyip ki, bı, keçinin ətin harda gizdiyib. Ona görə deyirlər, oğrunun arvadı gərəg oğrudan zirəng ola. Oğrunun gətdiyini sir-basdır eləyə.

# NAĞILLAR

## YAZIYA POZU YOXDUR

Bunnan qabax şahlar təğiri libas olub düşərmişlər kəntbəkənt gəzərmişlər, görüm mənim millətim necə yaşayır. Şikayəti nədəndir, kimdən razılıq edirlər, kimdən narazıdılar? Ağzı axşama düşür. Gedirlər, bir evin qapısını döyürlər. Deyir:

– Bizi bi gecəlik qonaq saxla.

Bular da deyir:

– Gəl, qonağa da qurban olaq, Allaha da.

Bular oturullar bu evdə. Bu vaxdı bi qadın ağrı çəkirmiş. Bunun uşağı olur. Uşax dünyaya gəlir. Şah da oturubmuş. Görüllər, bi nəfər adam girdi, bu çağanı götürdü, bu uşağın alnına bi yazı yazdı. Sora uşağı yenə qoydu yerinə. Qapıdan çıxanda bu, əl atır tutur bunun qolunnan.

Deyir:

– Sən de görüm, kimsən, nəçisən?

Deyir:

– Mən talehyazanam. Gəldim, o uşağın taleyin yazdım, gedirəm.

Deyip:

– Nə yazdın ki?

– Yazdım ki, o qız uşağıdır, böyüyəcək, sənin əyalın olacaq.

Deyir:

– Yekə kişisən, nə danışısan? Bu qız nə vax böyüyə, mənim əyalım ola. Belə şey ola bilməz.

Bi də onda görüb, bu adam yox oldu. Bu çox fikirləşibeliyib. Camahat yatışannan sonra deyib, neynək, sən yazduğuu yaz, gör mən necə pozaram. Durub camahat yatışandan sonra

uşağın bələyini açır, qarnını bıçağınan cırır, gedir. Camahat ayılır, görürlər ki, uşağ bağırır, dayammır.

– Bunun bələyini açın.

Bələyini açanda görürlər, uşax dayammır, ağlıyır. Bu uşağın qarnı al qanın içində, uşağın qarnı cırılıb. Bu uşağı tutan mama deyir, Allaha təvəkkül, gəl bu uşağın qarnını tikəh, bəlkə yaşadı. Götürüblər, iynə-sapla bu uşağın qarnını tikiplər. Bu uşaq ölmüyüp, yaşıyıp. Vaxt olub, vədə keçip, bu qız böyüyüb.

Yenə də bu şah ölkəni gəzməyə çıxanda görüb su başında gözəl-göyçək qızdı. Bu qızı görür, buna aşiq olur. Düşüb bunun dalına. Qızı gözü tutub axı. Adam göndərir, kimin nə ixtiyarı çatır, on dənə də arvadı olsa, buna verillər. Aradan keçir, axşam olur. Görür, bunun qarnında böyük bi dənə tikiş var.

Deyir:

– Nədi sənin qarnında bu belə?

Deyir:

– Vaxt olub, evimizə qonax gəlip, mənim qarnımı cırıp, qaçıp çıxıp gedip. Səhər durub görüplər, mən bu vəzyətdəyəm. Qarnımı iynə-sapla tikiplər, indi mən bu vəzyətdəyəm. Ölməmişəm, qalmışam.

Deyir:

– Pay-atoynan, burda deyiblər ki, yazıya pozu yoxdur.

## ALLAHIN RUZİSİ

Biri varmış, biri yoxmuş, bir adam varmış. Günnərin bi günündə bı şəxs deyir, gedəcəm Allaha şikəyətə ki, hamının varı var, dööləti var. Bu devlətdən, vardan mənə Allah niyə qismət eləmiyib. Mənə də bi qırıq ruzi qismət etsin. Bu durur, düzəlir yola gedəndə çox gedir, az gedir, bunun qavağına bi dənə qoca canavar çıxır. Görür, canavar yıxılıb yerə, hey-hərəkəti də

yoxdu. Başın qaldırır belə. Görür bi insan gəlir. Dil olur dillənir. Bular salamlaşır. Deyir:

– Ay insan, hara gedirsən?

Gedirəm Allaha şikayətə ki, bu hamıya var-dölət, çörəh qismət eliyip. Bir az mənə də versin. Mən də dolanım. Bu cür ağır vəziyətdə yaşıyıram. Deyir:

– Neynək, onda gedəndə mənim də şikayətimi de. Denən, vaxt var idi, mən cavan idim, atılırdım quşu göydə tuturdum. Qaça-qaça qoyunu, quzunu tutub atırdım kürəyimə, gedirdim. İndi qocalmışam, mənə də biraz ruzi yetirsin. İndi heyim-hərəkətim yoxdu. Bu yatdığım yerdə yeyim. Heç hərəkətim yoxdu durmağa.

– Diyərəm.

Bi xeylək gedənnən sora bi cavan qız ras gəlir buna. Bılar salamlaşır.

– Deyir hara gedirsən belə?

Deyir:

– Filan yerə.

Deyir:

– Nolar, mənim də şikayətimi de də. Gözəl- göyçək qızam, taleyim yatıb. Bi alan yoxdu, gedəm ailə quram, uşax sahibi olam. Mən də ev olam. Ancaq mənim də taleyim yatıb. Mənə də bi taleh açsın. Mənə də bi yol açsın, mən gedəm.

Deyir:

– Yaxşı, deyərəm. Bi xeylək də gedir. Bərk yorulur. Gedir oturur bulağın qırağında. Görür, qoca çinardı. Suyun düz yanındadı. Yarpaqları saralıp, öz-özünə belə tökülür. Bu çinardan səs gəlir:

– Ay insan, hara gedirsən?

– Gedirəm Allaha şikayətə ki, mənə bir qırıx ruzi qismət eləsin. Hamının varıdı, mənim yox.

Deyir:

– Nolar, mənim də ömrümü bi gözəl torpaqdayam, saçaqlarımın da bi ucu suda, ancax mənim yarpaqlarım günügündən saralır, yarpaxlarım tökülür. Mən bilmirəm ki, dərdim nədir?

Deyir:

– Hə, deyərəm. Genə də bu bi müddət gedir. Gözünə dağın döşündə bir əks görünür.

Deyir, elə bu Allahdır. Mən gəlmişəm öz şikayətimi deməyə. Deyib, bəs sənin qabağuva bi şəxs gəlmədi? Deyir, niyə, gəldi, mənnən bi canavar, bi qız, bi qoca çinar. Buların da dərdin deyir. Başdıyır əvvəl canavarın dərdin deyir. Qızın dərdin deyir. Sonra da bu çinarın dərdin deyir. Bunnan xəbər gəlir.

Deyir:

– Gedib çinara çatanda deyərsən ki, sənin kötügüün altında bi küp qızıl basdırıblar. O sənin saçağın gedib ilişib ona, torpağa ilişmir. Ona görə sən saralırsan, hər kəs onu çıxartsa, dünya malına qərq olacaq. Bəsidir onun ömrünün axırınacan. Ona onu deyərsən.

– Qıza nə deyərəm?

– Qıza da deyərsən, elə qabağuva çıxan insana ərə getsön, aylə qurson, xoşbax olarsan.

Deyir:

– Canavara nə deyim?

– Canavara da deyərsən, harda axmaq adam görsən, onu tutub yeyərsən.

Deyir:

– Bəs, mənə?

– Get, sənin də ruzunu verdim.

Gəlir, bu çinara çatanda, görür gəlir, bu çox sevinir.

– Gördün sən?

Deyir:

– Bəli.

Deyir:

– Sənin kötügünün altında qızıl küpü var. Onu hər kim çıxarsa, sən günü-günnən yaxşılaşarsan.

Deyir:

– Sənnən başqa heç kəs bilmir. Onu çıxart danə. Deyip, bəs mənə? Deyip, sənin də ruzuu verdim, get. Elə o küpü çıxart, həm mən yaxşı olum, həm də sən varlanginən. Deyir, mən neynirəm, əziyyətnən sənin kötügünü qazım, çıxarım. Allah-Taala mənim ruzumu verdi. Gedirəm ruzumun dalınca.

Gəlib qıza çatır. Qız da soruşanda deyir, belə-belə.

Qız deyir:

– Sənnən başqa heç kəs bilmir. Mən indi kimə deyim ki, mənnən ailə həyatı qur. Sən bilirsən, elə sən gəl, biz ailə həyatı qurax, dolanax. Deyir, xeyr. Mən gedirəm, öz ruzumun dalınca. Gedirəm, onu yeməyə. Gəlir çatır canavara. Canavara deyir ki, sən gördün Allahı, nə dedi? Dedi, mənə dedi ki, elə qabağuva çıxan axmax adamı parçala ye. Sənin ruzuvu verdim.

Deyir:

– Elə sənnən axmağı mən hardan taparam? Birinci səni yeyim. Sorasın da Allah Kərimdi.

Tutub onu yeyibdi. Day fikirrəşməyib ki, Allah-Təala deyir, sənin ruzunu verdim. Get çinarın altında filan şey var, çıxart. Bu başa düşməyib onu. Deyir, Allah mənə ruzu verib də. Ruzunu nətəhər verməlidi, Allah. Gərək sən gedib, bi yeri qazasan. Allah sənin ruzuna bərəkət verə. Bu oların heç birini eləmiyif. Canavar da onu tutuf yeyib. Üç gün yeyib, beş gün yeyib. Kef edib, yatıb orda.

## SÖZÜN HİKMƏTİ

Bir gün bir kişi çörəg qazanmaq üçün başqa şəhərə gedir. Axtarır, axdarır, bir şəxs deyir, gəl mənim evimdə işlə. O, bir müddət onun evində can-başla işləyir. Bir vaxt deyir:

– Mənə nə verəcəksən, ver, gedim evimə.

Onu işlədən şəxs görür bu, çox sadəlövdür. Odur ki, deyir:

– Mən çox qiymətli söz satıram. Sən onu məndən alsan, çox varlanacaqsan.

O da razılaşır.

Deyir:

– Birinci sözün qiyməti bu qədərdir: “El yolundan çıxıb kəsə yola aldanma”.

Qiyməti deyəndə kişi deyir:

– Elə bu?

O da deyir:

– Əgər xeyrin görməsən, gələrsən pulunu qaytararam. İkinci sözü deyirəm: “Tanımadığın adamla yol yoldaşı olma”.

Qiymətin deyir. Yenə deyir:

– Elə bu?

Deyir, ziyannığın çəksən, pulunu qaytararam. Üçüncü söz, “Əgər bərk qəzəblənsən, özün-özünə səbr elə, görəcəksən xeyrin”.

Kişi baxır, görür nə qazammışdı, hamısı əlinnən üç sözə çıxdı. Ev yiyəsi gətirib buna üç qalın çörək verir, deyir, bunun birini yolda yeyərsən, ikisin aparıb evdə aylənlə yeyərsən. Kişi yola düşür, görür, üç nəfər deyir, gəlin bu kəsə yol ilə gedək. Əvvəl bu da razılaşır. Sonra deyir, axı mən buna bu qədər pul vermişəm. Görüm nə olur? Mənzil başına çatanda görür həmin üç nəfər oturub, əyinlərində paltar yox. Deyir:

– Sizə nə olub, belə?

Deyillər:

– Meşədə quldurrar bizi soydu, nəyimiz vardı, aldılar. Kişi fikirləşir, deyir, birinci söz düz çıxdı. Heç olmasa, paltarım əynimdə qalıb.

Sonra görür iki nəfər deyir:

– Hara gedirsən?

Getdiyi yeri deyəndə bunlar deyir:

– Biz də ora gedirik.

Kişi deyir:

– Siz gedin, mən sonra gedərəm.

Tanımadığı üçün onlarla getmir. Yenə mənzil başına çatanda görür bunlar da quldur imiş. Öz-özünə deyir, nə yaxşı bunlarla getməmişəm.

Nəhayət, gəlir öz evinə, bacadan baxır, görür arvadı bir cavan uşağın başın dizi üstə qoyub onu tumarlayır. Bərk qəzəblənib istəyir arvadı öldürsün. Tez yadına kişinin sözü düşür. Evə girir deyir:

– Arvad, bu cavan kimdir?

Arvad gülür, deyir:

– Bu sənin öz oğlundur.

Kişi görür, ev yiyəsinin dediyi sözlər hamısı düz çıxdı. O gətirdiyi çörəyi süfrəyə qoyur və başlayır onu kəsməyə. Çörəyi kəsəndə onun içinnən nə qədər pul qazanmışdı, artıqlaması ilə çıxır. O, kişinin nə qədər müdrik biri olduğunu başa düşür.

## HAQQ VAR, DİVAN YOXDUR

Bir gün iki qonşu ayləsin dolandırmaq üçün uzaq bir yerə işləməyə gedirlər. Bunlardan biri ağır, yüngül – nə iş oldu,

işləyirmiş, zirəng imiş. Gələndə də arvadı hamiləymiş. O biri isə tənbəllik edib az işləyirmiş. Vax gəlir keçir, işləyən qonşu deyir:

– Qardaş, gedək evimizə, ayləmizə.

Üç-dörd ay – nə qədər də işləmişlərmiş daa. İşləmiyən qonşu baaxıb görür, əşi, bu yenə birəz pul-para yığıb, mənim axı heç nəyim yoxdu. Gedib nə deyəcəm? Deyəcəklər ki, bu qazandı, bəs sən hardaydın ki, sən heş bir köpük gətirmiyibsən. Bu, o idi ki, bunu vurur öldürür. Bunu öldürəndə, bu deyir ki, sən ki mənə güc gəldin, məni vurub öldürürsən, bir vəsiyət edim, onu mənim arvadıma deyərsən. Mən gələndə yoldaşım hamileydi, ona de, oğlu da olsa, qızı da olsa, adın qoysun "Hax var, divan yoxdu". Oğlan da olsa, qız da olsa yoldaşıma deyersən, bunu qoyar.

Tənbəl qonşu gəlir, yığışıllar başına bunun. Deyir:

– Ay qonşu, Allahın əcəlidir də bu, ərin öldü, orda dəfn elədik də bunu. Ordan bura mən kasıf adam, necə gətirərdim. Orda minik yox idi, araba idi ancaq. Gərək mən qazandığımı verəydim arabaçıya. Elə orda kəfin-dəfin elədik, basdıdıx. Orda elə Allahın qanunuynan, yuduq, dəfn elədik, basdırdux.

Aradan bi muddət keçif. Uşaq oğlan uşağı imiş, böyüyüf. Anası təndir salırmış, çörək bişirirmiş. Ölkənin şahı da vəzir-vəkili ilə yol ilə gedirmiş. Görüllər, bir arvad qışqırır:

– "Hax var, divan yoxdu".

Anası uşağı çağıranda, ay "Hax var, divan yoxdu", ay, "Hax var, divan yoxdu" deyir. Bunu deyəndə, şah eşidir, tez atın başın çəkir, vəzir-vəkilinə deyir:

– Dayan, bu nədir, bu arvad kimdir ki, mənim ölkəmdə belə söz deyir "Hax var, divan yoxdu".

Tez atı saxlatdırır, yanındakılara deyir:

– Gedin, o arvadı sürüyün gətirin bura.

Gəliblər, arvadı, təndirin üsdünnən sürütdüyə-sürütdüyə aparıflar şahın yanına. Şah deyib:

– Ay arvad, sən nə bilirsən, mənim ölkəmdə, "hax var, divan yoxdu?". Sən məni görüb qışqırırdın.

Arvad deyib:

– Başua dönüm, mən sənə görə demirdim, bu uşağın adıdır.

– Bəs sən uşağa ad tapa bilmirdin? Başuva ad qəhət idi? Bu nə addı uşağa ad qoymusan, "hax var, divan yoxdu". Arvad əhvalatı şaha danışır, deyir:

– Yox, munu mən qoymamışam, rəhmətdik atası qoyuf.

Deyib:

– Bəs, niyə belə qoyub.

– Qonşumuznan işləməyə getmişdi, orda rəhmətə gedib. Qonşudan da sifariş göndəribdi ki, mən gələndə yoldaşım həmiləydi, deyib, oğlan da qız da olsa uşağın adını, "Hax var, divan yoxdu" qoyun.

Bular da savaddı adamdı, o boyda ölkənin başçısıdı. Tez fikirləşib ki, burda nəsə var. Xəbər alır ki, o qonşu sağdır? Arvad deyir:

– Bəli, sağdır.

– Kimnən getmişdisə, gedin onu tutun, gətirin bəri.

Gedib qonşunu gətirillər. Şah sual edir:

– A kişi, sənnən filankəs işləməyə getmişdi?

Deyir:

– Hə, getmişdi.

– Nə təhər oldu, öldü?

Deyir:

– Allahın bəlası, xəstəliyi tutdu, öldü.

Qonşu əvvəl-əvvəl boyun olmadı.

Deyir:

– Düz de.

Deyir:

– Mən nə bilim, o dedi, mən də gəldim bulara dedim. Elə olan budu.

Şah deyir:

– Salın bunun əyağın falakqaya döyün, yüz dənə çubux vurun. Bu, düz danışmır. Burda nəysə var.

Bu kişi birəz döyülənnən sonra dəvam verə bilmir, hər şeyi boynuna alır, başdıyır qışqırmağa:

– Sənə qurban olum, döymə, qoy deyim. O, pul qazanmışdı, gətirirdi. Mənim yox idi. Bəs ona görə də mən onu vurdum öldürdüm. Öldürəndə o mənə dedi, uşağın adını "Hax var, divan yoxdu" qoyarsan.

Şah üzünü arvada tutub deyir:

– Ay arvad, gör sənin kişin nə qədər uzaqgörən imiş, bu adı uşağa vəsiyət edib ki, qanı batmasın. İndi sən get uşağın adını dəyiş.

Şah onun cəzasını özü verir. Nə qədər pul var, alır verir arvadına. İndi gərək, bu sözü deməyəsən, hökumət haqqında, dövlət haqqında. Ağır sözdür. Necə yani, hax var, divan yoxdu?

## ETİBARLI DOST

Bir varrı tacir varmış, onun da bir oğlu varmış. Onun dosdarı çox imiş, həddən artıx dosdu çox imiş. Bu kişi nə qədər nəsihət edir oğluna, ay oğul adamın bi dosdu olar, iki dosdu olar, bu qədər yox. Deyir, yox, onlar can-ciyərimdir mənim, onlar cannarından keçəndir. Kişi nə qədər deyir, oğlu az eşidir. Axırda deyir:

– Oğlum, gəl bunları sınaqdan keçirt, doğurdan, bunlar sənə etibarlı dosdur, yoxsa yox. Get bi dənə yaxşı bazardan bi

yekə qoç al, kəs, bük bi dənə əsgiyə, at daluva. Düş qapı-qapı dostlaruva denən ki, əlimnən bi xəta çıxıp, şahın məmurrarınnan birin vurub öldürmüşəm. Sən mənə köməkliy elə, görək biz neyliyəg? Gör hələ dostlarının hansu sənə etibarrı çıxacaq.

Bu, atasının dediyi kimi, erkək qoç alır, bükür, kəsdirir, təmizdətdirir, atır dalına gedir. Bu dostunun qapısına gedir. Biri deyir:

– Yox, yox başua dönüm, bu şərdən məni kənar elə.

O biri deyir:

– Başuva dönüm, qapını ört.

Ona gedir, buna gedir. Axırda uzaqdan-uzağa bir salamməleyk etdiyi bi dosdu varmış, gedir onun qapısına. Deyir:

– Qardaş, belə bi əlimnən xəta iş çıxıb. Nolar, mana köməg eyləyəsən.

Dosdu deyir:

– Cannan-başnan.

Bular gedillər bəs bunu harda basdıraq, görən olmasın, harda basdıraq, bilimməsin? Bi dayaz çay var imiş, axırmış. Dosdu buna məsləhət görür:

– Gedək orda çayın içini qazaq. Üsdünnən su axacaq da, heş kəs bilməz suyun altında nə var.

Gedillər bular, çayı qazırlar, qoçu basdırıllar. Üstündən su da axır gedir. Qayıdıb gəlillər. Başdıyır, məclis imiş, oturur-muşlar. Sınağ üçün bua söz atır. Buna gah lağ edir, gah təh-qiramiz söz atır. Bu dedikcə o biri durup baxır. Deyir:

– Qardaş, de yee, de, nə qədər deyirsən, de, deyən döyüləm su nəyin üstündən axır.

Helə deyəndə bu dik qalxır. Bunun boynun qucaqlıyır, alnınnan öpür. Deyir:

– Ay camahat, bilin siz də ki, mənim atam çox deyirdi, dostdarını sına. Gör dar ayaxda sənin köməyivə kim çatar, bi

sənə doğurdan da dosduğ eləyər, eləməz. O idi ki, mən hər dosduma getdim, iş gördüm. Atamın məsləhatınnan belə bir iş görmüşəm. Filan çayı qazıf basdırmışıq. Dur getdik, həmin çayı qazıflar, qoçu çıxarıf, yuyuf təmizdiyif, bişirif yeyiflər.

## YƏHUDİ, YOXSA İNSAFSIZ MÜSƏLMAN?

Deyir, Musa peyğəmbər gedip Turi-Sənaya Allahnan danışırmış. Allaha sual edir:

– Ey mənim Allahım, de görüm, insaflı yəhudi yaxşısı, yoxsa nainsaf müsəlman?

Allah-Taala deyip:

– Gedərsən, filan dağın bööyündə bir abid var, onda görəcəksən.

Bı durup əsasın götürüp gedip. Gedip görür ki, bir dağın döşündə, bir kimsəsiz yerdə bir abiidir, səhər tezdənnən axşama kimi Quran oxuyur, namaz qılır, ancağ ibadətlə məşğuldur. Sora gecə olanda görür ki, Allah tərəfinnən bına iki qab gəldi. Deyip, hə, bu gün çox oxumuşam, mənə iki qab yeməh gəlib. Bı da gedip deyip ki, Allah qonağı isdiirsən? Deyip, hə. Bı da oturup, iki qab yeməyin biri qonağa, biri bına. Bı nainsaf olub, iki qabı da töküb öz qabına yeyip. Axşam olup, iki yorğan-döşəg gəlip ki, bılar yatsın. Yenə bına vermiyip. Deyip, bu gün hava soyuxdu, mənə iki dənə yorğan-döşəg gəlib, ikisin də atıb üsdünə yatıb. Musa peyğəmbər görüb ki, buna vermiyip, çuxa atıb üsdünə yatıp. Abid görüp ki, soyuxdan titriyir. Deyip, mən belə titriyirəmsə, qonax ölüb soyuxdan. Baxıb görüb, İlahi, qonaxdan bir tər gedir. Deyip, bı nətəər şeydi. Bı da bının çuxasın qaldırır girir altına, kürəyin söyküyüp bının kürəyinə yatıb. Səhər açılanda görüp, kürəkləri yapışıp bir-birinə. Deyib, Allah evüü yıxsın, sən hardan gəldin? Durub ikisi də daldala bir az Musa

peyğəmbər gedip, bir az bı gedib, xeyləh yol gediblər. Yolda bular bərk susuyub. Bular isdeyiplər, bir çaydan su içsinnər, dığırranıp çayın içinə. Su buları yellədə-yellədə aparıp, bir yəhudi öz baxçasın suarırmış, bular ilişib o yahudinin suyunun qabağına. Yahudi görüp su kəsildi. Görüp, iki nəfər adamdı, böyrü üsdə qalıplar, qalxa da bilmillər. Çəkib buları çıxardıp. Soruşub:

– Ay qardaş, noolub sizə?

Musa peyğəmbər deyib:

– Biz kürəh-kürəyə yapışmışux. Bir yahudi ola, onun on dənə evladı ola, dokquzu ölə, biri qala, o bi dənənin başın kəsə, qanın bizim üçümüzün aramıza tökülsə, biz ayrılırıx, tökülməsə, biz qiyamata kimi belə qalmalıyıx.

Yahudi barmağın dişdiyip ki, bı elə mənəm dana. Dokquz evladım ölüp. Yahudinin balaları ölürmüş, qalmırmış. Oydu ki, arvatnan kişi sözdəşip ki, kişi, sən uşağın yanında otu, mən gedim işimi görüm, mən işimi qutarannan sora gəlim uşağın yanında oturum, sən ged işüü gör. Bəlkə Allah bizə rəhm eliyə, bı uşax qala. Kişi oturup uşağın yanında, arvat çölə çıxan kimi oana baxıp, buana baxıp, götürüp ülgücü uşağın aparıp bu ikisinin arasında başun kəsip gətirip tez uşağı qoyup beşiginə, başdıyıp hay-haray salmağa:

– Ay camahat, gəlin, nəyidisə, gəldi, uşağı boğmaladı, bunu da apardı.

Arvat başına-gözünə döyüp, millət yığılıp. Musa peyğəmbər deyip ki, ay millət, mən getdim Allah-Taalıya sual verdim. Bu mənim namaz qılan, oruj tutan abidim, mənə yeməyi vermədi, yorğan-döşəyi vermədi. Bu da insaflı yahudi. Oydu ki, öz ağzının lığabınnan bu uşağın boğazına çəkdi. O kəndin də hamısı bunun dininə iman gətirdi.

## ŞAH ABBAS VƏ KEÇƏL

Deyir, bir gün Şah oğlu Şah Abbas yolnan gedirmiş. Çoban da gəlib yolun qırağına. Deyip:

– Gedəh marağlanax, görəh, bu nətəhər adamdı.

Bunun da vəziri varmış. Vəzir Allaverdi xan. Bular nədən söbət edirmişlər ki, ay vəzir, eeeh, dünyadı da nə cür tutson, o cür gedər. Çoban bunu eşidip. Deyib, kül mənim bu başıma. Mən niyə çobannığ eliyirəm. Bu dəyqə bilərəm necə yaşamağ lazımdır. Tez qoyunnarı dəhmərriyib[11] aparıb verib yeəsinə təhvil. Çobannığ haqqın yığıb gedib uzaq bi ölkəyə. Yığılan puldan özünə bi dəst abırrı paltar alıb. Orasın-burasın da biraz şilpəliyib cırıp, gedib orda deyip:

– Mən Şah Abbasın oğluyam. Ova çıxmışdıx. Canavar çıxdı, bizi pərən-pərən eylədi. Kimisin yedi, kimisin dağıtdı. Elə mən də bura gəldim.

Buranın valisi deyib, elə əlimə yaxşı düşüb bu. Muna yaxşı qonağlıx-yat[12], qırğın-qıyamat. İstifadə eliyib tez qızın da verib buna. Üstünnən beş gün, on gün keçip. Şah Abbasa qasid xəbər göndərib ki, başın sağ olsun, nökər-naibini canavar, ayımayı parçalayıp, yoxdu, amma sənin oğlun sağ-salamatdı. Filan gün sənin oğlunu təmtəraxla gətirirüg. Şah oturup fikirrəşir, mənim oğlum nə gəzir başqa ölkədə. Deyir, qoy gəlsin, gözdüyüm, səbr eliyim. Görür, budu, dəvələr cerin-cehiziynən gəlir. Munun ayağının altına xalça-zad sərib eliyib. Bular yerbəyer olannan sora girib içəri, çəkip qılıncı deyir:

– Mənim oğlum nə gəzir, sən deyirsən, oğlum.

---

[11]Qarşısına alıb aparmaq

[12] Zad

– Şah, başua dönüm, qəzəblənmə, bir az döz, deyəcəm. Filan vaxdı yolnan gedirdim, gördüm, sən vəzirinə dedin ki, ay vəzir, hey, dünyanı nə cür tutson, o cür gedər. Mən də ona görə atdım çomağımı. Dedim, mən niyə çobançılığ eliyip zülm çəkirəm. Gedim, deyim elə Şah Abbasın oğluyam, mən də bu cürnə təmtərax, gün görüm. İndi bu qızı veriplər, gəlmişəm. Bu xəncər, bu da sən, isdirsən, başımı kəs, isdirsən öldür. Daha şah munu pərt eləmiyib. İki-üş kəndin vergisin verip, deyib, elə ged ora sən ağsakqallığ elə, getginən yaşa, farasatın var.

## AĞILSIZ VƏZİR

Bir gün şah öz vəzir-vəkili ilə yol gedirmiş. Bir bulağın yanından keçəndə bir qızın su götürdüyünü görür. O, qızdan su istəyir. Qız tez suyu bulandırır. Bir qədər gözlədikdən sonra qız suyu bir də bulandırır. Şah qəzəblənir. Bərk susamışdı axı. Qız bunu görüb qabı su ilə doldurur. Və içinə bir, iki saman çöpü atır. Şah suyu alıb içindəki çöpləri çıxardıb suyu içir. Qızın hara getdiyini gözləyir. Qız evlərinə çatır. Axşam düşür. Şah vəziri ilə qızgilə gəlir. Qızı nə üçün suyu bulandırdığını və verərkən içinə saman çöpü atmağını öyrənmək istəyir. Gəlip görür ki, evdə qızın bir qoca atası var. Qız qonaqları tanıyır. Şah ondan suyu niyə bulandırdığını soruşanda qız onların bərk tərli olduğuna görə etdiyini deyir. Şah dedi:

– Bəs saman çöpün niyə atdın?

Qız dedi:

– Bir qədər də vaxt keçsin deyə onu elədim. Sən tərri-tərri suyu içsəydin, xəsdələnə bilərdin. Sən bərk susuz idin.

Şah qızın çox ağıllı bir qız olduğunu bildi və onun atasına bir-iki sual verdi dedi:

– A kişi, yaxındasan, ya uzaqda?

Kişi dedi:

– Uzağı yaxın eyləmişəm.

Yenə şah sual eylədi:

– İkidəsən, üçdə?

Kişi dedi:

– İkini üç eləmişəm.

Yenə şah sual eylədi:

– Qaz versəm, yolarsan?

Kişi dedi:

– Elə yolaram.

Şah səfərdən gəlir. Vəzirə deyir:

– Ay vəzir mən kişiyə verdiyim sualların cavabını tap.

Vəzir ha fikirrəşir, bir şey tapa bilmir. Odur ki, gedir kişinin yanına deyir:

– Ay kişi, şah sənə nə sual verdi? Sənin cavabın nə oldu?

Kişi deyir:

– Sən mənə pul kisəni ver. Birinci sualın cavabını deyim.

Vəzir naəlac qalıb pul kisəsini verir.

Kişi deyir:

– Şah mənə dedi, yaxındasan, uzağda? Mən dedim uzağı yaxın eyləmişəm. Yəni çox uzağı görə bilmirəm. Şah dedi, bəs ikidəsən, üçdə?

Vəzir dedi:

– Nə deməkdir?

– Kişi dedi, vəzirrik libasuvu ver, deyim.

Vəzir bu dəfə öz vəzirrik libasını verdi. Kişi dedi, şah mənə sual elədi ikidəsən, üçdə? Mən dedim, ikini üç eyləmişəm. Bunun da cavabı odu ki, yan yeriyə bilmirəm, çəliklə gəzirəm.

Vəzir dedi:

– Bəs qaz versəm, yolarsan, bu nə deməkdir?

Kişi dedi:

– Onda sən atı ver mənə, mən o başa-bu başa çapım, sonra deyim.

Vəzir naəlac qalıb atı kişiyə verdi. Kişi atı o başa-bu başa çapıb gəldi vəzirin yanına, dedi:

– Elə sən qaz idin, mən səni yoldum.

Vəzir kor-peşman saraya gəldi. Çünki ona verilən pul kisəsi, vəzirlik libası, bir də atı heç kimsədə olmur. Ona verilənlər ancaq libas, pul kisəsi, bir də at şahlara məxsus olandı. O heçnə ilə şahı aldada bilməzdi. Odur ki, şah onu vəzirlikdən azad edib kişini və onun bilikli qızını saraya gətirib özünə vəzir etdi.

## OVSANAYA DÜŞƏN TİKƏ

Peyğəmbər Salavatullah həyətdə bi dəsdə namaz qılannarnan namaz qılır. Görüp bi cavan oğlan əlində ding[13] bi də balta gedir. Bılara salam verir. Bılar da salamın alır. Bir az uzaxlaşannan sora deyir:

– Ay cavan, heyf sənnən, sənin bu gün ömrün bitir.

Bu cavan çıxıp gedip. Bular yenə günorta namaza durullar. Namaz qılannan sora yenə söhpət eliyillər, görüllər ki, bı cavan yenə ipnən bağlıyıp odun dalında gəlir. Peyğəmbər deyir, darıxmıyın. Deyir:

– Ay cavan, gəl, aç şələni.

Şələni açanda görüllər, bı yoğunnuxda bi gürzə düz bının şələsinin ortasında. Gürzə çıxır. Peyğəmbər iki rikət namaz qılıp sual eliyir:

– Ay ilan, sən bırda nə gəzirsən?

Deyir:

---

[13] Düyünü qabığından ayırmaq üçün alət

– Ya Peyğəmbər, mənə əmr olummuşdu ki, mən bı cavanı elə çalım, paxla-paxla olsun. Ancax mən gəlip bına çatanda mənnən bir pis baş ağrı tutdu ki, gözümü aça bilmədim. Oydu ku, girdim uzandım bının odununun içinə ki, başımın ağrısı keçənnən sora bının kürəyinnən elə çalım ki, qaralsın qalsın.

Peyğəmbər deyir:

– Ay cavan, sən bu gün nə iş görübsən belə?

Deyip:

– Ya Peyğəmbər, sənə qurban olum, atam-anam o qədər qocadır, dəbərə bilmir. Getdim səhəngi götüdüm, olara dəsdəmaz almağ üçün su gətidim, sora ipimi götüdüm ki, gedim axşama bir az odun gətirim. Anam gətdi birəz mənə çörək verdi ki, oğlum, birdən acarsan. Gəldim gördüm yolun qırağında bir qoca oturup, dedi ki, oğlum, iki gündü acam. Allah yolunsa mənə bi qırığ çörək ver. Mən o çörəyi özüm yemədim, verdim o qocaya. Çıxdım getdim odunumu qırdım, indi də evə qayıdıram.

Bunu deyənnən sora ilan dedi:

– Ya Peyğəmbər, sənnən həya eliyirəm, icaza ver, mən bunu çalım, çıxım gedim.

Peyğəmbər deyip:

– Yox, sənə icaza verilseydi, başun ağrımazdı.

O qocaya çörəh verir, o da dua edir ki, Allah sana uzun ömür versin, səni xata-bəladan qorusun. Ona duva edir. Oydu ku, deyillər, tikən oosanıya düşdü.

## DƏVƏ KİNİ

Bir kişi tacir imiş. Həmeşə yollarda olurmuş. Bunun dəvəsi var imiş. Dəvəsini yükləyərmiş gedərmiş uzaq bir ölkədən mal alıb gətirip burda satıb, burdan da yükləyib aparıb orda satarmış. Bir gün yolda dəvənin biri bərk xəsdələnir. Tacir hə-

min dəvənin yükünü açıb o biri dəvələrə yükləyir, köösər[14]ini də eşşəyin quyruğuna bağlayır. Aylar keçir, bir gün olur, kişi də bərk xəstələnir, ağır yatır. Çağırır ailə-uşağıynan – hamısınnan halallaşır. Deyir ki, yox, mən o dəvəni çox isteyrəm, o dəveynən uzaq-uzaq yollar gedmişəm. Qoy bu dəvədən də halallığ alım. Çağırır dəvəni. Deyir:

– Ay dəvə, mən sənnən uzaq-uzaq yollar getmişəm. Sənə ağır yüklər yükləmişəm. Uzaq səhralar gedmişəm. Səni elə vaxd olub, ac da saxlamışam, susuz da saxlamışam. Halal elə.

Dəvə deyir:

– Ay mənim yiyəm, məni ac-susuz saxlamısan, halal-xoşun olsun. Ac sürmüsən, halalın olsun, susuz sürmüsən, o da halal-xoşun. Ağır-ağır yüklər yükləmisən, o da halalın olsun. Ancaq bir şeyi sənə halal etməyəcəm.

Tacir deyir:

– Nəyi?

Deyir:

– Günnərin bir günündə mən xəstələndim, mənim köösərimi aparıb bağladın eşşəyin quyruğuna. Mənim kimi bir dəvənin köösərini sən bağladın eşşəyin quyruğuna. Hər bi şeyi halal edirəm, ancaq onu halal eliyə bilmiyəm. Köösərimi eşşəyin quyruğuna bağladın, mənim bütün zəhmətimi itirdin. Ona görə ki, mən dəveydim. Niyə mənim kövsərimi eşşəyin quyruğuna bağladun? Onu sənə halal etmirəm[15].

## HƏR ŞEY VƏRDİŞDƏN ASILIDIR

Bir gün bir şah varmış. Bı şah meşəylə gedərkən görür ki, bir qadın atı ilə gəlir. O, birdən atdan düşür və atı ağaca

---

[14] Dəvənin başına bağlanan ip

[15] Başqasının zəhmətini itirənlərə aid edilir.

bağlayır, keçir ağacın daldasına. Şah yanındakılara deyir ki, gedin görün o qadın nə edir. Gedən adam görür ki, qadın uşaq doğdu, uşağı büküb aldı qucağına, yenə ata minib yoluna davam elədi. Şah gəlib gördüklərini arvadına danışır və deyir:

– Mən sənə neçə qul-qarabaş ayırmışam, yenə də sənin nazını tuta bilmirəm. Arvadı deyir:

– A kişi, o, çöl adamıdı, mən isə xanım. Bu, belə də olmalıdı.

Şah deyir:

– Nə fərqi var, arvad elə arvaddır.

Bir gün şah uzaq bir səfərə gedəsi olur. Onun çox yaxşı bir bağı varıymış. Çağırır bağbanı, deyir:

– Bağ əmanəti! Mən gəlincə qoyma bağda bir gülüm, bir ağacım solsun. Vaxdında suvar.

Şah gedənnən sora arvadı bağbanı çağırır, deyir:

– Bağa baxma.

Bağban yalvarır:

– Ay xanım, şah gələr, başımı kəsər. O, bağı çox sevir. Baxmasam, gəlib məni cəzalandırar.

Xanım deyir:

– Sənə nə desə, deyərsən ki, arvadın qoymadı. Gerisi ilə işin olmasın.

Aylar keçir, şah səfərdən gəlir, birinci bağa gedib görür ki, bağ bir gündədi ki, gəl görəsən. Güllər solub, ağaclar yarpaxların töküb. Şah bağbanı çağırıb bağın niyə bu vəzyətdə olmasının səbəbini soruşur. Bağban deyir:

– Şah sağ olsun, arvadın qoymadı.

Şah arvadının yanına gəlip soruşur:

– Sən niyə ağaclara, güllərə qoymayıbsan bağban su versin?

Arvadı deyir:

– A kişi, burda nə var ki? Heç meşədə ağaclara, güllərə su vermillər, heç onnar yammır.

Şah deyir:

– Ay arvad, onlar vəhşidilər, vərdiş ediblər.

Arvad deyir:

– Bəs onda məni niyə qınadın? Mən sənə dedim, meşədə uşaq doğan arvad çöl adamıdı, sən mənə inammadın. İndi gördün ki, hər şey vərdişdən asılıdı?

## QUMARBAZIN AQİBƏTİ

Bir oğul varmış. Günlərin bir günündə oğul gəlir atasının yanına deyir:

– Ata, mən qumar oynamaq istəyirəm.

Ata çox deyir, oğul az eşidir. Nəalac qalıb ata deyir:

– Onda get qumarbaşı ilə oyna.

Oğul soraqlayır, qumarbaşı hardadır. Camahat da elə bilir ki, bu oğlan necə məşhur qumarbazdır. Aparırlar bunu baş qumarbazın yanına. Oğlan baxır görür qumarbaz lüt oturub küllügdə. Qarnına qədər kül ilə üstün örtüb. Yaxınlaşıb onunla qumar oynamaq istədiyini bildirir. Qumarbaz tanımadığı üçün soruşur:

– Sən kimsən?

O, qumar oynamaq istədyi üçün atasının məsləhəti ilə gəldiyini bildirir. Qumarbaz ona baxıb gülür. Deyir:

– Oğul, hələ məni indiyənə kimi udan olmayıb. Ancaq görürsən, əynimə geyməyə paltarım yoxdur. Ona görə çılpaq bu küllügdə oturmuşam. Sənin atan çox ağıllı kişidir, səni ona görə mənim yanıma göndərib ki, məndən ibrət götürəsən.

## ATA MƏSLƏHƏTİ

Bir kişinin oğlunun çoxlu dosdarı varıymış. Kişi çox fağırıymış. Bı dosdarına çox ürəgaçıxlığınan xəşdiyərmiş, yox deməzmiş. O qədər əlaçığıymış. Kişi nə qədər eliyip, oğluynan bacara bilmiyib. Vax gəlib, kişi xəsdələnib ölüm əyağına gələndə deyib:

– Oğul, nə qədər varım-döölətim var, xəşdərsən, gördün ki, sənin dosdarın sənə baxmadı, onda gələrsən, bı yuxarıdan çırağ asdıyırıx, çırağın yanınnan ip atarsan, özuu asdarsan. Orda yer qoymuşam. Ta gedip başqasına əl açma, möhtac olma. Sən özuu asdarsan.

Kişi ölür, kəfin-dəfin elillər, aparıp basdırıllar. Vax gəlir, vədə çatır, xəşdə-xəşdə, qutarır daa, bı müflis hala düşür. Müflis hala düşəndə dosdarı hamısı çəkilir. Bı oğlan çox bikef olur. Deyir, atam mənə elə hey dedi, baxmadım, axırıncı vəsyəti odu, gedib eliyəcəm. Deyip ki, o çırax asdıyan yerdən özuu asarsan. Oğlan gəlir, ipi götürür doluyur, atır çırağın boğazına, elə güc eliyəndə çırax qarışıx bı dəyir yerə. Onda görür ki, bi torba qızıl töküldü başının üsdünnən. Deməh, kişi o qədə bı dünyadan narahat gedir ki... Kişi deyir, mən nə qədə dedim, bacarmadım, axırda dosdarı dağılışannan sora bı özün asdıyanda bilsin ki, bı dosdan bına xeyir yoxdu. Göydən qızıl tökülənnən sora oğlan qızılı yığışdırıp, atasının hikmətdi sözdərinə baxıp, deyib, atam nə qədər dünyagörmüş kişiymiş ki, mənim elənnən də sora qaldığım günnəri fikirrəşip.

## ÇÖRƏYƏ HÖRMƏT

Bir gün bir şah öz vilayətini gəzəndə görür bir dəmirçi-nin evində süfrə başında hər uşağın qabağında bir sini var. Və

bu sinidə uşaqlar yediyi çörəyin bir qırığı yerə düşmür. Şah xəbər alır:

– Sən bu uşaqlara niyə belə süfrə açıbsan?

O deyir:

– Mənim çörəyim ayaq altına düşmür. Ona görə mənim çörəyim həmişə boldur.

Bunu eşidən şah taxta çıxır və əmr edir ki, mənim ölkəmdə kim təndir çörəyi bişirsə, onu asdıracam. Camahat başlayır lavaş bişirməyə. Bunu görən dəmirçi hər uşağın boynundan bir torba asır. Uşaqlar çörəyi yeyəndə başlarını torbanın içinə salıb çörək yeyirlər.

Şah xəbər alır:

– Sən niyə belə edirsən?

Dəmirçi deyir:

– Lavaş ovulduğuna görə mən hər uşağa torba tikdim ki, çörək ayaq altına düşməsin. Ona görə mənim çörəyim boldur.

Ona görə çörəyə nə qədər hörmət etsən, o qədər çörəyin bol olar. Şah dəmirçini öz sarayında yer verib hörmətdi eləyir.

# TOY MƏRASİMİ

## ELÇİLİK

Qızdarın heş ixtiyarı çatmazdı ki, ata-anaya desin ki, mən istəmirəm. Onun sözünnən çıxmazdı. Ata-ana kimə verdi, odu, heş vaxtdarı deyə bilməzdi. Həya-abır vardı. Ata-ana istəməzdi ki, qızı gedib pis yerə düşsün. A bala, biz onnan oturmuşux, durmuşux, gedişimiz var, gəlişimiz var. Yaxşı münasib adamdı. Hər cürəsi olurdu. Eləsi vardı, əyağın verərdi yerə (inadkar). Meşə çakqalsız olmur ki, qızım. Elə vaxd olardı, deyərdi mənəm, mən gedmirəm, nəğayrum, gedməyənin başın kəsməyəcük kü. Belə də olurdu.

Elçilikdə bir və yaxud iki qadın gəlürdü, aneynan söbət edirdi. Əyər sözümüz düşsə, yaxşı olsa, bu da deyirdi get, biz fikirrəşərüg. Elin adamı gələr, qaynənəm gələr, qaynətəm gələr, qızın razılığı, məsləhət olsa, beş günnən-on günnən sora gələrsən, gələrsən, xəbər bilərsən. Beş günnən sora həmin adam genə də gələrdi. Gələrdi, soruşardı, qız, hamı (ana-ata) razıdır, gedün, agsakqallar gəlsün. Həmənki gün vədə verirdü ki, bu gecə sizə ağsakqallar gələcək. Bular da hazırrıx görürdü. Gecə gəlirdi, ağsakqallar oturURdu. Oğlan adamı qız adamıyla üz-üzə oturardı. Razılaşırdılar, "Allah mubarək etsin!" – deyirdilər. Sora gedirdilər, nişanı təyin eliyirdilər. Və yaxud nişan olmurdu, elə birbaşa toya hazırrıx gedirdi. Baxurdular da vəziyətə. Onda deyirdilər, neynək, əyər toy yaxın olacaqsa, elə gedəgin az adamnan gəlib üzüyü taxax, ad olsun. Onnan sora sən də öz hazırrığını gör, mən də öz hazırrığımı. Toyumuzu başdayax. Bax belə idi.

## NİŞAN

O vaxd nişanda çalğı olmazdı. Oğlan evi gələndə qız qaçardı qohumun evində gizlənərdi. O deyərmiş, qız hanı, bu deyərmiş qız hanı? Heş kəs bilməzdi, qız hardadır. Vallah biz bilmirih. Harasa qaçıb gizdənib. Utanarmış.

## PALTARBİŞDİ

Bu xınadan qabağ olurdu. Onda gələndə deyərdilər, qızın boyuna tutax. Qayçını qoyardılar paltarın ucuna. Qayçı tutan deyərdi ki, ay bala bu qayçı kəsmir. Qızı götürürdülər, qayçı tutana bahalı atrez gətirərdilər. O vaxdı tikili paltar olmurdu. Kimsə gəlib əlli manat, yüz manat pul verərdi. Ona da bir dənə şirinnik (kanfet, şakalat) qoyardılar. Qayçıtutan deyərdi, kanfetin yarısın bu qıza verin, yarısın da oğlana. Camahata konfeti podnosda paylardılar.

## XINAYAXDI

Məsələn, bu gecə filan qızın xınasıdır. Axşamları, qızlar-gəlinnər yığışardı qızın başına. Biraz çalıb-oynayardılar. Xına gələrdi. Ana kimə isdəsəydi, qızın yaxın adamına (baldızı, baldızı qızı – söy.), bacısına, qonşusuna  verərdi. Qızın əvvəl sağ əlinə köpük pul qoyub biraz xına tökərdilər. Bi oğlan uşağı gələrdi, deyərdilər, onu əlinnən qapsın xına qarışıx. Qızın başına qırmızı atardılar. Əyağının altına mis mecmeyi qoyardılar. Qızın dırnağın bəzərdilər, üzəngi çəkərdilər dırnaxlarına. Qızın əlin-yadın xınalıyırdılar. Qızlar da ona xınayaxdıya xələt gətirərdilər. Qıza nəsə bir cehizlik və ya pul gətirərdilər. Kim nə istərdi, onu gətirərdi. Səhər də qız yuyunardı, gəlin gedərdi.

## TOY

Əvvəllər toy iki gün olardı. Cümə axşamınnan başqa qeyri günlərdə toy alardı. Cümə axşamı etməzdilər. Deyərdilər, ruhların gələn günüdü. Onnan sora qalan günləri, hə, Allahın gözəl günləridi də. On ikidən aşıx gəlürdü, biraz çalannan soora oturub yeyib-içirdilər. Aşıx idarə eliyirdi, gecə xanəndə oxuyurdu. Toyun siftəsi tərəkəməylə başlardı. Zurnasız toy olmazdı. Əvvəl aşıxlar çox olardı. Aşığın zil səsi var idi. Onda əsas tərəkəmə çalardılar. Soradan Yanıx Kərəmi, Ruhani, Turacı, Kolxozu, Nəlbəki havası calardılar. Kim nətəhər oynamax bilirdi, durub oynayardı. İndiki cavanlarımız caz da oynaya bilir, el havası da oynayır.

Toy iki gün olurdu. Saat 12-də toy başdıyırdı. Yeməklər hazırlanırdı. Aşıxlar gəlirdi 11-də. Saat yarım onlar yeyirdilər-içirdilər. Soora qara zurna başdıyırdı. Camahat sıraynan oturur-du. Onnan oynuyurdular. Oynuyannan sora taa günbatana çəkirdi. Aşıxlar günbatan çağı yeyir-içərdilər. Səlyan-Şirvan aşıxları – Aşıx Qurbanxan, Aşıx Şakir gələrdi. O vaxdan başlayardılar dastan deyərdilər. Gedərdi gecə saat birə, ikiyə kimi. Dastanı deyib qurtarannan sora sıreynan hamı aşığa şabaş verərdi. Toyxanada bi dənə adam şabaş verməmiş qalmazdı. O başdan aşıx düşərdi fırlana-fırlana taa bu başa kimi. Özü oynayardı toyxananın içində, camahat da oynayardı. Maraxnan qulaq asardılar. Milçək uçseyi, vızıltısı eşidilərdi. Səs-küy olmazdı. Yeməkxana ayrı olardı. Gedərdilər başqa yerdə yeyərdilər, gələrdilər oturardılar məclisdə. Ancağ onlara çay verilərdi. Bi çayçı oğlan olardı. Toyxanada çay içilərdi, yeməg olmazdı. Yemək qıraxda yeyilərdi. Aşığ oxuyan yerdə ancaq çay içilərdi. Toyu yaxşı şən keçirərdilər. Aşıxlar dastan deyərdilər: Abbas və Gülgəzin dastanı, Tahir və Zöhrənin dastanın. Yadımdadı ki, Abbas və Gülgəz

dasdanında deyir, Abbasın əlinnən Gülgəzi alıb aparıplar. Bı gedip ki görüm ordadı? Görüp ki, bunu salıplar kəcaviyə. Abbas aşağıdan bilip ki, ordadı. Bına deyiplər ki, gəl gedəh biyana. Bı da saznan qayıdıp ki,

Günəş biyandadı,
Ay biyandadi,
İsdədigim yar biyandadi...

Aşıxlar yaxşı məclis aparardı. Uşax, böyük yatmırdı. Gecə səhərəcən dastana qulaq asırdılar. Gündüz oğlan toyu başlayırdı. Axşam bəyi gətirirdilər. Otururdu bəy toyxanada, sağdışınan, soldışınan. Qohum-əqrəba, tay-tuş yığılırdı. Bəy hələ gəzirdi. Hamı əlində pul tuturdu, şabaş çıxarırdı. Bəy onların əlindən pul çəkirdi. Kimin gücü nəyə çatırdı. Bəy özü gəzirdi aralıxda. Əlinə şabaş verirdilər.

Toy əhlinin evində olmasa da qohum-əqrəbanın evində aşıxlara yer salardılar, yatardı. Səhər təzədən çadır qurardılar.

Gəlini toyu üçüncü gün günorta gətirirdilər. Qara zurna, aşıx gedirdi. Bəy evdə otururdu, ayləsi, qohum-əqrəbası gedip qızı götürüb at arabası ilə gətirərdilər. Sora üç alma verərdilər bəyə, bəy dalda yerdə gizdənirdi, evin tinində, ya hardasa... Heç kəs görmürdü. Bi də görürdün üç dənə alma bıdı gəldi. Bəy gizlin yerdən atırdı gəlinə. Kim almanı tutsaydı, gəlib bəydən xalat alırdı. Uşaxlar atılıb göydə tuturdu almanı. Bəyin anası-bacısı bi padnus şirni tökərdilər gəlinin başına. Uşaxlar daraşırdı yerdən yığırdı. Bəy daldabucax[16] yerdə dururdu. Evin arxasında dalda yerdə. Aşıxlar çala-çala gedirdi bəyi gətirirdi.

---

[16] Gizlin yer

## BƏY TƏRİFİ

Bəyin sağdış-soldışı olurdu yanında. Gətirirdilər bəyi oturdurdular bəy kürsüsünə, sağdış-soldışı da yanında. Ona bəy-boyu[17] eləyirdilər. Gəlin gələndən sonra bəy üzə çıxırdı. Ancaq sağdış-soldışı onu gözdüyürdü, gəzdirirdi. Üçüncü gün bəy gəlib bəy kürsüsünə otururdu.

Haca gedər hacıların hacısı,
Xələti gətirsin, bəyin bacısı.
Dəryada üzər sovet gəmisi,
Xələti gətirsin, bəyin əmisi.
Göydə ulduz sanaram,
Filənkəsdən xələt istərəm.
Xələt istərəm, qonum-qonşudan.

Kimin gücü nəyə çatır, kələgayı, şal, parça xələt yığılardı. Gözəl adət-ənənəmiz var idi.

## TƏZƏ GƏLİN

Təzə gəlinin başında mütləq qırmızı kəlağayısı olmalıydı. Gəlin köçəndə. Onu üçkünc atardılar, bi cüng[18]ü bıra düşərdi, bi cüngü bıra, bi cüngü də arxıya. Ancax qırmızı kəlağayı. Qızdar yaşlı adamların qulluğun tutanda deyirdilər. Qızdara deyirdih, səni qırmızı duvağ olasan.

Sora üçgünnüg olanda üzəçıxdı eliyirdilər. Cəllabad, Yardımlı tərəflərdə toydan sora gəlinin atası evi onu qonax çağıranda bi dənə erkəh toğlu aparırdılar ora, gedib qızdarın gətirirdilər. Sora oğlan evi də bılara bi dənə erkəh toğlu gətirirdi, sora qızı aparırdılar. Ayağaçdıya da nəsə verirdilər.

---

[17] Bəytərifi
[18] Künc

# DİGƏR MƏRASİMLƏR

## "ON TÖKMƏ" MƏRASİMİ

On günündə səhər-səhər deyərdilər, qonaxlar gələcək. Qızın anası uşağa balaca paduşqa salırdı, yorğança sırıyıp salıp gətirirdi. Uşax göydən asılırdı, yüyrükdə yatardı. Yüyrükdə uşağ o başa-bu başa gedirdi, ana gedirdi işin-gücün görürdü. Soralar kravatlar çıxdı. Kravatın içində nənnisi var idi. Eləsi var idi, qız anası o yellənən kravatı, döşəkcəsin, yorğanın, paduşqasın gətirərdi. Yeriyinən-yeintisinən gətirərdi. Oğlan anası da yaxşı yeməh-içməy rahlardı. Kim istərdi, istəyən qoum-əqrəba, qonşu uşağa ya paltar alardılar, ya da uşağın bələginə xələt qoyardılar. Pak olmağ üçün qadına deyərdilər, "nüfas quslu verirəm", uşağa da deyirdilər, "möhübbət quslu verirəm, vacib qurbətən İləllah". Üş dəfə deyirdilər. Əvvəl başınnan, soora sağ, sol çiyninnən. Ananın da, uşağın da.

## "QIRXTÖKMƏ" MƏRASİMİ

Körpə uşağın qırxın tökəndə çimizdirərdilər. Əvvəl on günlük edərdilər. Onda da çimizdirirdilər uşağı. Qonum-qonşu, qohum-əqrəbə uşağa dəyməyə xələtnən, hədiyyəynən gələrdilər.

## YAS MƏRASİMİ

Deyirlər, yaxşı olar ki, ölünün dəfninə gələsən. O çox həm savab işdir, həm də ölünün ruhu görür, deyir, mənim qonum-qonşum, qohum-əqrəbam bu cür yola salır. Hə, o günü yığışırıq.

Ölü yuyulanda yerdən belə qamış kişi şey atırdılar, üç dənə, ya dört dənə. Məcmeyiləri arxası üsdə çöürürdülər, yuyurdular ölünü. Sora yerə palaz sərip kəfənə bükürdülər. Sora bayda varıydı, onu elə nizamlamışdılar ki, kasa kimi ayağı da varıydı, bı hündürrühdə, bı yoğunnuxda. Təxminən bi vedrəyə yaxın su tutardı. O bayda elə nizamlammışdı ki, su gedip ölünün dırnağınacan dəyirdi. Onda məcmeyinin üsdündə belə əyilip yuyardılar ölünü. Bayda da tək-tük adamda olardı. Kimdə varıydısa, verirdi.

Lerik camahatı ölünü yuyurdular, kəfənniyirdilər, palaza bükürdülər, gətirirdilər qapıya uzadırdılar, onun sinəsinə bi dənə dəsmal sərilirdi. Hərə üç manat-beş manat ora atırdı. Həmin pula axşama alış-veriş edilirdi. Amma bizdə qənd, çay, un, dügü, toğlu aparılırdı ölü yeəsinə. Mənim böyük əmim rəhmətə gedəndə ona düz yirmi altı dənə qoyun gəldi. Hələ qəndinnən, çayınnan, ununnan başqa. Nə versən, sənindi də. Nə versən, onu verəcəklər.

Ölü öldügü günü halva çalardux biz. Halvanı bükərdilər, verərdilər yaxın adamın əlinə. Aparardılar qəbristanlıxda ölünü dəfn edəndə, uşaxlar bilərdi ki, halva gəlib. O vaxdı yoxluğ idi, çətinliy idi. Qəbristannığın yaxınnığındakı uşağlar gələrdi. O halvanı onlara verərdilər. Uşaxlar üstündə dava salardı. Evlərinə aparıb yeyərdilər. Sora üçü günü yenə halva çalınardı. Bəlkəm iyirmi kilo yağın halvası çalınardı. Onda kənd balaca idi, qızım. Bu dəfə çalınan halva bütün kəndə paylanardı. Onnan sora dana

kəsilərdi. Sonra ehsanat verilərdi. Heç kimə icazə vermirdilər durub gedməyə. Ölü yeəsi bir dəfə deyərdi: hara gedirsiz, otur! İşi olan da oturardı. Hüzürü də belə axıracan yola verərdilər. Həmçinin yenə ehsanat verilərdi. Yeddi gün olardı. Yeddinci gün də yenə də həmin ehsanat verilərdi. Halva çalınardı yenə paylanardı. O vaxd avamçılıq imiş. Heş kim üzünü yumazdı, paltarını dəyişməzdi. Deyərdi ki, guya mənim yaxınım ölüpdü, paltarlarını dəyişməzdi. Elənçinə oturardı. Meyidə əli dəyən meyid qüsulu verərdi. Yeddisinnən sora yaxın adamlar deyərdi ki, yaxşı döyül, dur ayağa, yeddi gündü oturmusan, get yuyun. Gedərdi çimməyə. Sora deyərdilər, başaa xına qoy, ələə xına qoy. Çox adam qoymazdı ta ölünün ilinə kimi. Sonra gələrdi cümə axşamlar olardı. Beş cümə tutardı, cümə axşamı verərdük. Cümə axşamınnan sora 40 gələrdi. Orucduğ gələnnən orucaçdu verirdüy. Quran tapşırırduğ. Əyər orujdux birinci gəlsəydi, orujduxda olardı onun qara bayramı. İlbayramı olsaydı, o onun Qarabayramı sayılırdı. Ağlaşma 7 gün, cümə axşamları, qırxı davam edərdi. Ölü yeəsinə təsginnig verərdilər ki, sən döz, çox ağlıyıpsan, yorğunsan. Qoy filankəs gəlip, sənin ölüü o ağlıyır. Hörmət əlaməti olaraq, ağlayanda səs salma. Sən onun ölüsünə ağlayanda o saa can deyirdi. Qarşılıqlı olmalıydı.

## MƏHƏRRƏMLİK

Məhərrəmlihdə teşt qoyullar, içərsinə şərbət töküllər – şəkər tozu. Bir az da soyux qaynammış su. İmamlar susuz öldüyüçün yanında qab qoyullar, gedip ziyarət eliyənnər hərə bir qurtum içsin. Yaxut görürsən, nəzir eliyillər, iki kilo şəkər tozun töküllər vedrədə məyyən qədər suya, qarışdırıllar, verillər camahata, deyillər:

– "Nuşi imamət!"

Camahat da xornan deyir:

– “Yezidə nəhlət!”

Nəzir gətirillər, eysan verillər on gün ərzində. Aşuraya kimi. Ta aşuranın gününə kimi. Ehsanat verillər – ət alan olur, xörəh pişirən olur, onnan sora hündüşqa, toyux... Kimin gücü nəyə çatırsa... Halva çalıp aparıp paylıyan olur. Ət alıp kifdə-bozbaş pişirip qonuma-qonşuya paylıyıllar. Cümə axşamı bir qazan pişirillər, çörəyinəcən, hər bir şeyin yığıp-yığışdırıp apa-rıp məçidə verillər, orda namaz qılan kişilər, qadınnar gəlip ye-yillər. Kimin ürəyinnən hansı cür keçsə, o cür... Və yaxut, mən onu bırda da gördüm, Kəlbəlada da gördüm, qənfet alıllar, həriyə iki-iki verillər. Hamı da deyir:

– Allah qəbul eləsin!

Hamısı da imam yolunda. Çörəh pişipip pendir-çörəh gətirən olur. Yeməyi hazır pişipip gətirən olur, orda paylıyıllar. On günnən də sora qırx gün imamım qırxın saxlıyıllar, qırx günnən də sora deyillər, səfər ayı. On gün bəri başa düşür, irmi gün də o başa. Məhərrəmliknən səfər ayı iki ay çəkir. O iki ayda toy eləməg olmaz, matəm saxlıyıllar İmam Hüseynə. Ağlaşma aşurayacan olur. Bınnan qabax zincir olardı, kişilər, oğlan uşaxları qara köynək geyinirdilər, arxadan beldən-belə açıx, həmin kürəklərinə vırırdılar zinciri. İndi onu qadağan eliyiplər, icazə vermillər. Keçən il vırmadılar həkimlər ki, birdən kiminsə ağciyərində zədəsi olar, pis təsir eliyər. Bınnan qabax uşaxların bırdan başın qırxardılar, lezviyeynən qan çıxardardılar. Yolnan gedən dilənçiyə-zada verərdilər həmin köynəyi. İndi olara icazə vermillər. Deyir, qanun var, get o qədər xəsdə olan var, qana eytiyacı olannar var, ver qanuu, qoy vursunnar ona, sənə savab olsun. Qanı ağa eliyip hamara atmağın nə mənası var ki? Əgər savab isdersən, bını eləginən. İndi şükür Allaha, millətimiz gö-zəl millətdi, kasıba-kusuba baxan millətdi. Biz də fitir çıxartdıx,

o fitiri mən bir gün qabaxdan apardım bizim o biri kətdə – Əsgərabatda bir ərsiz qadın varıydı, çölə gedir, balaların saxlıyır, aparıb ona bir gün qabaxdan verdim ki, qo oosanat olsun. Bəlkə onun qazanı qaynamağa bi şeyi yoxdu?! Üç evdən yığdım o pulları aparıp verdim ona. Tanıyırdım ki, bı, imkansızdı. Göörsən, qaapıya dilənçi gəlir, nə tanıyırsan, bəlkə milyonçudu. Ama bını dəqiq bilirdim ki, eytiyacı var. Ona verəndə osanatı olur, Allah-Taala adamın qabağına çıxardır.

Səfər ayında deyillər, kəbin kəsməg olar, toy eləməg olmaz. Ama məhərrəmligdə kəbin də olmaz. Mənim yadıma gəlir, bizim kəndimizdə biri aşura gecəsi qaçmışdı. O, heç yarımadı, iki kişiyə getdi, heç birisinnən uşağı olmadı. Öz öluu ortalıxda qoyub ərə getsən, nolar? Xoş gələr ev yiyəsinə? Allaha da xoş gəlmir də belə şeylər.

# TƏQVİM TƏSƏVVÜRLƏRİ

## ÇƏRŞƏNBƏLƏR

Deyirdilər, od çərşənbəsi, su çərşənbəsi, torpaq və il çərşənbəsi. Axırıncısına il deyərdilər.

Çərşəmbələrdə camahat yeməyini yeyip qutarannan soora kəlağayı, şal götürürdülər. Adam var yaylığın içinə pay qoyup gətirərdi. Qapının arasınnan atırdı. Atırdı deyəndə yerə atmırdı, bir ucu qalırdı qapının o üzündə o tuturdu, bi ucun içəri uzadırdı, qapını da bərh-bərh tuturdu. Bınnan qabax işıxlar yammazdı. Çox yerdə papağ atıllar, ama bizdə yaylıx. Ev yeəsi ya pul, ya boyammış yumurta, ya görürsən, fındıx-qoz, nə varsa, gətirip qoyurdu bağlıyırdı yaylığın içinə sora deyirdi, hə indi çək. O, balaca qapını aralıyırdı, çəkirdi, qaçırdı ki, məni görməsinnər. Buna qurşağatdı deyirdilər.

Çərşəmbə axşamı görürdün bir adam gəlirdi, niyət tuturdu: ay Allah, görəsən, mənim işim düzələcəh, düzəl-miyəcəh; görəsən, bı qız ərə gedəcək, getmiyəcək; və yaxut xəsdəm ayılacaq, ayılmıyacaq. Xoş niyətnən gəlip qulağ asardılar. Əgər yaxşı söz eşitsələr, fərziyeynən deyirdilər ki, həə, bizim işimiz alındı, yaxşı olacax. Yaxşı söz eşitdim. Ya başqa söz eşidəndə çox məyus gedirdilər ki, həə, bizim işimiz alımmadı. Biri variydi bizim kətdə, demə xəsdeymiş. Gəlipdi, beləncih çərşəmbə axşamı qulağ asanda görür, arvat deyir ki, ay bala, ay bala, ged o vedrəni suyla doldur, gəti bura. Pərişan olur ki, vedrəni doldur gəti, yəni bı öləcək də, qalmıyacaq. Ya desələr ki, ay bala, ged o qapını aç, deyirmişdər ki, həə, buna qapı açılacaq.

Çərşənbələrdə gecəni səhərəcən qızlar yatmazdılar, çalıb oynardılar. Səhər də durardılar, gələrdilər suya. Körpü, su üstünnən üç dəfə o üzə-bu üzə keçərdilər. Suyun qırağında tonqal

qalardılar. Kimin tüfəngi var, boş saxlamasınnar deyə göyə atardılar. Belə inanc var idi. Kimin sağını var idisə, çərşənbənin günü, mütləq nehrə çalımmalı, nehrə yağ çalxalamalısan. Çərşənbəyə bir-iki həftə qalmış buğdadan səməni göyərdərdilər.

Mənim yadıma gəlir, atamın bibisi səmənini döyürdü, suyun çıxarırdı, yağ-zad eləmirdi. Un vururdu gözünə, yekə qazan bişirərdi, evlərə hamıya paylayardı.

## ÇİLƏLƏR

Amma Lənkəran zonasında, çilə gələndə 1-ci çilədə onlar mütləq qarpız kəsirlər. Yeddi tumdan – boranı tumundan, buğdadan, noxuddan, küncütdən, alaqanqalın tumunnan qourğa düzəldərdilər.

Böyük çillə qırx gün olur, kiçik çillə irmi gün. Kiçik çillə deyir ki, mən sənin yerində olseydım, dul arvaddarın əlin dondurardım. Ona görə deyillər, böyük axmaxdı, kiçik çaxmax. Kiçik düşür qışın orta ayına. Kiçik çoxbilmiş olur.

## İL VƏ AYLAR

Deyirlər, ilin on iki evladı olur. Hamısı gəlir, biri gecikir. Hər ay ona bir günün, iki günün verir. O da fevral ayı, düzəlmir. Ona görə, mart ayı küləhli, yağışdı olur.

Mart ayında bayramlar olur. Adamın evinə ged-gəl olur. Adam var çatdırır, çatdırmır.  Belə də deyirlər, köhnə qutarıb, təzə də çıxmayıb. Hər şey qıtdaşır.

Mart çıxdı, dərd çıxdı – insanların keçirdiyi vəziyyətə görə deyilir.

# ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

1. Ac toyux yuxusunda darı görər.
2. Adam divarın bir üzün yıxanda bir üzün dalda saxlar.
3. Adam itdən utanmaz, itin yiyəsindən utanar.
4. Adam var ki adamların naxışıdı, Adam var ki eşşək onnan yaxşıdı.
5. Adam var pulu yığır, yaşamaq üçün, adam var pulu yığır yemək üçün.
6. Adam var, gəmidə oturub gəmiçi ilə savaşır.
7. Adamı söz yandırar,
   Kababı köz yandırar.
8. Adın nədir Rəşid, biririn de, biririn eşid.
9. Ağa deyir, sür dərəyə, sür dərəyə.
10. Ağac bar gətirəndə başın aşağı tikər.
11. Ağac kökünnən su içər.
12. Ağacı öz içinnən qurt yeyər.
13. Ağacı qırarsan, səmtinə yıxılar.
14. Ağanın malı gedər, muzdurun canı çıxar.
15. “Ağzıma bal, ağzıma bal” deməklə, ağız şirin olmaz.
16. Ağ gün adamı ağardar.
17. Ağıl ağıldan üsdündür.
18. Ağıllı ananın dəli qızını al, dəli ananın ağıllı qızını alma.
19. Ağıllı fikirləşincə dəli vurub keçir.
20. Ağıllı min evi yeyər, dəli bir evi yeməz.
21. Ağıllılığınnan ata bilmirəm,
    Şirinniyindən uta[19] bilmirəm.
22. Ağır otur, batman gəl.

[19] Uda

23. Ağlamayana çörək yoxdur.
24. Ağlayanın bir dərdi var, gülənin min dərdi var.
25. Ağrımayan başuva qırsakqız qoyma.
26. Ağsaqqallı günüm olanın başına külüm olar.
27. Axşamın xeyrindənsə, gündüzün şəri yaxşıdır.
28. Aləm aləmdən, kor qız xalamdan.
29. Aləmə it hürsə, mənə də çakqal.
30. Allah dəvəyə qanad versəydi, vurub damı-daşı uçurdardı.
31. Allah-Taala heş vaxdı adamın zəhmətini hədər vermir.
32. Almağa alıcı quşdur, verməyə kor yapalaq[20].
33. Anası çıxan ağacları balası budaq-budaq gəzər.
34. Anasına bax qızın al, ərşininə bax bezin al.
35. Arxı atlan = çayı keç, bərəkallah de.
36. Arpaya qatsan, at yeməz, kəpəyə qatsan, it yeməz.
37. Arvadı əri saxlar, pendiri dəri saxlar.
38. Aslanın erkəyi, dişisi olmaz.
39. Aşığı yaxşı yola sal, betamçıdır, el gəzir.
40. Aşığın sözü qutaranda dalay-dalay edər.
41. Aşıx gördüyün çalır.
42. Aşpazdan küsən ac qalar.
43. Aşpazı iki olanın, yeməyi ya şit olar, ya şor.
44. At atı borc qaşıyar.
45. At mıxın çıxardanda ikisin özünə vurar, birin yiyəsinə.
46. At ölüb, itlərin bayramıdır.
47. Ata min, eşşəyə çatana kimi.

[20] Xəsis adamlara deyilir.

48. Atan soğan, anan sarımsaq, sən hardan oldun gülməşəkər?

49. Atı atın yanında bağlasan, həmrəng olmasa, həmxasiyət olar.

50. Atı minən gərək ata ləyağ ola.

51. Avazı yaxşı gəlir, oxuduğun Quran olsa.

52. Ayı çalır, kürd oynayır.

53. Ayıblı ayıbın bilsə, başına palaz örtər = atar.

54. Ayının min oyunu var, o da bir kal armudun üstündədir.

55. Az aşım, agrımaz başım.

56. Az idi arığ-uruğ, biri də gəldi tumanı yırığ[21].

57. Azın az dərdi var, çoxun çox dərdi var.

58. Bağa baxarsan bağ olar, baxmazsan dağ olar.

59. Baxça bağa qıydı, bağban salxıma qıymadı.

60. Bazara pulsuz gedən gora imansız gedər.

61. Bal tutan barmaq yalar.

62. Balı da sənin, bəlası da sənin.

63. Balığı at dəryaya, balıq bilməsə, xalıq bilər.

64. Bar verən ağacı kəsməzdər.

65. Bayquşun ruzisi ayağına gələr.

66. Beşi birə dəyər, birə heçə.

67. Bərkdən ikisi çıxar, boşdan biri.

68. Bilirsən qarnuvun xuyun, yemə baş-əl ayaq suyun.

69. Bir adam yaxşılığı bilmirsə, pisliyi də bilmir.

70. Bir adamın ayıbın deyəndə dön arxava bax gör sən necəsən?

71. Bir baş idi, bir ayaq,
Gəlin dedi, tej bayaq[22].

---

[21] Yırtıq

72. Bir dana quyruğun buladı, bir naxırın adın batırdı.
73. Bir dəli quyuya daş atdı, yüz ağıllı çıxarda bilmədi.
74. Bir el yığıla, bir insanı hörmətdən sala bilməz,
Bir insan özün bir saniyada hörmətdən salar.
75. Bir var evdən gedə, bir var eldən gedə.
76. Birlik harda, dirlik orda.
77. Borclu borclunun sağlığın isdər.
78. Boş qazan həmişə səs çıxardar.
79. Böyügün sözünə baxmayan böyürə-böyürə qalar.
80. Börkçünün börkü olmaz,
Kürkçünün kürkü olmaz[23].
81. Bu günün işini sabaha qoyma.
82. Bu ilki sərçə bildirki sərçəyə cik-cig öyrədir.
83. Buxarının əyrilyin neynirsən, tüsdünü ki düz buraxır.
84. Buna deyərlər yersiz gəldi, yerli qaç.
85. Buynuzlu qoçun ahı buynuzsuz qoçda qalmaz.
86. Bütövü paralama, paranı yaralama, doğra, doyunca ye.
87. Cavanlıqda vuruşursan, qocalıqda peşman olursan.
88. Cidanı[24] çuvalda gizlətmək olmaz.
89. Cins xoruz yumurtada banlar.
90. Cücəni payızda sayarlar.
91. Çağrılmış yerdən qalma, çağrılmamış yerə varma.
92. Çay gəlməmiş çırmalamma.
93. Çakqal var, baş yarar, qurdun adı betdamdır.
94. Çaqqallar savaşanda aslanlar peyda olar.
95. Çaqqalların hökmü qurd ayağa qalxana kimidir.
96. Çarvadardan[25] ev olmaz, qonşunu dərd öldürər.

---

[22] Tezbazar
[23] Başqalarının işinə yarayıb öz işinə yaramayan adama deyillər.
[24] Toxuyucu alət
[25] Yaylıq toxuyan alət

97. Çıxan qan damarda qalmaz.
98. Çobanın könlü olsa, təkə[1]dən pendir tutar.
99. Çox öyünmə, dəvədən böyük fil də var.
100. Çoxun dalınca qaçan, azdan da olar.
101. Çörəgi ver çörəkçiyə, ikisin də üsdəlik.
102. Dağ dağa rast gəlməz, insan 89urden rast gələr.
103. Daldan atılan daş topuğa dəyər.
104. Dama dama göl olar, dada-dada yox olar.
105. Danışanda ağzına çullu dovşan sığmır.
106. Danışanda elə danış, deməsinlər sus otur.
107. Danışanda elə danış, səni pərt etməsinlər.
108. Danışıq dananı qurda verər.
109. Darı quyuda, köyüz[2] anbarda[3].
110. Daş qızlar bağrına, gecələr yalqız yatar[4].
111. Dava eliyən qan salmaz, xəbər verən qan salar.
112. Dedilər, Əzrayıl bala paylayır, dedi balama dəyməsin, balasın isdəmirəm.
113. Dədəm kündə sayardı, nənəm də fənd eliyip yarı bölərdi.
114. Dəli dəliyə qoşulanda göydən dəyənək yağar.
115. Dəlidən doğru xəbər.
116. Dəmir qapılı olsan da, taxta qapıya işin düşər.
117. Dəmiri isdi-isdi döyəllər.
118. Dərdli deyingən olar, qəmli yatağan.
119. Dərdi bilən yox, daşıyan bilər.
120. Dəvə durdu, dam uçdu.
121. Dəvə nə qədər arığ olsa da, dərisi bir eşşəyin yüküdür.

[1] Erkək keçi
[2] Arpa, buğda, darını ölçmək üçün xüsusi qab
[3] Bu məsəl tələsənlərə aid edilir.
[4] Hamının ailəsi var, yazıq o adamın halına ki heç kimi yoxdur.

122.Dəvə oynayanda qar yağar.

123.Dəvəçi ilə dost olanın darvazası gen ola.

124.Dəvədən böyük fil də var.

125.Dəvənin malı həmişə xurma olmaz.

126.Dəvəyə dedilər, səni qonaq çağırırlar, dedi ya odun daşıyaram ya su.

127.Dəyirman bildiyin edir, çax-çax başın ağrıdar.

128.Dəyirmanın bu başından ölü atırsan, bu başından diri çıxır.

129.Diş olmayanda dodaq varındı ki.

130.Dişi düşük göy öküz qoşulub danalara.

131.Dizə qədər palçığa batanın dirsəyə qədər əli yağa batar.

132.Doğru itə ağac vurdun, oğru it özün bildirdi.

133.Dost dosda tən gərək, tən olmasa, gen gərək.

134.Dostun dilinə baxma, tutduğu işinə bax.

135.Dooşab almışam, bal çıxıb.

136.Dövlətdə dəvə, övlatda nəvə.

= Dövlətdə dəvə, züryətdə nəvə.

137.Dövlətlinin oğlu dəyirmandan gələnə dözər, kasıbın oğlu təndirdən çıxana dözməz.

138.Dünən bir, bu gün iki, şalvardan çıxdı s....

139.Düz həmişə əyrini kəsib.

140.Ehtiyat igidin yaraşığıdır.

141.Ehtiyatlı igidin anası ağlamaz.

142.El gücü, sel gücü.

143.El üçün ağlayanın gözləri kor olar.

144.El-elə sığar, ev-evə sığmaz.

145.Elə et ki, nə şiş yansın, nə kabab.

146.Eli hürküt, axsağınnan yapış.

147.Elin gözü tərəzidir, əyrini də görür, düzü də.

148.Elin o başı, bu başı olmaz.
149.Elini tərk edəni qurt yeyər.
150.Eşşək nə bilir, zəfəran nədir.
151.Eşşək mənim, mən eşşəyin, dəxli nədir, sən eşşəyə[1].
152.Eşşəyə dedilər mərfətini göstər, getdi külə ağnadı.
153.Ev sözsüz, gor əzabsız olmaz.
154.Evini təmiz saxla, qəfil qonağın gələr, özünü təmiz saxla, qəfil ölümün olar.
155.Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş.
156.Əmir dəmiri kəsər.
157.Ən gözəl biclik düzlükdür.
158.Ər arvadın savaşı, yaz gününün yağışı.
159.Ər ilə arvad ipəkdir, araya girən köpəkdir.
160.Ərə gedəndə böyük qız olursan, iş görəndə kiçik qız olursan.
161.Əsəblə qalxan ziyanla oturar.
162.Ət yeyən quş dimdiyinnən tora düşər.
163.Əvvəl addım atdığın yerə bax, sonra peşman olma.
164.Fətir yayanın üzünü pişirən ağ eliyər.
165.Gah nala döyür, gah mıxa.
166.Gecənin xeyrinnənsə, gündüzün şəri yaxşıdı.
167.Gedəni saxlamaq olmaz.
168.Getdi kabab iyinə, gördü eşşək dağlanır[2].
169.Getdim sakqal dalınca, bığı da orda qoydum gəldim.
170.Getmə gözümdən gedərəm özümdən.
171.Gəlin gəlin olmaz, gəlinin düşdüyü yer gəlin olar.
172.Gəlin ocağa gələr.

[1] Tutaq ki, adam var, oğluyla, gəliniylə savaşır. Kimsə gəlir bunların işinə qarışır. Onda deyir.
[2] Əvvəllər heyvanları dağlayardılar müalicə və tanınmaq üçün.

173.Gəzəyən gəzə bilməz, gəzməsə, dözə bilməz.
174.Görükən kəndə nə bələtçilik.
175.Göz gördüyinə inanar.
176.Gözəllik ondur, doqquzu dondur.
177.Güc birlikdədir.
178.Güclü günündən, gücsüz gününə güc saxla.
179.Gülmə qonşuva, gələr başuva.
180.Gündüz çırağın hazırlamayan gecə qaranlığa qalar.
181.Gündüz gəzər obanı, axşam ağrıyar dabanı[1].
182.Gündüz gəzir obanı, gecə ağrıyır dabanı.
183.Günortadan sora yuyulan paltar qurumaz[2].
184.Ha uzaq ola yol yaxşıdır, ha pis ola el yaxşıdır.
185.Hak[3] başı ağır olur, gec-tez gəlib yiyəsin tapar.
186.Hak nazilər, ancaq üzülməz.
187.Hakqı de özüvə ziyan versə də.
188.Halva-halva deməklə, ağız şirin olmur = olmaz.
189.Hamının boyun ölçmüşəm, donnan-dona girməyin faydası yoxdur.
190.Havaya soyuq gəldi, vay sarının halına.
191.Haynan gələn vaynan gedər.
192.Heç kəs öz ayranına turş deməz.
193.Hər qaranlıq gecənin bir işıqlı səhəri var.
194.Hər parıldayan qızıl olmaz.
195.Hər şeyin təzəsi, dosdun köhnəsi.
196.Hər yağan qar olmaz.
197.Hər yetən bir daş atar.
198.Hiləgər adam pambığla baş kəsər.
199.Xanım qız xalasına, qoç igid dayısına oxşar.

[1] Gəzəyən adamlara deyillər.
[2] Yəni iş vaxtında görülməlidir.
[3] Haqq

200.Xeyirin görmədiyi oğulun vayına oturum.

201.Xoruz olmasa, səhər açılmaz.

= Xoruz yoxiydi, səhər açılmırdı?

202.Xoşbəxliyin açarının bir üzü bağışlamaqdır.

203.İçim özümü yandırır, çölüm özgəsini.

204.İgid odur, atdan düşə atdana, igid odur, hər zəhmətə qatdana.

205.İgid ölər, adı qalar.

206.İgidin adın tut, üzün gör.

207.İki qoçun başı bir qazanda qaynamaz.

208.İki qılınc bir qına sığmaz.

209.İlanı yuvasından şirin dil çıxardar.

210.İlanın ağına da lənət, qarasına da.

211.İlan vuran ala çatıdan qorxar.

212.İmansızın öhdəsindən dinsiz gələr.

213.İnək necə xar oldu, eşşəyə cidar[1] oldu.

214.İnsan insanın sağlığında gərək qədrini bilə, öləndən sonra faydasızdır.

215.İsimmədik isdisinə, kor oldux tüsdüsünə.

216.İslanmışın yağışdan nə qorxusu.

217.İstədiyim yar idi, yetirdi pərvərdigar.

218.İstəyənin bir üzü qara, verməyənin iki üzü qara.

219.İşini ehtiyatlı tut, qonşunu oğru bilmə.

220.İt əppəg[2]ə, uşaq məhəbbətə.

221.İt hürər, karvan keçər.

222.İt qulaxkəsəndən qorxar.

223.İt məni niyə görsün, niyə hürsün.

224.İt motaldan əl çəkdi, motal itdən əl çəkmədi.

---

[1] İp

[2] Çörək

225.İt yatar qaya kölgəsində, elə bilər öz kölgəsidir.

226.İtdən çox çarıq oğurlayan yoxdur, həmişə ayaqyalın gəzir.

227.İtdən mundar heyvan yoxdu, deyir, hamıdan təmiz mənəm.

228.İtə dedilər niyə hürürsən, dedi qorxuzuram, dedilər quyruğun niyə əsir, dedi özüm qorxuram.

229.İtgi itirən anası qoynun gəzər.

230.İti öldürənə sürütdürəllər.

231.İtlə dostluq elə, ağacı əlindən qoyma.

232.Karı baltalayırlar, deyir bu nə tapa-turupdır[1].

233.Karın dalına balta girib, deyir bu nə tapa-turupdır.

= Karın təpəsinə balta dəyir, deyir bu nə tapba-turupdur.

234.Kasıb evdən çıxdı, elə bildi ev varranıb.

235.Keçəl baxar güzgüyə, adın qoyar özgəyə.

236.Keçənə güzəşt deyərlər.

237.Keçi can hayında, qəssab piy axtarır.

238.Keçinin əcəli çatanda çobanın çomağına sürtünər.

239.Keçmə namərd körpüsünnən,
Qoy aparsın sel səni[2].

240.Kirpiyə deyirlər, get bir yumşaq bala gətir, gedir öz balasın gətirir.

241.Kişini hörmətli edən onun arvadıdır.

242.Kişinin arsızı sakqız çeynər, arvadın arsızı fit çalar.

243.Kor kora deyib, kül bu yandakı gözünə.

244.Kor kora deyir, cırt bu yandakı gözünə.

245.Kor qoyun gecə otdar[1].

---

[1] Yəni ki, birinə nəsə eliyirlər, başa düşmür ki, bunun üçün eliyirlər, hələ öz aləmindədir, ona çatmır. Ya da birinin haqqında nə iş görürlər, ya ayıbın danışırlar, başa düşmür, ya da özünü qoyur qanmazlığa.

[2] Namərdə ağız açmaqdansa, qoy səni sel aparsın.

246.Kor nə istər, iki göz, biri əyri, biri düz.

247.Köçün qabağı hayana, dalı o yana.

248.Kök arıqlayınca arığın canı çıxır.

249.Kölgədə duranın kölgəsi olmaz.

250.Könül uman yerdən küsər.

251.Könlü balıq istəyən quyruğun buzlu suya qoyar.

252.Kürd atdanar, öz elin çapar.

253.Qabaqda danışan bilsə cavabı nə olacaq, danışmaz.

254.Qaçan şələ bağlamaz.

255.Qaçanı qovmazlar.

256.Qanan qanmaza borcludur.

257.Qanı qanla yumazlar, qanı su ilə yuyarlar.

258.Qanmazın şələsin, qaldırma, şələ pörtdər, səni günahgar bilər.

259.Qar yağdı, izlər itdi.

260.Qara nefdən halva olar, dadı olmaz.

261.Qarannıxda yeyilən tikə şirin olar[2].

262.Qardaşın necə adamdır, yol yoldaşı olmamışam.

263.Qardaşlar savaşdı, əblahlar inandı.

264.Qarğa qarğayla uçar, sərçə sərçəylə.

265.Qarğa, qarğa məndə qoz var.

266.Qarı deyib öləcəm, qız deyib ərə gedəcəm[3].

267.Qarı düşmən dosd olmaz, ürəyində hələ də var[4]

268.Qarın qardaşdan irəlidir.

269.Qaşığa verməkdən çömçənin haqqı çıxdı.

270.Qaşınmayan yerdən qan çıxmaz.

---

[1] İşi vaxtında görməyənlərə aid edilir.

[2] Heç kəs görmür də, nə cür istəsən, yeyirsən.

[3] Qış ehtiyatı görməyənlərə aiddir.

[4] Bı da ermənilərə aiddir. Görürsən, nə qədər dost olsaq da, ürəyindəki hələ də var.

271.Qazan dedi qızıldanam, çömçə dedi bulanıb çıxmışam.

272.Qəzəblə qalxan ziyanla oturar.

273.Qəzəblə bitən iş xeyirli olmaz.

274.Qılınc yarası sağalar, söz yarası sağalmaz.

275.Qırxında öyrənən gorunda çalar.

276.Qırmızı qızlar, özü o......, bizi dumbuzlar.

277.Qız ağacı, qoz ağacı.

278.Qız qocalanda dayısına düşər.

279.Qızı öz başına qoysan, ya halvaçıya gedər, ya zurnaçıya.

280.Qızım, sənə deyirəm, gəlinim, sən eşit.

281.Qızını döyməyən, dizini döyər.

282.Qohum qohumun ətini yesə də, sümüyünü atmaz.

283.Qolun sınığı boyundan asılar.

284.Qonağa get deməzlər, altından palağ çəkərlər.

285.Qonax az qalar, ancax çox şey görər, çox şey eşidər.

286.Qonax qonağı isdəməz, ev yiyəsi hər ikisin.

287.Qonaq ev yiyəsinin dəvəsidir, harda desə, orda durmalıdır.

288.Qonşu qonşuya baxar, özün oda atar.

289.Qonşum qonşu olsa, kor qızım ərə gedər.

290.Qonşunu bir inəkli istə, Allah səni iki inəkli edər.

291.Qonşuya ümüd olan şamsız yatar.

292.Qorx o adamdan qorxmasın Allahından.

293.Qorxan gözə çöp düşər.

294.Qourğanın yananı çırtlar.

295.Qozbeli qəbir də düzətmir = düzəltməz.

296.Qul xətasız, kor əzabsız olmaz.

297.Qulaq gündə bir söz eşitməsə, kar olar.

298.Qurd qocalanda başına kəpənək qonar.

299.Qurd tükünü dəyişər, amma xasiyyətini dəyişməz.
300.Qurdu nə qədər bəsləsən də, gözü meşədə olar.
301.Quru çinar qırılar, ancaq əyilməz.
302.Quru qutarıb, yaş da yoxdur.
303.Qurunun oduna yaş da yanır.
304.Lalın dilin anası bilər.
305.Danışanda looğalıqdan ağzına çullu dooşan sığmır.
306.Mal malın böyürtüsünə gələr.
307.Malım xarab olunca qarnım xarab olsun.
308.Meşə çaqqalsız olmaz.
309.Meşədə armudun xasın[1] ayı yeyər.
310.Meşədə çakqal az idi, biri də gəmi ilə gəldi.
311.Məçidin qapısı açıq, itin həyasına nə?
312.Mərdimazar olmasa, qurdla qoyun nobat[2]a gedər.
313.Məsləhətli don gen düşər.
314.Milçək mundar deyil, anca könül bulandırır.
315.Mis sınmış ya cingildəmiş, fərqi yoxdur.
316.Müsəlmanın sonrakı ağlı.
317.Nağdı qoyub nisyə dalınca getmə.
318.Neynirəm qızıl teşdi, onun içinə qan qusum.
319.Nə əkərsən, onu biçərsən.
320.Nə əldən qoyur, nə yardan qoyur.
321.Nə tökərsən aşına, o çıxar qaşığına.
322.Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım.
323.Nisiyə alan iki dəfə keflənir, bir alanda, bir verəndə.
324.Niyyətin hara, mənzilin ora.
325.O yüyürməyə bu yıxılmax[3].
326.Oba durdu köçməyə, gəlin getdi s....

---

[1] Yaxşı
[2] Heyvan otarmaq üçün növbə
[3] Verdiyi sözü tutmayanlara deyilir.

327.Oba köçər, qanunu yerdə qalar.

328.Od olmayan yerdən tüsdü çıxmaz.

329.Od yanmasa, tüsdü çıxmaz.

330.Odla suya yalvarmaq olmaz.

331.Oğlan evi alınca qız evi ölüncə.

332.Oğlumun oğlu məni çaydan keçirdər, qızımın oğlu g....mə barmax keçirdər[1].

333.Oğru elə çığırdı, doğrunun bağrı yarıldı.

334.Oğrudan oğruya halaldır.

335.Oğrunun arvadı oğrudan gərək zirəg ola, gətirdiyini ört basdır edə.

336.Oğulum oğul olsun, kol dibi evim olsun.

337.Oxdan çıxan yay geri qayıtmaz.

338.Oxu atıb yayı gizlətmə.

339.Olub eldən, ulusdan, olub ardan, namusdan.

340.Ot bir gün yolun sağında bitər, bir gün solunda.

341.Ot ot üstə bitər, əsli nə isə.

342.Oturanda elə otur, deməsinlər dur get.

343.Öküzü ölənə yol gösdərən çox olar.

344.Öküzün qaşqasın döyərlər.

345.Ölmə, eşşəyim, ölmə, yaz gələr, yonca bitər, saralma, yoncam, saralma, sən də yeyib ölməzsən.

346.Ölüm qara dəvədir, hər qapıda çökər.

347.Ölünü öz başına qoysalar, kəfəni yırtıb qaçar.

348.Ölünü öz xoşuna qoysalar, kəfəni yırtıb qaçar.

349.Ölünün yiyəsi çox olar.

350.Ördək istədi, qaz yerişi yeriyə, öz yerişini də unutdu.

---

[1] Elin məsəlidir, doğrudan, oğul nəvəsini, nə qədər olmaya, qız nəvəsindən üstün bilirəm. Oğul nəvəsinə adamın ərki çatır, biraz qız nəvəsində çəkinirsən. Bu, eldə var.

351.Örkən nə qədər uzun olsa, gəlib doğanaqdan keçər.
352.Örtülü bazar dosduğu pozar.
353.Özgə atına minən tez düşər.
354.Özgə ilə qardaş olan ölümlə yoldaş olar.
355.Özgə özgənin ölüsün bayatı ilə ağlayar.
356.Özgənin ipi ilə quyuya düşmə.
357.Özü yıxılan ağlamaz.
358.Özü özünə elədi,
Külü gözünə elədi.
359.Özünə umac ovmur, başqasına əriştə kəsir.
360.Paxıl artmaz.
361.Palaza bürün, elnən sürün.
362.Pir mənimdir, kəramətinə bələdəm.
363.Pişik çox istədigindən öz balasın yeyər.
364.Pişiyin ağzı ətə çatmaz, deyər mundardır.
365.Pullu günündən pulsuz günə pul saxla.
366.Rəhmət yazana, nəhlət pozana.
367.Rəhmət barışdırana,
Nəhlət qarışdırana.
368.Saxla samanı, gələr zamanı.
369.Sakqalım yoxdur, sözüm ötmür.
370.Salavat gücə bağlıdır.
371.Saman altdan su yeridən.
372.Satqını xainlik öldürər.
373.Savaşanda elə savaş, barışmağa üz saxla.
374.Sayanın quluyam, saymıyanın ağası.
375.Sel gələndə əvvəl çör-çöp gətirər.
376.Sevinən qurdun ağzı açıq qalır.
377.Səbirnən halva bişər, ey qora, sənnən,
Bəsləsən, atlaz olar tut yarpağınnan.
378.Sən nəyi-nəyinsə xətrinə bağışla.

379.Sən südlü inək ol, vedrəni dağıt.
380.Sən vurmadın, mən yıxılmadım, bəs nə oldu?
381.Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış.
382.Sirkə nə qədər tünd olsa, öz qabın sındırar.
383.Sirrini vermə dostuna, dosdunun da dosdu var.
384.Soğan yeməmisən, için niyə göynəyir?
385.Sonrakı peşmançılıq fayda verməz.
386.Soruşmaq ayıb deyil, bilməmək ayıbdır.
387.Söz ki otuz iki diş arasından çıxdı, o sənin deyil.
= Sözü ağzından çıxartdın, sənin deyil.
388.Söz var xalq içində, söz var xılx içində.
389.Sözü de = at yerə, yiyəsi götürəcək.
390.Sözün yalnışı olar, yalanı olmaz.
391.Su axar, çuxurun tapar.
392.Su gələn arxa ümüd var, bir də gələr.
393.Su girdi qaba oldu içməli.
394.Su meymunun boğazına çatanda öz balasın da ayağı altına atar.
395.Su səhəngi suda sınar.
396.Suda boğulan saman çöpünə əl atar.
397.Susuz quyuya su tökməklə quyuda su olmaz, gərək quyunun özündən su çıxa.
398.Suyun lal axanı, adamın yerə baxanı.
399.Südlü qoyun sürüsündən çıxmaz.
400.Şahla şillə plov yemir, deyir buğlarım yağa batır.
401.Şər deməsən, xeyir gəlməz.
402.Şərti şumda kəsək, xırmanda yabalaşmayaq.
403.Tamahın yoxdur, işin nə?
404.Taylı tayın tapmasa, günü ah-vayla keçər.
405.Tezdən duranla gec yatanın işi dala qalmaz.
406.Tək əldən səs çıxmaz.

407.Tək qoyundan sürü olmaz[1].

408.Təklifsiz yerə varma,
Təklifli yerdən qalma.

409.Tələsən təndirə düşər.

410.Təzə ay çıxdı, köhnə ayı ulduz etdilər = doğrayıb ulduz eylədilər[2].

411.Tikə ilə dosd olan illərəcən düşmən olar.

412.Tikə qarın doyuzdurmur, hörmət artırır.

413.Toba-toba, nə toba, o...n g..ə nə toba.

414.Toxun acdan xəbəri olmur.

415.Toydan sonra nağara.

416.Toyuq yumurtlamadı, bəs fala[3]nı neylədi?

417.Tutdu, qatıq, tutmadı, süd.

418.Tülkü tülkülüyün subuta yetirincə dərisin boğazından çıxardılar.

419.Uçan yurd möhrə[4]sinnən = kalafa[5]sınnan bəlli olar.

420.Uçdu bülbül, soldu gül, isdər ağla, isdər gül.

421.Ustadına kəm baxanın gözlərinə qan damar.

422.Utananın oğlu olmaz.

423.Utandın, allanacaqsan, inandın, aldanacaqsan.

424.Utanmasan oynamağa nə var ki?

425.Uzaq qohumdan yaxın qonşu yaxşıdır.

426.Uzaq yerin halvasın hoza ilə döyərlər.

427.Uzunun ağlı topuğunda olar.

428.Uzun-uzun meşələr, səndən qalan peşələr[1].

---

[1] Ailə, qohum-əqrəba birliyinə aid edilir.

[2] Təzə dost, təzə qonşu çıxanda əvvəlkilər haqqında deyilir.

[3] Toyuğun altına qoyulan yumurta

[4] Qədim ev forması

[5] Dağılmış ev deməkdir. Yəni əgər bir ev uçubsa, onun yurdundan bilinir ki, əvvəl necə ev olub.

429.Uşaq zirəngin bir əlin tutar, əcizin-[2] iki əlin.
430.Ümüd oldum itə, özüm də hürmədim.
431.Ürək yanmasa, gözdən yaş çıxmaz.
432.Vaxtdız gələn qonaq öz kisəsindən yeyər.
433.Verən əl alan əldən həmişə üsdün olar.
434.Vurursan ölür, kişdə deyirsən getmir.
435.Yağ yağ üsdə tökülür, yarmalar yavan qalır.
436.Yağışdan çıxdıq, yağmura düşdük.
437.Yaxını otda, uzağı gözlə.
438.Yaxşı cücə yumurtada cükgüldər.
439.Yaxşı oğul neynir ata malın,
Pis oğul neynir ata malın.
440.Yaxşılığa yaxşılığ hər kişinin işidir,
Yamanlığa yaxşılığ nər kişinin işidir.
441.Yaxşılıq eləyən, evində ölməyəsən, toyuq hinində öləsən.
442.Yalaçını mənzilinə qədər qovarlar.
443.Yalan ayaq tutar, yeriməz.
444.Yalançı həmişə tamahgiri aldadıb.
445.Yalançının evi yandı, heç kəs inanmadı.
446.Yaman günün ömrü 102urden102.
447.Yaranı isdi-isdi bağla.
448.Yatan qalar, yetən gedər.
449.Yatan öküzün başına duran öküz batırar.
450.Yatan özü bilər, başın hara qoyar.
451.Yazıya pozu yoxdur.
452.Yel əsəndə qayanın tozun aparar.
453.Yeməklə doymayan yalamaqla doyacaq?

---

[1] Yəni sənin qoyduğun qanunla, verdigin tərbiyəylə gedirik. Ata necədirsə, bala da elə olur.

[2] Aciz

454.Yemiş çıxdı yelpənk p..a döndü.
= Yemiş çıxdı, xiyar dəbdən düşdü.
455.Yetimə gəl-gəl deyən çox olar, çörək verən az olar.
456.Yıxılana balta vuran çox olar.
457.Yoxdan kosa yaxşıdır[1].
458.Yolçu yolda gərək.
459.Yolun enlisi, insanın ellisi.
460.Yooşanı bəsləməklə yasəmən olmaz.
461.Yorğanuva bax, qıçını uzat.
462.Yorğanuva bax, ayağını uzat.
463.Yuxarı tüpürürəm bığ, aşağı tüpürürəm sakqal.
464.Yüz dəfə imamı ağlayanda bir dəfə yezidi ağla.
465.Yüz fikir bir borcu ödəməz.
466.Yüz ilin ölülügündən bir günün diriliyi yaxşıdır.
467.Yüz ölç, bir biç.
468.Zər qədrin zərgar bilər.
469.Zirəng usaq yerişindən bəlli olar.
470.Ziyanın yarısından qayıtmaq xeyirlidir.

[1] Kosanın tükü tək-tək çıxır axı. Yəni heç olmamaqdan yaxşıdır.

## TAPMACALAR

1. Yatanda yumru yatar,
   Ətin dərmana qatar.
   İstərəm tutam,
   Tikanı əlimə batar.
   **(kirpi)**

2. O yanı qaya, bu yanı qaya,
   İçində 104urd maya.
   **(yumurta)**

3. Gəlirdim kətdən,
   Səs 104urde bərtdən.
   Ağzı sümükdən,
   Saqqalı ətdən.
   **(xoruz)**

4. Bizdə bi kişi var,
   Agzinda iki dişi var.
   **(qayçı)**

5. Bizdə bi kişi var,
   Xor-xor yatışı var.
   **(pişik)**

6. Ağaca çıxar adamla,
   Bi nəlbəki badamla.
   Nə dişi var, nə ağzı,
   Hey danışar adamla.
   **(kitab)**

7. O yanı taxta bu yanı taxta
Şahqulu bəy otaxta.
**(bağa)**

8. Bir quşum var alaca,
Gedər qonar ağaca.
Özünə bi ev tikər (yuva tikər),
Nə qapı qoyar, nə baca.
**(barama qurdu)**

9. Ləyəndə ay ləyəndə,
Güllər boynun əyəndə.
Yeyilər kal vaxtında ,
Yemək olmur dəyəndə.
**(xiyar)**

10. Otuz səkkiz paltar geyir,
Hamısı da düyməsiz.
**(kələm)**

11. Sarı biz yerdə bitər.
**(yerkökü)**

12. Yerdə bir süfrə var pambıq kimi ağdır.
**(qar)**

13. O yanı taxta bu yanı taxda,
Şahqulu bəy otaxda.
**(tısbağa)**

14. Bizdə bir kişi var, xor-xor yatışı var.
**(pişik)**

15. O nədir ki qırx dişi var?
**(daraq)**

16. Atdan hündür, itdən alçaq.
**(yəhər)**

17. Sarı sarı sandıqlar,
İçi dolu findıqlar.
**(boranı)**

18. Çatı su içər, dana köpər.
**(boranı tağı)**

19. Altı ayda bir qarış,
Bir ayda altı qarış.
**(zəmi)**

20. Halalar, ay halalar,
Çöldə dovşan balalar.
Ayağından su içər,
Dimdiyindən bala8lar.
**(buğda)**

21. Altı bulaq, içərlər,
Üsdü zəmi, biçərlər.
**(qoyun)**

22. Başı fındıq,
Quyruğu qayçı.
**(qaranquş)**

23. Ağaca çıxar adamla,
Bir nəlbəki badamla.
Nə dili var, nə ağzı,
Hey danışır adamla.
**(kitab)**

24. Üsdü pulcuq,
İçi qılçıq.
**(balıq)**

25. Yer altda uzun oxlov.
**(ilan)**

26. Atlanar düşər
Qırmızı bişər.
**(qourğa[1])**

27. Ləyəndə, ay ləyəndə,
Güllər boyun əyəndə.
Yeyəllər kal vaxdında,
Yeməg olmaz dəyəndə.
**(xiyar)**

28. Yüzlərlə iynəsi var,
Tikiş tikməyi bacarmır.
**(kirpi)**

---

[1] Qovrulmuş buğda. Əsasən Novruz bayramında hazırlanır.

## ALQIŞLAR

1. Allah bərəkət versin!
2. Allah canuu sağ eləsin!
3. Allah xeyrini versin!
4. Allah ruzunu ayağuva gətirsin!
5. Allah səni göy söyüt kimi göyərtsin!
6. Allah səni həmişə sufranın yuxarı başında eləsin!
7. Ay Allah sənin köməyin olsun!
8. Dünya durduxcan durasan!
9. Getdigin yerdə yarıyasan!
10. Heyvanın tükü sanı xeyir götürəsən[1]!
11. Qazandığını şirin ağızla yeyəsən!
12. Oğlunnan obalı olasan, qızınnan qonşulu olasan.
13. Ömrün uzun olsun!
14. Sən ki məni heş vaxdı nəzərindən çıxartmırsan, daim Allahın nəzərində olasan.
15. Səni görüm işləmiyəsən, yeyəsən!
16. Səni min budaq olasan!
17. Suyun sərin, çörəyin bişmiş olsun!
18. Yanın züryətdi olsun, başın dövlətdi olsun[2]!

---

[1] Heyvan alqı-satqısı zamanı heyvanı satan alanla əl-ələ verir və bu şəkildə ona alqış edir.

[2] Bunu ən çox gəlinnərə deyillər.

## QARĞIŞLAR

1. Allah əlivün xeyrin kəssin[1]!
2. Başuva Allah daş salsın!
3. Dalınca bir qara daş!
4. Görüm səni gedəsən, gəlmiyəsən!
5. Görüm səni kor olasan!
6. Göydən yerə dəyəsən!
7. Kül başuva olsun!
8. Kül sənin kimi kişinin başına[2]!
9. Qara yerə girəsən!
10. Övlad üzünə həsrət qalasan!
11. Sən ki mənim malımı oğurradın, görüm o dünyada it kimi sürünəsən[3]!
12. Səni görüm çox işləyib az yeyəsən!
13. Səni görüm ilan vursun!
14. Səni görüm maşın vursun!
15. Səni zəlil olasan!
16. Sənin kimi oğuldansa bir kor qız yaxşıdır.
17. Sənin kimisinin olmağınnansa olmamağı yaxşıdır.
18. Üzü üsdə gedəsən, arxası üsdə qayıdasan[4]!
19. Yarım yaylaq olasan[5]!
20. Yarımıyasan səni!
21. Yerdə məhətdəl qalasan[6]!
22. Yığdığuun xeyrin görmüyəsən!

---

[1] Heyvan, ya toyuq-cücə alıb xeyrini görməyənlər satana bu şəkildə qarğış edirlər.
[2] Bunu avara kişilərə deyirlər.
[3] Oğurluq edənlərə deyirlər.
[4] Yəni ölüb qayıdasan.
[5] Hər işin yarımçıq qalsın.
[6] Özündən razılara deyirlər.

# YANILTMACLAR

Getdim gördüm, bir dərədə iki kar-kor kirpi kürkün yamıyır. Dişi kirpi erkək kirpinin kürkünü yamamaxdan erkək kirpi dişi kirpinin kürkünü yamıyır.

*****

Dəyirmana girdi köpək,
Yedi kəpək, köptü köpək.
Vurdum kötək,
Köptü köpək.

## ƏZİZLƏMƏLƏR

Balama qurban ilanlar,
Balam haçan dil annar.

Balama qurban inəklər,
Balam haçan iməklər.

Balama qurban sərçələr,
Balam haçan dirçələr.

Balama qurban dayçalar,
Balam haçan əl çalar.

Balama qurban alçalar,
Balam haçan tar çalar.

***

Atdılar atın çapar,
Balam bir dayça.
Atdılar yəhər qoyar,
Balam bir nalça.
Atdılar tüfənk götürər,
Balam tapança.

Ay hünü milçək,
Balamnan əl çək.
Balam nadandı,
Baş alladandı.

***

Çöldəki = dağdakı atlar
Quyruğun qatlar.
Ərsiz arvadlar
Bu balama qurban.

Açıb nərgizlər,
Üzlərin gizlər.
Gəlinlər qızlar
Bu balama qurban.

Həyətdə qazlar
Tüklərin nazlar
Gəlinlər, qızlar
Bu balama qurban.

Dağda darılar,
Sünbül sarılar,
Qoca qarılar
Bu balama qurban.

Dağın maralı,
Gözüm qaralı.
Dünyanın malı
Bu balama qurban.

Dağda dağanlar,
Doğub boğanlar,
Oğlan doğanlar
Bu balama qurban.

Qurban olum adına,
Əli çatsın dadına.
Əli çatanda dadına
Məni də sal yadına.

## LAYLALAR

Lay-lay dedim yatasan,
Qızıl gülə batasan.
Qızıl gülün içində
Şirin yuxu tapasan.
Lay-lay balam, a laylay!
Şirin balam a lay-lay!
= Lay-lay dedim, yat dedim,
Qızıl gülə bat dedim,
Qızıl güllər içində
Şirin yuxu tap dedim.
Lay-lay balam a lay-lay!
Şirin balam a lay-lay!

Lay-lay dedim adına,
Əli yetsin dadına.
Əli yetəndə dadına
Məni də sal yadına.
Lay-lay, balam, a lay-lay!
Şirin balam, a lay-lay!

## SAYMACALAR

Üşüdüm, ay üşüdüm,
Dağdan alma daşıdım.
Almalarımı aldılar,
Məni yola saldılar.
Mən bu yoldan bezərəm,
Dərin quyu qazaram.
Dərin quyu beş keçi,
Beşi də erkək keçi.
Erkək qazanda qaynar,
Mahmud yanında oynar.
Mahmud getdi oduna,
Qarğı[1] batdı buduna.
Qarğı deyil qamuşdı,
Beş barmağım gümüşdi.
Gümüşü verdim tata,
Tat mənə darı verdi.
Darını səpdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haq qapısın açmağa.
Haq qapısı kilidli.
Kilid dəvə boynunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu buz bağlar,
Dəsdə-dəsdə gül bağlar.
O gülün birin üzəydim,
Saçlarına düzəydim.

---

[1] Qamışdan daha möhkəm, sərt, qırılmayan bitki

Qardaşımın toyunda
Əl götürüb süzəydim.

***

Bir, iki, bildirki,
Üç, dört, qapını ört,
Beş, altı, daş altı,
Yeddi, səkgiz, Firəngiz,
Dokquz, on, qırmızı don.

## OYUN-SAYMACALAR

Əlin ortasına nəysə qoyub arxada gizdədirdin. Sora əlləri qabağa gətirirsən ikisi qoşa. Deyirdin, hindi tap. O da tapmaq üçün deyirdi:

İynə-iynə ucu düymə,
Şam ağacı, şatır keçi,
Qoz ağacı, qotur keçi.
Hapban-hupban, su iç tullan.

Handa, hunda,
Tülkü kimi yatıb handa,
Allah-Taala deyib,
Var-yox, hamısı bunda.

***

İki nəfər üz-üzə oturardı. Bi nəfər sizdən, bi nəfər bizdən. Hər iki nəfər əlin belə qoyurdu.

İynə-iynə ucu düymə,
Şam ağacı, şatır keçi,
Qoz ağacı, qotur keçi.
Hapban-hupban, su iç tullan.

Barmağın birin qatdıyırdın. Helə-helə qatdıyırdılar. Kimin barmağı tez qutarsa, o, axıra qalana çırtma vurardı.

***

Əlləri ya barmaqları stola qoyub sayırdılar. Bunnan qabax bosdanda əkin əkirmişdər. Quş çoxuydu. Sığırçın gələrdi

dənli bitki əkəndə axı dən böyürdən çıxır, sığırçın gəlib vuranda bitgi məhv olurmuş. Adam şəklində ağacdan düzəldirdilər ki, qorusunlar. Ona görə də əkən adamlar o quşu vurarmışdar, ya tutarmışdar ki, bosdana girməsin. Bir uşağın quşa yazığı gəlib belə deyib:

Gedin deyin sığırçına,
Gəlməsin bostan içinə,
Babam vurar qıçına.
Yunbalanı xəndəg[1] içinə,
Yunbalanı xəndəg içinə.

[1] Suvarmaq üçün açılan kanal

# OYUNLAR

## BƏNÖVŞƏ OYUNU

Elə bil, ya səkgiz nəfər olur, ya on nəfər olur, yarı bı tərəfdə, yarı o tərəfdə. Bular əl-ələ tutullar. Oğlannı-qızdı qarışıx. Üz-üzə dururdular, bu cür əl-ələ tuturdular, deyirdilər:

- Bənööşə, bəndə düşə,

Bizdən sizə kim düşə?

- Adı gözəl, özü gözəl

  Filankəs.

Ordan biri iti surətlə qaça-qaça gəlirdi. Əgər birləşmiş qolu açseydi, olardan bir nəfər tutub aparırdı öz dəsdəsinə. Yox, apara bilməseydi, o özü qalırdı bırda. İki nəfər də bərh-bərh tuturdu əlin. Axırda hansı dəsdə qalib gəlseydi, əl çalırdılar ki, biz qalib gəldih.

## BAYRAQQAÇDI

Bi  dənə bayrax qoyurdular, belə sancırdılar. Hər iki dəsdə ayrılırdı. Ordan da bi nəfər, burdan da bi nəfər bir, iki, üç... deyən kimi hər dəsdədən bi nəfər tez qaçırdı. Kim tez qaçseydı, bayrağı götürürdü, gətirirdi verirdi öz dəsdəsinə. Olardan da bir nəfər götürüb aparırdı ki, biz qalib gəldik.

# ETNOQRAFİK MƏTNLƏR

## CÜRƏLİ KƏNDİ VƏ TAYFALARI

Çox qədimidə Cürəli deyilirdi. Bu Cürəli iki dənədir. Bir Yuxarı Cürəli, o biri Aşağı Cürəli. Bular olub İranla həmsərhəd. O üzə-bu üzə qaçaxmal keçirirmişlər. Bunları sərhədboyu köçürdüblər, gəliblər bura. Həm də bu ərazilər əkin olub, yiyəsiklik olub. Ordan bəri gəlməgə piyadaçılığ imiş. Ona görə camahat əziyyət çəkirmiş. Əvvəl gələnnər kanalın qırağıynan sıralanıp, evin o üzü, bəri üzü yol olub. O da 20-25 dənə ev olub, çox olmuyub. Arvaddar danışardı, deyərdi ki, biz gündüz işlərdük, gecəni xəmir edib sacda çörək bişirərdik. Heyvanlarımızı sağardıq, rahlardıq.

Cır bi adam olubdu. Cırəli olub adı.
Pirəli kiminsə babası olubdur.

Qulam çox idi kəndimizdə. Oların hərəsinə bir ləqəb qoşmuşdu. Birinə deyilərdi, Yeddiarvaddı Qulam, Sumuravı Qulam, Sağır Qulam, Ağzıəyri Qulam. Ağaşoğlu Əli, Tına[1] Əli, Uzun Əli, Əşrəfoğlu Əli, İbişov Əli. Adamlar çox olanda ona ləqəb qoyurdular ki, onnan tanınsınnar.

Əl-Məhətdi tirəsi, Rəhimli, Eldarrı tayfaları var idi.

***

Camahat nəylə dolanırdı? Hamı gedip pambıx əkirdi. Gedirdilər alağın vururdular. Aprel ayında əkilirdi, onnan sora qızdar başdıyırdı onu becərirdi. Suvarırdılar çıxmıyanda əlnən əkirdilər. Yüz otuz hektar pambıx əkilirdi. Bi dənə briqada.

---

[1] Balaca

Qızdar onu becərirdi, o vaxda kimi. Onnan sora məhsul yetişirdi. Hansı sahə ki yaxşıdı, alaxsızdı, pambıx yaxşı bi boydadı, yaxşıdı. Pambığın başını vururdular ki yaxşı xol[1] açsın, budağa versin, qozanı yaxşı gətirsin. Yaxşı məhsul verəndə yaxşı sahəni ayırırdılar maşın üçün. Maşınnar gəlib yığırdı. Hansı ki, kolun biri hündür, biri alçaq, biraz yer alaqlıdır, onu qızdar əlnən yığırdı. Bir qız yüz yirmi-yüz otuz kilo pambıq yığırdı.

Lap birinci dəfə mən balaca uşağ olanda, pambığı yığırdılar xarala. Əvvəl onda gətirirdilər, sərirdilər, qurudurdular. Aparırdılar məntəqəyə. O işə kişilər baxırdılar. Gətirib qapan var idi, tərəzi, onda çəkirdi. Tökürdülər xarmana. Kişilər səhər onu gündə qurudurdu. Təzədən bi də bardona[2] yığıb aparardılar. Xaral da deyirdilər, bardon da. Soralar mancalax[3] çıxdı. Mancalax yükləyirdi lapeddərə. Belə götürürdü, qaldırırdı, tökürdü. O camahatın işini xeyli yüngülləşdirirdi. Texnikalar sooradan çıxdı da. Əvvəllər hamısı əlnən olunurdu. Belə pilləkən kimi hündür olurdu. Maşın gəlib dayanırdı. Görürdün, iki güjdü kişi gəlib dayanıb, biri o tərəfdə, biri bu tərəfdə. Deyirdilər, Ya Allah, Ya Məhəmməd, Ya Əli. Yuxarda da iki kişi tuturdu onu. Tulluyurdular onu taya kimi vururdular maşına. Maşın aparırdı məntəqəyə. Məntəqədə də qalırdı. Pambığın əl-əyağı qurtarannan sora məntəqədən də gedirdi zavoda. Orda çiyit[4] pambığdan aralanırdı, kip bağlanırdı. Verirdilər hansısa dölətə toxumağ üçün. Bizdə yun çox idi, Ermənistanda yox idi. Ermənistan onu yuyurdu, didirdi, ip hörürdü. Təzədən onu baha qiymətə bizə satırdı. Sovet hökumətində belə bi şey varıydı. Dolandırırdı

---

[1] Qanad
[2] Toxunma pambıq saxlamaq üçün
[3] Traktorun qarmağı
[4] Pambıq toxumu

hamımızı. Səndə yun varsa, ver yusun, qazansın. Bax bizim yunumuz belə olurdu. Millət dolanırdı o hesaba.

Südümüz o qədər çox olurdu. Yekə teşt[1]dərdə qoyurdum evin ortasına. Heyvanımız çox idi. Kişi briqadir idi. Kişinin o vaxtı var idi. O vaxt heyvan yaxşı pula getmirdi. Kimisi çoban-filan tuturdu. Qırx beş dənə-əlli dənə qoyunumuz variydi.

Südü sərirdüg, üzün yığırduğ. Südü qızdırurdun balaca. Üzün yığırdun. Onun altına maya tuturduğ özümüz heyvanın qursağınnan. İndi hazır mayalar gəlir, onda özün tuturdun. Heyvanın qarnının üstündə olur qursax, o qalıp quruyurdu. Təmiz saxluyurdux. Qalan südü qatıx, pendir eləyirdik. Gamış cinsində qaymax olur, inəhdə az olur. Körpə uşağa keçinin inəyin südün verillər, amma camışın südünü verməg olmur uşağa.

Nehrə çaxlıyırdıx. Nehrəni axı çaxlıyanda köp əmələ gəlirdi. Nazik qamışı belə salırduğ baxurduğ ki, yağ əmələ gəlip ya yox.

***

Deyir, qadın kimə nə versə, gərəh kişinin icazasıynan, izniynən verilə. Qadın işdəsə də, evin böyügü kişidi, kişi bilməlidi ki, məsələn, Elnarə kimə nə bağışdadı, nə verdi. İrağ olsun, qadının əri yoxdusa, öz əli, öz əməlidisə, nə isdəsə, verə bilər. Kişi də qadına birinci gecəsi ki kəbin kəsilip, nə boyun oldusa, kişi ona boşdudu. Qanunumuz belədi.

***

Əmim arvadı belə çilli tuman geyərdi. Yupka kimi ipi varıydı. Belinnən ip vırardılar. Köynəg də geyirdilər. Ərəplər necə böyrün açıx qoyur, onların da köynəgləri bıra kimi açığ olardı. Tuman uzun olurdu, Köynəg ondan bir azca qısa. Tuman

[1] Ləyən

altı metirə, yeddi metirə, səkgiz metirə parçadan tikilərdi. Bırasınnan belə çin[1] tikərdilər. Bel hissəsi çin olurdu, aşağı hissəsi açıx qalırdı. Bizim yerri camahat köynəyi biraz uzun eliyirdi, Ama leriklilər bir az qısa eliyirdi. Kofda kimi yüngül eliyirdilər.

***

Bınnan qabax soyuducu yoxuydu, qarğıdan çığ toxuyardılar, südü, qatığı qoymaq üçün. Bınnan qabax gəlinnərin ixdiyarı çatmazmış çığa girsinnər. Qayananın özü girib rahatlıyarmış sütü-qatığı. Bınnan qabax qaynana gəlinə qarşı zəhmliymiş, qayın arvatdarı yola getməzmiş. Deyirdilər, qayın arvadı, xayın arvadı. İndi helə döyür.

***

Kənt yerində kim nə yığsa, qışda onu yeyər. Qışda o qədər iş olmur. Ona görə, nə olsa onu yeyir, olmasa, heç.

## QƏDİM QABLAR

Sərinc – bardax kimi olardı, qapağı da açığ olardı. Özü kimi misdən də qulpu varıydı. Sərinc bir növ dolça formasındadı, aşağısı da armudu stəkan kimi boğazı yığılırdı, ağzı yenə açılırdı. 63-cü ildə mən gəlin gəlmişəm. Qaynənəm o qaba heyvan sağardı.

Sora mənim öz babamgildə bardax var idi. Bardağın çölün qırnan qırramışdılar. Yağ çox olanda onda əridirdilər. Onun ağzını bağlayırdılar, aparırdılar, qoyurdular, sərin yerdə qalırdı. Nə qədər qalsa, xarab olmurdu. Ona hava keçmirdi, qırrıyırdılar axı qabı. Yağı tökürdülər qalırdı uzun müddət.

---

[1] Qatlama

Qulplu çömçələrə abgərdən deyirdih. Süzgəz, kəfgir varıydı. Aşsüzənə qorapalan deyilirdi. Mis iri qazanlar, mis mecmeyi, mis qorapalan[1], mis kəpgir var idi. On dənə-on beş dənə kasanı güjdü kişi xəylaxları yığılıp məclisə aparırdılar.

Qablarımızın hamısı misdənidi. Dağısdannan qalayçı gələrdi, düşərdi küçələrə deyirdi: "Qalay işi olan, qalay işi olan!" Kimin mis kəfgiri, qazanı, teşdi varıydı, aparıp verərdi. Qalayçı kömürnən körüh[2] qırardı, daş kömürnən qızdırardı, isdi qızannan sora o qalayı belə çəkərdi, əsgiynən silərdi, olardı parlax. Paxır[3] qazanda yeməh pişəndə zəhərrəmmə verə bilərdi. Gərəh qazan qalaylı oleydi. Deyirdilər, mis qazanda pişən yeməh səfalı olar.

Mənim qaynım oğlu yoldaşın Qusarın Xəzri kəndinnən aldı. Ora gedənnən sora burdan gedənnərin hamısı dedilər, gəlib çıxmışığ, burdan gedəyin Dərbəndə. Deməк, 79-80-ci ildə ordan baxanda, elə bil, Dərbəndin küçələrin iynə ilə çəkmişdilər. Orda bütöv hər yer qala idi. Mən ordan çıxanda bir qəbrin üstünü oxudum. Gördüm yazılıb, 1688. Ağ daşdan idi. Orda Fətəli xanı o dövürdə aldadıblar. Ona gətirib bir kisə qızıl verib. Deyir heç kəs oranı ala bilmirdi. Hündür qala idi. Deyib bura nə təhər eyləyək? Deyib, həfdədə bi dəfə hardan bura su gəlir. Sora bənd vurulur, suyun qabağına. Siz ancaq ordan gələ bilərsiz. Yığıblar nə qədər heyvan kəsiblər. Qan tökülüb suya. Su gəlib dolub buların anbarına. Onnan sora su xarablaşıb. Onun içindəki adamlar hamısı zəhərrənib ölüb. Onnan olar qalaya hücum çəkiplər. Qalanın qapısının qalınlığı beləydi. Onun dalında bu yoğunnuxda dəmir idi. Başı da ilan kimi. Keçirdirmişlər. O dəmir qapı

[1] Aşsüzən
[2] Dəmirçi aləti
[3] Qalaysız qazanda yaranan göy, yaşıl ləkə

Dərbənd qapısı olub. Orda yekə mis qazanlar varıydı. Misgər[1]rər var idi oların yanında.

***

Mənim babamnan qalan qab varıydı, onu mən gətimişdim. Mənnən də qız apardı, dedi, ver onu saxliyim. Bulut idi içi göy. Ona o vaxdı neçə min pul verdilər, biz vermədik. Onu qız aparıp, ondadı. Bi dənə də mis afdafadı, qulplu belə. Dəsdəmaz almağ üçün. O, anamgiliniydi. Onu da anamgildən gətirdüg. İki klo ağırrığı var. Qədimidi, misdəndi.

Bir dənə də belə bulutdu. Qədimdi. Bəlkə əsrdən də artıxdı onun tarixi.

Kətmən olurdu, taxda da deyirdilər, pambığın o üz-bu üzün vırırdılar.

Ot biçməg üçün dəryaz olurdu. Onun kiçiyi oraq olurdu. Oraxnan otu çalırduğ.

Çin olurdu. Balaca olur, ağzl əyri olur. Otu dəsdə-dəsdə biçməg üçün. Çinin ağzı birəz açığ olur.

## ÜZƏRLİK HAQQINDA

Üzərliyi yığardılar qurudub saxlayardılar. Birinə bəd nəzər dəyəndə onun tumlarını duz ilə qarışdırıb başa çevirib bunu deyərdilər:

– Üzərliksən, həvasan,
Hər bir dərdə dəvasən.
Səni onüçün dərirlər.
Gələn bəlanı sovasan.
Üzərlik dənə-dənə,

[1] Mis qablar düzəldən və təmir edən ustalar

Çəkilsin çəri-çənə[1].
Qohum ola, yad ola,
Nəzəri burda yana.

Bunu deyib, üzərliyi yandırıb külünü nəzər olan uşağın üzünə çəkərmişlər.

Əvvəlcə bir dəfə alnına yandırıb, sonra oxuya-oxuya yandırıb qarasını yenidən üzünə, alnına, bədəninə vurarmışlar.

Bir az pambıq götürüb az-az qırıb sayırmışlar. Bir az üzərlik, bir az duz, pambıq. Kimdən şübhələnmişlər, onu beş, yeddi, on və s. Sonra ucunu əldə ya qabda üsdünə bunu fırladıb oxuyarmışlar.

## HÖRÜMÇƏK HAQQINDA İNANC

Deyir, əgər hörümçək başınnan sallanıp yerə dəyirsə, sənə xeyir xəbər gətirir, yox, yarıdan qayıdırsa, bəd xəbər var.

[1] Üzərliyin içinin tumu

# BİLƏSUVAR YEMƏKLƏRİ

## DUZLU BALIQ BUĞLAMASI

Duzdu balığı iki-üş dəfə yuyup duzun, aparıb içinə kartof – nazih doğrammış, pamidor, bibər, soğan, göy alça qoyullar. Qış aylarında göy alça olmuyanda, görürsən, turşu qoyurdular. Onun kartofu duzun çəkir canına, yeməli olur. Özünnən çox içindəkilər yeməli olur. Sora onu yaş əsgiyə büküp közün üsdündə bişirirdih. Közü çox qalıyırdıx, pambıx çöpüynən qalıyırdıx. Sora közü belə eşirdih, qoyurdux qəşəh qızardırdıx. İki sahatdan-üş sahatdan sora közü oyana-buyana eliyirdih, lay çıxardırdıx, yavaş-yavaş açırdıx, qoyurdux podnisə. Ama talışdar, görürsən, pamidor, göy alça, bir az da şüyüd doğruyullar, basdırmıllar, təndirin içində, qızarır elə.

## BALIQ QIZARTMASI

Şit balığı doğradıx, duzdadıx, onu yağda qızardıb qoyursan kənara. Sora soğanı qovururux, sora ona turşu atırsan, qızarmış balığı döşüyürsən onun içinə, azca da su tökürsən. Lap qəşəng olur.

## BORANI AŞI

Düyünü yuyurdux təmiz. Boranını da doğreyırıx. Mən sütnən ələlxusus pişirirəm, suynen pişirmirəm. Bir kasa düyüyə, bir kasa su, bir kasa süt tökürəm. Südnən su qaynıyır, düyünü yuyursan, tökürsən onun içinə. Düyü balaca – bir buxurum qaynıyannan sora boranını da tökürsən onun içinə, bir-iki dəfə qarışdırırsan. Əyər boranıda bir az şəkərriy azdısa, bir-iki topa

qənd atırsan elə suyun içinə. Boranı şirindisə, heç eləmirəm. Adam var, deyir, şirinni olsun, adam var, xoşdamır, elə deyir, boranı olsun. Vırırsan dəmə, qalır orda, pişirirsən.

## LƏVƏNGİ

Toyuxdan, balıxdan ləvəngi eliyüriy. Ləvənginin içinə qoz, soğan. Qırmızı soğan olsa, daha yaxşıdı. Olmuyanda elə adi. Lavaş turşu vururux.

## AYRAN AŞI, DOVĞA

Qabaxlar bı doğiya ayran aşı deyirdilər. Doğanı qatıxdan eliyillər, ama bını nehrəni yayırdıx biz. Nehrədən yağı götürən-nən sora onun axı ayranı olur, həmin o ayrana başdıyıp göyərti doğruyurdux, noxud, onnan düyü...

## BULAMA

Heyvanın birinci südü yox, ikini südü bılama olur. Birinci südü okqədər qatı olur, onnan olmaz. Onun gözünə bir az un vırırdılar, bir az da pəsox. Bilinçik kimi. Birinci südə dəə. Bir balaca da yağ atırsan, süzürsən belə, un da vırıpsan da, qəşəh göz-göz olur, qıpqırmızı o üzdü-bə üzdü qızarır. Birinci süddən. İkinci süddən ama bılama olur, onu qaynatmırsan, müeyyən vaxdacan belə-belə bılleyırsan, bir azdan sora görürsən, süd balaca qatılaşdı. Onu hər adam bacarmır, çürüdüllər çox adam. Onu gərəh qaynamağa qoymuyasan, əlində bılıyanda tez-tez fikir verəsən. Gördün, bir balaca qatılaşma gedir, götürüp tez yerə qoyasan, yerdə də soyuyunca bılıyırsan, bir də görürsən, olur bılama.

## QAYMAQ

Qaymağ iki cür olur. Südü sağıllar, gətirip süzüllər. Nə qədər olmuya da, heyvanın tükü-mükü düşür. Süzənnən sora verillər maşının ağzına, qaymağı bı tərəfə gedir. Südü o qədər duru olur, göyümtül rəngə çalır. Südün nə yağı varsa, gedir da, qaymağı nə varsa, çıxır. Adam var, onnan yağsız pendir eliyir. Ama adam var heyvanın südün qaymaxdan ayırmır, pendir eliyir, yağlı pendir olur. Onu doğruyup qaba qoyursan, suyuna öz-özünnən muncux-muncux yağ çıxır.

## QUYMAQ

Gəlin uşax dünyaya gətirəndə pişirillər. Ərimmiş yağı tökülər qazana, süddə azca çalıllar, duru... Sən ayrıca xəmiri tutursan. Töküllər onun içinə, okqədər qaynıyır, qaynıyır, onun altı qazmax halında olur. Süd, yumurta, un, pəsox. Onu qəşəhcə qarışdırıllar, bilincih xəmirinnən bir az qatı xəmir olur. Yağı tökürüh qazana, qızırdı, qaynıyırdı. Rəhmətdih Gülyaxşı arvat varıydı, Muğankəntdə... Tökmə qazanı qoyurdu ocağa, onu yayırdı onun içinə, altı olurdu qıpqırmızı xına kimi – qəşəh...

## XƏŞİL

Xəşili adi suda çalıllar. Unnan suyu çalıp qazana töküllər, pişirillər. Qazanda çoxlu çalıllar, bir az dönür rəngi. Pişirənnən sora götürüp qoyursan qaba. Sora qabda kərə yağ qoyullar ortasına, pəsox səpillər qırağına. Bərk olur. Sora yağa qaşığı batırıllar, yeyillər.

## BAYATILAR

1. Mən aşıx, şirin nə var,
Şirinnən şirin nə var
Yığılsa cümlə aləm,
Anadan şirin nə var.

2. Mən aşıx, binə qaldı,
El köçdü, binə qaldı.
Səni bi də görməyim,
= Bir də səni görməyim
Qiyamat günə qaldı.

3. Gedərəm, ölkə, sənnən,
Qorxuram yolkəsənnən.
Gəl öpüm gözlərinnən
Bəlkə ayrıldım sənnən.

4. Gözdərim ağlağandı,
Ağlıyıb ağlağandı.
Mən özüm ağlamıram,
Dərd özü ağladandı.

5. Mən aşiqəm, xan yeri,
Soltan yeri, xan yeri.
Yüz min qoşunun olsa,
Qabağıycağ sən yeri.
= Yeri, yeri, xan yeri,
Xan yeri, tülyan[1] yeri

---

[1] Cəld, iti sürətlə

Yüz min qoşunum olsa,
Qabağıycan sən yeri.

6. Qardaş, qardaş, quş qardaş,
Kəməri gümüş qardaş,
İşim müşgülə düşüb,
Gə yanıma düş, qardaş.

7. Mən aşıx, hayana sən,
Gedibsən hayana sən?
Ürəyim səni isdeyir,
Yatıbsan, oyanasan.
= O yannan bir xəbər ver,
Sən mənnən oyanasan.

8. Mən aşiqəm, düz ola,
Kababa duz ola.
Gedibsən, tez qayıt gəl,
Bu səfərün də düz ola.
= Mən aşiqəm, düz ola,
Kabab yansa, duz ola.
Hara getdin, gələrdin,
Bu səfərin də düz ola.

9. Mən aşiqəm, min aya,
Min ulduza, min aya.
Səniynən keçirdiyim günnər
Heç biri gəlməz saya.

10. Mən aşıx, necə keçir,
Gündüzüm gecə keçir.
Mənimki ah-vay oldu.
Səninki necə keçir?

11. Bağça səndə, bar səndə,
= Baxça məndə, bar məndə,
Heyva məndə, nar məndə.
Sinəm ətdar[1] tükəni,
Hər nə desən, var məndə.

12. Sağuva dolanaram,
Soluva dolanaram,
Üzüvü bir də göstər = görsəm,
Başuva dolanaram.

13. Naçaram, ay naçaram,
Bağlı qapı açaram.
Gəlip səni evdə görməsəm,
Qayıdaram, qaçaram.
= Səni evdə göməsəm,
Baş götürüb qaçaram

14. Mən aşıx, gözdərüvə,
Gözdərim gözdərüvə.
Torpağ uçar, toz düşər,
Sənün göyçək gözdərüvə[2].

---

[1] Ətriyyat
[2] Ölünü qəbrə qoyanda deyillər.

15. Mən səni el bilirdim,
Başımda tel bilirdim.
Uca-uca dağ başında,
= Uca dağlar başında
Qurumaz göl bilirdim.

16. Dağların sarı gülü,
Ağ gülü, sarı gülü.
Səni görüm qarğıyanı
Heç görməsin Taarı[1] günü.
= Dağların sarı gülü,
Ağ gülü, sarı gülü.
O qədər əzab çəkdim,
Görmədim Taarı günü.

17. Gecənin yarısınnan,
Ay gedər yarısınnan.
Səni kimlər qarğadı,
Qaldın yol yarısında.

18. Mən aşığ, el gəlincən,
Dağlardan sel gəlincən.
Səni o qədər aglaram.
Gözümə tor gəlincə.

19. Mən aşiq, sarayınnan = harayınnan,
Xan gəlir sarayınnan.
Gündə bir kərpic düşür
Ömrümün sarayından.

---

[1] Tanrı

20. Mən aşiq, dürdanəsən,
Sədəfsən, dürdanəsən.
Mən ölsəm, sənə qurban,
Sən ölmə, bir danəsən.

21. Mən aşiq, ağlamazdım,
Gülərdim, ağlamazdım.
Bilsəydim vəfan budur,
Sənə bel bağlamazdım.

22. Mən aşiqəm, qanlı gül,
Qanlı sevda, qanlı gül.
Yemiş bulbul bağrını,
Çıxmış ağzı qanlı gül.

23. Mən aşiq, bir-bir düşər,
Qar yağar bir-bir düşər.
Səninən keçən günüm
Yadıma bir-bir düşər.

24. Günüm o gün olaydı,
Zülfün dügün olaydı.
Səninən keçən günlərim
Biri bu gün olaydı.

25. Dağların qalasına,
Can qurban yarasına.
Ana dözə bilmədi
Balanın yarasına.

26. Mən aşiq, gözlərinə,
Gözlərim gözlərinə.
Canım qurban edərəm,
Gözlərimi gözlərinə.
= Əhlət[1] uçar, toz düşər,
Sənin qara gözlərinə.

27. Başında ağ şalın var,
Ağ şala oxşarın var.
Qoşa qardaş itirməkdə
Lap mənə oxşarın var.

28. Mən aşiq daldasına,
Kölgəli kölgəsinə.
Sən əlini dalda tut,
Mən də gəlim daldasına.

29. Mən aşiq, xoş gəldin,
Xoş gəldin, səfa gəldin.
Nə mən öldüm, qutardım,
Nə sən insafa gəldin.

30. Gəlmişəm, görəm səni,
Zülfünü hörəm sənin.
Nə qapın var, nə pəncərən,
Bəs haradan görüm səni.
= Gəlmişdim görəm səni,
Zülfüvü hörəm sənin.
Nə qapın var, nə pencərən,
Bi açam, görəm səni.

---

[1] Qəbirdə ölünün baş qoyduğu daşı

31. Aşiq ellərdə də var,
Şanə tellərdə də var.
Toysuz qardaş itirməg
Bizim ellərdə də var.

32. Üzüm üzüm ağacı,
Üzüm düzüm ağacı.
Bağa baltalı girdi,
Kəsdi bizim ağacı.

33. Dərdimi daşa deyirəm,
Coşa-coşa deyirəm.
Dərdini qoyaram dərdim üstə
Qoşa-qoşa deyərəm.

34. Savalan dağ yeridir,
Zirvəsi qar yeridir.
Kimin nə dərdi olsa,
Əcəb meydan yeridir.

35. Səlyana gəmi gəldi,
Kür daşdı, gəmi gəldi.
Ağla, gözdərim ağla,
Ayrılıq dəmi gəldi.

36. Arzular, ay arzular,
Könlüm səni arzular.
Gəl səni qucaqlayım,
= Gə qolumu doluyum boynua,
Qoy baxsın tamarzılar.

37. Salyanın yasdı yolu,
Su gəldi = gəlib basdı yolu.
İstədim görəm səni,
Əzrayıl kəsdi yolu.

38. Mən aşiq, əllisinnən,
Yüzünnən, əllisinnən.
Əzrayıl ova çıxdı,
Vurubdu bəllisinən[1].

39. Mən aşqəm, yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Sağalmaz mənim yaram,
Həkim gəlsə yüz yerdən.

40. Bir at mindim, başı yox,
Çaylar keçdim, daşı yox.
Burda bir bacı ölüb,
Yanında qardaşı yox.

41. Aşıq Gəncəli olar,
Çölü yoncalı olar.
Hansı ana balasın görsə,
Yatar dincəli olar.

42. Arxaluğuu qola sal,
Sağdan götür, sola sal.
= Qoldan götür, qola sal.
Gəlib uzaxdan qonaxlarun,

---

[1] Bəlli adam, tanınmış adam

= Gəlip səni isdiyənnər,
Gəl oları yola sal.

43. Gecənin yarısında,
Ay gedər yarısında.
Məni kimlər qarğadı
Qaldın yol yarısında.

44. Aşdan mənəm, aşdan mən,
İçməmişəm aşdan[1] mən
Nə bacım var, nə qardaşım
Yaranmışam daşdan mən.

45. Mənə fələk eylədi,
Yoldu, lələk eylədi.
Girdi güllü baxçama,
Ələk-fələk eylədi.

46. Qardaşı ölən neylər,
Bacısı ölən neylər.
Gəzər cümlə-cahanı,
Əlinə düşməz, neylər.

47. Dərya, səndən kim keçdi?
Gəmi gəldi, kim keçdi?
Əzrayıl sinənə çökdü,
Xəyalınnan kim keçdi?

---

[1] Dovğa

48. Aşıx gərdənə bağlar,
Mina gərdənə bağlar.
Gərdək dərdli yanına,
*Gedək Əli qızı Zeynəp yanına,*
O*nun da qardaşı ölüp,*
Görəh dərdə nə bağlar.

49. Ayrıldın, getdin bizdən,
Qar yağdı, oldu dizdən.
= Qar yağar, olar dizdən.
Fələyin çarxı dönsün,
Səni ayırdı bizdən.

50. Aşiğ ellər ayrısı,
Nərgiz güllər ayrısı.
= Şana tellər ayrısı.
Bir gününə dözməyən canım
Oldu illər ayrısı.

51. Aşığ el bərabəri,
Ceyran çöl bərabəri.
Bir cüt qardaş = oğul itirdim,
Tamam el bərabəri.

52. Aşığ, elə bir də gəl,
Sona, göl bir də gəl.
Haraylasam səni,
Bizim elə bir də gəl.

53. Qoy mənə kür desinnər,
Kürdən də kür desinnər.

Əlini ver əlimə,
= Əlüü versinnər əlimə,
Ölkədən sür desinlər.

54. Sənə mayil[1] döyürəm,
Ağlı zayil[2] döyürəm.
Gətireydin qardaşımı,
= Gətireydin anamı = bacımı,
Sənə qail döyürəm[3].

55. Mən aşıx, gedənnəri,
Ağ donu geyənnəri.
Dolu vursun, qaytarsın
Qabaxda gedənnəri.

56. Dəvələr qatar gedər,
Baş-başa çatar, gedər.
Qardaşın iki bacısı ola,
= Adamın iki balası olar,
Heç onu atar gedər?

57. Mən bi dəsdə qamışam,
Od dəyəndə alışam.
Sənə kömək elərdim,
Dayanıb yorulmuşam.
= Mən bi dəsdə qamışam,
Ot[4] vuranda alışam.

---

[1] Meyilli
[2] Ağılsız
[3] Yəni səni istəmirəm.
[4] Od

O qədər dərdim çoxdu,
Dayanıb yorulmuşam.

58. Bulağın başı ilə,
Su gələr daşı ilə.
Sənə lay-lay çalaram = deyərəm,
Gözümün yaşı ilə.

59. Qardaşdar ay qardaşlar,
Yağış yağar, qar başlar.
Ölsə, bacılar ölsün,
Ölməsin heç qardaşlar.

60. Mən aşıx, uymamışam,
Baş yastığa qoymamışam.
Sən məndən doymuş olsan,
Mən sənnən doymamışam.

61. Naz balış baş altdadır,
Qara göz qaş atdadır,
İstərəm görüm səni,
Qollarım daş altdadır.

62. Göydən uçan quşa bax,
Qanadı sımmışa bax.
Sənə məytup göndərrəm,
Üstü qannı yaşa bax.
= Göydən uçan quşa bax,
Dimdiyində daşa bax.
Aləmi yağış vurdu,
Mənə dəyən daşa bax.

63. Bağça-bağa girirsən,
Xəzəlləri əzirsən.
Tutma qardaş adını,
Xətirrərə dəyirsən.
= Tutmaynan qardaş adun[1],
Xətirimə dəyirsən.

64. Mən aşiqəm küzədə[2],
Quzu yatar küzədə.
Sənə də qurban olum,
Səni görən gözə də.

65. Gəl, gərəyimsən mənim,
Hürüm, mələyimsən mənim.
Gündəki[3] gün sənin olsun,
Bugün gərəyimsən mənim.

66. Tayada bəlim[4] yandı,
Əl atdım, əlim yandı.
Qardaş-qardaş deməkdən,
Ağzımda dilim yandı.

67. Bosdanda tağım ağlar
Əsər, yarpağım ağlar.
Ölsən, özüm ağlaram,
Ölsəm, torpağım ağlar.

---

[1] Ölənlərə aid edilir.
[2] Quzular üçün düzəldilmiş kiçik, alçaq yer. Qoyunlar ağılda yatır, quzular küzədə.
[3] Digər günlər
[4] Buğdanın küləşinə deyillər. Onu döyüb saman halına salıb heyvana verirlər.

68. Mən aşığam, qar daşı,
Qarşı dağdan qar daşı.
= Savalannan qar daşı.
Bacılar dərdə düşər,
İtirəndə qardaşı.

69. Bacılar bacısıyam,
Şirinnər acısıyam.
Kimin qardaşı ölsə,
Mən onun bacısıyam.

70. Gedipsən əylənipsən,
Yaman dil öyrənipsən.
Oradan bir kağız yaz,
Görüm nə vaxt gəlirsən?

71. Gələrəm, gələn olsa,
Dərdimi bilən olsa.
Sənə məktub yazaram,
Gətirib verən olsa.

72. Əlində baydası[1] var,
Tutubdur = tutduğu baydası var.
Belə ölüm olmaz,
Ölümün də qaydası var.

73. Mən aşıx, yarpaxlara,
Şeh düşər yarpaxlara.

---

[1] Ölü yuyanda su tökmək üçün bir vedrə həcmində su tutan bidona bənzər mis qab

Heyif sənin canınnan.
Qarışdı torpaxlara.
= Heyif sizin cavan canuuzdan,
Qovuşdu torpaxlara.

74. Xoruzun ban səsinə,
Oyandım dan səsinə.
Məni ucadan səsləyin,
Sən də can de can səsimə.
= Mən səni səsdiyim,
Sən oyan can səsinə.

75. Gəlirdin, gətirirdin,
Görürdün, götürürdün.
Yığırdın qohumları,
Özünlə gətirirdin.

76. Bağa girməli döyür,
Gülün dərməli döyür.
Köçüb bağın bağbanı,
Gəlib görməli döyür.

77. Qaşuun qarasına,
Yol sallam arasına.
Aç ürəgüün başun,
Qurbanam yarasına.

78. Mən aşiqəm, gündə mən,
Kölgədə sən, gündə mən.
İldə qurban bir olsa,
Sənə qurban gündə mən.

79. Mən aşiq, aydın olsun,
Ay doğsun, aydın olsun.
Balan yanuva gəlir,
Gözlərin aydın olsun.

80. Mən aşiq, o gün eylər,
Ürəkdə dügün[1] eylər.
Analar balasın görəndə
Bayramın o gün eylər.

81. Almanı almayaydın,
Alıb yerə salmayaydın.
Qardaş dağı çətindir,
Boynuva almayaydın.

82. Aşığ, aralı olum,
Ürəyi yaralı olum.
Yanından bir yer eylə,
Gəlim oralı olum.

83. Fələyin qəhri mənə,
Gəlmədi rəhmi mənə.
Doldurdu qəm şərbətin,
İçirdi zəhri mənə.

84. Dəsmalın ağ saxlaram,
Yuyaram, ağ saxlaram.
Əlimə bir də düşsən,
Səni qonax saxlaram.

---

[1] Toy-düyün

= Dəsmaluvu ağ saxlaram,
Yuyaram, ağ saxlaram.
Üzüü bir də görsəm,
Səni qonax saxlaram.

85. Talışın meşəsi var,
Gülü, bənövşəsi var.
Burda bir cavan ölüp,
Əcəb tamaşası var.

86. Bayram bayramım olsun,
Güllər reyhanım olsun.
Sənsiz bayram etmərəm,
Sən gəl, bayramım olsun.

87. Yol qırağı pıtırax,
Palaz sərin, oturax.
Nə ola, gedənnər gələ,
Biz də dərtdən qutarax.

88. Mən aşıx, quzu qurban,
Qoç qurban, quzu qurban.
Özgəni = özgəsin demirəm mən,
Atavun = atamın qızı qurban.

89. Dağlara qar düşübdü,
Gör nə hamar düşübdü.
Qəbrimi qardaş qazsın,
Əhlətim dar düşübdü.

90. Dəryada fənar yanar,
Baxdıxcağ iraq yanar.
Danışaram dərdimi,
= O qədər dərt söylərəm,
Dedikcə ürək yanar.

91. Tüfəngüün pası var,
Atılmıyıp, pası var.
Kimin qardaşı ölüb,
= Hansı ananın balası ölür,
İllərəcək yası var.

92. Dağların göy çiməni,
Göyərib = göyərər göy çiməni.
Ya gəzərəm = mələrəm taparam,
Ya vurar ovçu məni.

93. Bağında badamı var,
Əkibdir, badamı var.
= Mən aşıx, badamı var,
Bağında badamı var.
Yol verin, atam gəlsin,
Desinlər adamı var.

94. Qardaş mənim gülümdü,
Gülümdü, bülbülümdü.
Ölsə, bacılar ölsün,
Qardaşı ölməh zülümdü.

95. Aşıx, yanıma gəlsin,
Dərdin = dərdi canıma gəlsin

Kimin qardaşı ölüb,
Dursun yanıma gəlsin[1].

96. Aşıq duva[2] göndərdim,
Saldım suya göndərdim.
Özüm gələ bilmədim,
Çox-çox duva göndərdim.

97. Mən aşiq, badamları,
Bağda var badamları.
Gəlmişih sizi görməyə,
= Gəl sizdən xəbər alım,
Hanı evin adamları?

98. Əlimdə ələmim var,
Qızıldan qələmim var.
Əzrayıl, bir aman ver,
Uzaqdan gələnim var.

99. Dağlar dağımdır mənim,
Qəm oylağımdır mənim.
Tez yeri, tülyan yeri,
Yaman çağımdır mənim.

100. Dağlara binə gəlləm,
= Mən aşıx, binə gəlləm,
Gedərəm, yenə gəlləm.
Üzüü bir də görsəm,
İmana-dinə gəlləm.

---

[1] Yəni gəlsin, həmdərd olaq.
[2] Dua

101. Ağlaram ağlar kimi.
Dərdim var, dağlar kimi.
Xəzəl oldum, töküldüm,
Viranə = verana bağlar kimi.

102. Şirvanın boz dağları,
Tutubdu toz dağları.
Əlini versən əlimə,
Aşaram tez dağları.

103. Şəkilə bax, şəkilə,
Şəkil göydə çəkilə.
Qiyamət onda qopar
İyin evdən çəkilə.

104. Yağaram yağış kimi,
Bitərəm qamış kimi.
Könlüm səni istəyər,
Nübarı[1] yemiş kimi.

105. Dəvələr düzüm ilə,
Düzülər düzüm ilə.
Əlimi verim əlinə,
Gəl gedək bizim elə.

106. Dəvəçiyəm, gəzirəm,
Dəvəm itib, gəzirəm.
İtirmişəm bir cüt qardaş,
Soraxçıyam, gəzirəm.

---

[1] Mövsüm başlayanda ilk yetişən meyvə

= Dəvəçiyəm, gəzərəm,
Dəvəmə gül düzərəm.
İtirmişəm bi gözəl oğul = bi gözəl qız,
Soraxçıyam, gəzərəm.

107. Aşıq, kimi göndərim?
Dağı bəri döndərim.
Yığılıb qohumlarım = qohum-əğrəbə,
Sənə kimi göndərim?

108. Aşıx, Harami dağlar,
Loğman yaramı bağlar.
İstərəm görüm səni,
Kəsib aranı dağlar.

109. Ayı dolana-dolana,
Günü dolana-dolana.
Nə olar bir gələsən
İli dolana-dolana.

110. Gəl məni qurdalama,
İri kəs, xirdalama.
Otum[1] səni yandırar = qarsar[2],
Otumu qurdalama.

111. Mən aşiqəm, bəxti kəm,
Taleyi kəm, bəxdi kəm.
Sən fələyə neylədin?
Fələh sənə baxdı kəm.

---

[1] Odum
[2] Ütər

112. Nərgizdər, ay nərgizlər,
Top-top bitər nərgizlər.
Heyif cavan canınnan,
Heyif sənin gözəl canınnan,
Torpağ örtüb, yer gizlər.

113. Mən aşiqəm, qalasız,
Şəhər olmaz qalasız.
Mən ki getməli oldum.
Siz sağlıqla qalasız.

114. Apar bazara məni,
Saldın azara məni.
Aç belindən qurşağı
Salla məzara məni.

115. Qoy məni el götürsün,
El yusun, el götürsün.
Xəbər verin qardaşıma,
= Çağır filan[1] balamı,
Çiyninə bel götürsün.

116. Mən aşiqəm, ay Mədət,
İlqar mədət ay Mədət.
Dan ulduzu doğubdur,
Ayrılıqdır, ay Mədət[2].

117. Buxarı qurum oldu,
Od yandı, qurum oldu.

---

[1] Kiminsə adı çəkilir.
[2] Bu ağı axşamdan ölü düşəndə səhər tezdən basdırmağa aparanda deyilir.

Ağır ellər içində
Sənə = mənə çox zulum oldu.

118. Quşum uçdu küləkdən,
Qolum sındı biləkdən.
*Ay ellər,* mənimki də belə gəldi,
Çarxı dönən fələkdən.

119. Uşdum, havadan uşdum,
Qanadım sındı düşdü.
Hamıdan yüksək canım
Hamıdam dala düşdü.

120. Mən aşiq, yaxşı saxlar,
Yaxşıdan yaxşı saxlar.
Qoy getsin anasının yanına,
O sizdən yaxşı saxlar.

121. Cərgədən, ay cərgədən,
Kimdi səni öyrədən?
Tutdular qolundan,
Çıxartdılar ölkədən.

122. Yollara yol salaram,
Karvanı bol salaram.
Bilsəm nə vaxt = haçan gəlirsən,
Boynuva qol salaram.

123. Mən bu yola bələdəm,
Getməmişəm, bələdəm.
Şadlığnan aram yox,

= Şaddıxnan heş aram yox,
Qəm yoluna bələdəm.

124. Gələrəm qıraq ilə,
Gül biçdim oraq ilə.
Düşərəm hər tərəfə,
Gəzərəm soraq ilə.

125. Dağları gəzdim, gəldim,
Daşları düzdüm, gəldim.
Çox yol vardım, gəlmədi,
Əlimi üzdüm gəldim.

126. Dağda duman yeri var,
Qaşda kaman yeri var.
Gedibsən, tez qayıt gəl,
Səndə güman yeri var.

127. Bu yola gedən gəlməz,
Bilmirəm, nədən gəlməz.
Qurular qəm çadırı,
Çıxar cərgədən, gəlməz.

128. Başımda qarmağım var,
Qarmağı salmağım var.
Gedibsən, tez qayıt gəl,
Sənə yalvarmağım var.
= Göz yolda qalmağım var.

129. Qarabağda talan var,
Zülfün üzə salan var.

Gedibsən, tez qayıt gəl
Gözü yolda qalan var.

130. Əslim Qarabağlıdı,
Sinəm çarpaz dağlıdı.
Nə gələn var, nə gedən,
Bəlkə yollar bağlıdır.

131. Mən aşiqəm, yaz göndər,
Payız göndər, yaz göndər.
Halunnan-əhvalunnan,
Bizə kağız yaz göndər.

132. Mən aşiqəm, yaz ağla,
Qışı gözlə, yaz ağla.
Mənim bu əhvalımı = dərtdərimi
Kitablara yaz ağla.

133. Mən aşiq, qazan ağlar,
Od dəyər, qazan ağlar.
Qəriblikdə ölənin
Qəbrini qazan ağlar.

134. Mən aşiq, yaz olar,
Qış sovuşar, yaz olar.
Deyərəm öz dərdimi,
Dərdivə əvəz olar.
= Mən aşığam, yaz olar,
Qış sovuşar, yaz olar.
Dərdimi sənə desəm,
Sənin dərdin az olar.

135. Mən bir ana istərəm,
Yana-yana istərəm.
Xətrimə söz dəyəndə
Xəlvətxana istərəm.

136. *Mən aşığam, bir də gəlin,*
*Bir dolanın, bir də gəlin.*
Tut, flankəs, qardaşuun = atoon əlinnən,
Bizim elə bir də gəlin.

137. Anam, otu yanımda,
Bacım, otu yanımda.
Birin mən deyim, birin sən,
Dərt qalmasın canımda.

138. Mən aşiq, bacı bağlar,
Bacı mehracı[1] bağlar.
Bacının sınıq qəlbin
Bağlasa, bacı bağlar.

139. Şalım qara boyandı,
Ucu yerə dayandı.
Mənim ahu-zarımdan
Göydə mələk oyandı.

140. Axşamlar, ay axşamlar,
Şamlar yanar axşamlar.
Evli evinə gedər,
Qərib harda axşamlar?

---

[1] Gəlinlərin baş örtüyünü bağlama şəkli

141. Səyada bax, səyada,
Torun qurub qayada.
Toruna tərlan düşüb,
Kimsəsi yox oyada.

142. Mən aşiq, qara[1] söylə,
Yara yalvara söylə.
Halımı xəbər alsa,
Günümü qara söylə.

143. Mən aşiqəm, ayda mənə,
Çəməndə, çayda mənə.
Qardaşımı çağırdım,
Vermədi heç hay da mənə.

144. Ördəyimsən, gölə gəl,
Ceyranımsan, çölə gəl.
Gözləyirəm yolunu,
Hayandasan, evə gəl.

145. Ördək göl olan yerdə,
Ceyran çöl olan yerdə
Anuunan bacuun qurban, *ay şəhitdər,*
Qanın göl olan yerdə.

146. Ördəyim gölə düşüb,
Ceyranım çölə düşüb.
Torçular torun qursun,
Tərlanım tora düşüb.

---

[1] Qara rəng

147. Qızılgül oyum-oyum,
Dərim, sinəmə qoyum.
Yağış yağar, yer doymaz,
Mən səndən necə doyum?

148. Əlimə saz verdilər,
Sazıma naz verdilər.
Düşdüm bir ağır dərdə,
Dərmanı az verdilər.

149. Mən aşiqəm, saz ağlar,
Sim çəkilər, saz ağlar.
Mən yatdım rahat yerdə,
Sənə dəydi sazağlar.

150. Əlün xına tutmasın,
Çövür günə, tutmasın.
Səni kimlər qarğadı,
Görüm binə tutmasın.

151. Bəyquş mənəm, bəyquş mən,
Hər quşlardan say[1] quş mən.
Canıma bir ot[2] düşüb,
= Nə bəlalı quşam mən,
Sızıldadım yay-qış mən.

152. Mən aşiqəm, bilimməz,
Gözüm yaşdan silimməz.

---

[1] Sayıq
[2] Od

Qəlbimdə çox yaram var,
= Ürəyimdə o qədər dərdim var,
Örtülüdü, görümməz.

153. Mən aşiq, od apara,
Ay çıxa, od apara.
Odu sönmüş istərəm,
Odumdan od apara.

154. İpək çarxa dolandı,
Çarxdan çarxa dolandı.
Canım tikdiyi evdə
Qorxa-qorxa dolandı.
= Özüm tikdiyim evdə
Qorxa-qorxa dolandım[1].

155. Bazara keçi gəldi,
Sanadım[2] üçü gəldi.
Yol verin, yurd ayırın,
Qəribin köçü gəldi.

156. Qaradır qaşın, ördək,
Yaşıldır başın, ördək.
Həmişə cüt gəzərdin,
Hanı yoldaşın ördək?

157. Gəl məni qoyub getmə,
Nar kimi oyub getmə.

---

[1] Gəlinlərin yola vermədyi qaynanalara aid edilir.
[2] Saydım

Çək qılıncı, vur boynumu,
Zarıncı qoyub getmə.

158. Aman aman oldu, gəl,
Halım yaman oldu, gəl.
Vədə verdin, gələcəm,
Vədəm tamam oldu, gəl.

159. Ağam, gəl, ay ağam, gəl,
Ölməmişəm, sağam, gəl.
Boynumda qəm zənciri,
Yolunda dustağam, gəl.

160. Mən aşiqəm, ya Əli,
Ya Məhəmməd, ya Əli,
Dərt-qəmi çox olanın
Kəlməsindən yahalır[1].

161. Bülbülüm lal olubdu,
İşim abdal[2] olubdu.
Dünən oxuyan bülbül,
Bu günnən lal olubdu.
= Şaftalı al olubdu,
Dəyibdi, al olubdu.
Gündə oxuyan bülbül,
Bu günü lal olubdu.

---

[1] Çaşmaq
[2] Tərs, çaş-baş

162. Mən aşiq, vətən yaxşı,
Köynəyə kətan yaxşı.
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı.

163. Gəl məni fağır ağla,
Fağır de, fağır ağla.
Yadına mən düşəndə,
Adımı çağır, ağla.

164. Aşıx bulağa gəlsin,
Suya = çaya sorağa gəlsin.
Mən səni səsləyəndə
Səsin qulağa gəlsin.

165. Məni görən ağlasın,
Görüp bilən ağlasın.
İndi görən tanımaz,
Əzəl görən ağlasın.

166. Burda = aşıq yaralı çoxdur,
Ağlı-qaralı çoxdur.
Bosdanın dolu vuran
Tağı yaralı çoxdur.

167. Köynəyin abı[1] deyil,
Geyibsən abı deyil.
Heyif cavan canınnan,
Qara yer babı[1] deyil.

---

[1] Tünd göy

168. Maralın gözü qanlı,
Ayağı, dizi qanlı.
Balamı mənə qaytarın,
Tutaram sizi qanlı.

169. Xoruz ban verən yerdə,
Yaram qan verən yerdə.
Ananla bacın qurban,
Oğul, can verən yerdə.

170. Qızılgül dən-dən oldu,
Dərmədim, dən-dən oldu.
Mən səndən ayrılmazdım,
Ayrılıq səndən oldu.

171. Alçalar, ay alçalar,
Al çalar, yaşıl çalar.
Dərdimi yükləsələr,
Qarlı dağlar alçalar.

172. Mən aşiqəm, uludur,
Axar sular qurudu.
Dərdlilər dərdimi bilsə,
Öz dərdlərin unudur.

173. Qızıl gül həşəm[2] oldu,
Dərmədim, həşəm oldu.
Sən məndən ayrılannan
Ağlamaq peşəm oldu.

---

[1] Tayı
[2] Solub tökülmək

174. Aşıx yaman sızıldar,
Çalar kaman, sızıldar.
Ürəyimdə dərdim çox,
Biri yaman sızıldar.

175. Mən aşiq, balabanı,
Asta çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

176. Mən aşiqəm, bal dadır,
Bala adam aldadır.
Şirini şirin olur,
Acısı da bal dadır.

177. Yenə yaman çaşdım mən,
Bulaq kimi coşdum mən.
Dərt mənə güc gəldi,
Kəlməmdən çaşdım mən.

178. Dağlarda əkin olmaz,
Əkməsən, əkin olmaz.
Bala ana qoynunda
Yatmasa, sakin olmaz.

179. Bu dağdan aşmağ olmaz,
Narıncı başmağ olmaz.
Bir quru sözdən ötrü
Yarla savaşmağ olmaz.

180. Ürəyimdə yaram var,
Üsdü qara xalım var.
= Üstü xal-xal qaram var.
Gəl aç ürəyimin başın,
= Açın ürəyimin başın,
Gör yammamış haram var?!

181. Ölürəm ağlamaqdan,
Ağa göy bağlamaqdan.
Bağda xəzəl qalmadı
Barama bağlamaqdan.

182. Bakqala bax, bakqala,
Özün oxşadıp çakqala.
Zəmanə necə dönübdür,
Qız gedir ağsakqala.

183. Evləri köndələn yar,
Bizə gül göndərən yar.
Gülün yarpıza dönsün,
Bizdən üz döndürən yar.

184. Evinə gəl, evinə,
Məni görə, sevinə.
Məni görüb sevinməyənin
Niyə gedirəm evinə?

185. Əyridir ha, əyridi,
Atın mindi, səyridi.
Ürəyi mənnən düz demir,
Dili mənnən əyridi.

186. Gecə uzun, Ay batmaz,
Dərdli adam heç yatmaz.
Calasan günü-günə
Keçən günə gün çatmaz.

187. Şaftalıyam, kalam mən,
Dilim yoxdur, lalam mən.
Qonşuda bir qız gördüm,
Pulum yoxdur, alam mən.

188. Mən aşiq, qoşa dağlar,
Verib baş-başa dağlar.
Səndə balamı itirdim,
Dönəsiz daşa dağlar.

189. Mən aşiq, qar-qamışa,
Qar yağar qar qamışa.
Yüz min duva neyləsin,
Bir Tanrı qarğamışa.

190. Mən aşiqəm, sarı gül,
Yarı qönçə, yarı gül.
Tez açıldın, tez soldun,
Açmayaydın barı gül.

191. Mən getdim, anam qaldı,
Otuma yanan qaldı.
Nə dünyadan kəm aldım,
Nə bir nişanəm qaldı[1].

---

[1] Şəhitlərə aid edilir.

192. Analar yanar ağlar,
Dərtdərin = dərdini sanar ağlar.
Dönər göy göyərçinə
Yollara qonar ağlar.

193. Gələrəm qırağiynən,
Gül bişdim orağiynən.
Düşərəm hər tərəfə,
Gəzərəm səni sorağiynən.

194. Sən məni nə yandırdın,
Keçən günümü qandırdın.
Başımnan elə vurdun.
Beynimi bulandırdın.

195. Aşıx belədən gələr,
Gedib belədən gələr.
Görər ki, qardaşun gəlip = bacun gəlip,
Durar belədən gələr.

196. Dəvələr düzüm inən,
Düzülər düzüm inən.
Sənə minnətə gəlmişəm
= Yalvarmağa gəmişəm,
Dur gedək, biziminən.

197. Bağban bar deyib ağlar,
Heyva nar deyib ağlar.
Analar oğul deyər,
= Bacılar qardaş deyər,
Gəlin də yar deyib ağlar.

198. Mən aşıx, yarpaxlara,
Şeh düşər yarpaxlara.
Heyif sizin cavan canuuzdan, *ay şəhitdər,*
Qovuşdu torpaxlara.

199. Nazbalış baş altdadı,
Qara göz qaş altdadı.
İstədim duram gələm,
Qollarım daş altdadı.

200. Arazı ayırdılar,
Suyunan doyurdular,
= Qumunan doyurdular,
Mən sənnən ayrılmazdım,
Zülümnən ayırdılar.

201. Gəlinə bax, gəlinə,
Əlün vırıp = qoyup belinə.
Siz gəlinə nə dediz?
Gəlin getdi elinə.
= Gəlinə siz nə dediz?
Küsdü getdi elinə.

202. Əzizim görəm səni,
İstərəm görəm səni.
Xəyalınla yatıram,
Yuxumda görəm səni.

203. Vurubdu talxa[1] məni,
Sal suya, çalxa məni.

---

[1] İlan növü

Tez yuyun, tez götürün,
Göstərməyin xalxa məni.

204. Mən aşiq, bu gün burda,
Dağ burda, dügün burda.
Kimin nə dərdi olsa,
Ağlasın bu gün burda.

205. Pəncərədən daş gələr,
Xumar gözdən yaş gələr
Səni mənə versələr,
Allaha da xoş gələr.

206. Ay gələr, batar gedər,
Durnalar qatar gedər.
Dünya bir pəncərədir,
Hər yetən baxar gedər.

207. Bacım da xəzan ağlar,
Səni bir gözəl ağlar.
Səni bu qərib canım
Sərgərdan  gəzər ağlar.

208. Mən aşiq, tar çalana,
Tarı ver tar çalana.
Sənə xor baxanın
Ürəyi parçalana.

209. Əzizim, neynim sənə,
Düşübdür meylim sənə.
Mən dönsəm, üzüm dönsün,
Sən dönsən, neynim sənə.

210. Əzizim, sən gələsən,
Ömrümə tən gələsən.
Əziz, xoşbəxt günümdə
Qonağım sən gələsən.

211. Şirəni şana çəkər,
Hər övlad qana çəkər.
Balaların yükünü
Ata ilə ana çəkər.

212. Mən aşığ, anam ağlar,
Halıma yanan ağlar.
Yad ağlar, yalan ağlar,
Öz anam yanar ağlar.

213. Qara bağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Oğul öldürən ananın
Ürəyində yağ olmaz.

214. Mən aşıq, qabağına,
Teştinə, tabağına.
Eşitsəm, sən gəlirsən,
Çıxaram qabağına.

215. Mən aşiq, min ayə dəyər.
Gözlərün = tellərin min aya dəyər.
İl var, bi günə dəyməz,
Gün var, min ayə dəyər.

216. Araz axar lil ilə,
Dəsdə-dəsdə gül ilə.
Mən yarımla danışdım
Şirin-şirin dil ilə.

217. Mən aşiqəm, qalam vay,
Dörd tərəfim qalam vay.
Çəkilibdir çəpərim,
Uçulubdur qalam vay.

218. Qardaş demə, qan olar,
Boran olar, qar olar.
Qardaş gələn yollara
Bacılar qurban olar.

219. Mən aşiqəm, həmişə,
Karvan gedər yemişə[1].
Yastığına gül düzüm,
Döşəyinə bənööşə.

220. Dəfdəri vərəqlərəm,
Açaram, vərəqlərəm.
Aduva ras gəlməsəm,
Düşərəm soraqlaram.

221. Çəpər çəkili qaldı,
Bosdan əkili qaldı.
Hara qoyub gedirsən?
Evin tökülü qaldı.

---

[1] Yemiş yığmağa

222. Burdan bir qoşun keçdi,
El köçdi, qoşun keçdi.
Ellərdən bir-bir getsə,
Bizdən bir qoşun getdi.

223. Aman, aman oldu, gəl,
Halım yaman oldu, gəl.
Gedim, gələrəm dedin,
İlin tamam oldu, gəl.

224. Tut ağacı boyunca,
Tut yemədim doyunca.
Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca.

225. Qara at nalı neynər,
Qarı üz xalı neynər.
Ağlı dərya olannar
Dünyanın malın neynər.

226. Dağlara çən düşəndə,
Sünbülə dən düşəndə.
Ruhum bədəndən oynar,
Yadıma sən düşəndə.

227. Aşıq yaralı qurban
Ağlı-qaralı qurban.
Sənin təzə yarana
Köhnə yaralı qurban.

228. Mən aşiqəm, yar əli,
Yaralıdır yar əli.
Göz yaşım qurumaz,
Toxummasa yar əli.

229. Oynuna bax, oynuna,
Əlin qoyub qoynuna.
Yetimin yükü ağırdır,
Heç kəs almaz boynuna.

## SAYAÇI SÖZLƏR

Quzu, quzu, çal[1] quzu,
Qumral quzu, çal quzu.
Duman gəldi, itirdim,
Duman getdi, gəl, quzu.

## TOY NƏĞMƏLƏRİ

Qara at qaçdı gəldi,
Yüyəni açdı gəldi.
Xanımlara muştuluğ,
Bəylər barışdı gəldi.

Qara atın yelini,
Basdı Muğan elini.
Qardaş, gözlərin aydın,
Gətirəm gəlini.

***

Ayaqlama tağları,
Saralar yarpaqları.
Xoş gəlibdir bizə
Bacımın qonaqları.

***

Bınnan qabax bu cür çalğı yoxuydu. Toyda iki dəsdə olurdu. Bir dəsdə burda, üz-üzə bir dəsdə burda. Qızı gəlin aparannan sora yığışardılar. Deyərdilər:

---

[1] Boz

- Mübarək, ay mübarək!

Xana-xanadır evimiz.

Bunu deyə-deyə bir dəsdə gedərdi beləcə qabağa. Dalın o birilər deməliydi:

- Qoşadır eyvanımız.

Birinci dəsdə:

- Sən ordan çıx, mən burdan,

İkinci dəstə:

- Kor olsun düşmanımız.

Bu şəkildə nööbəylə aşağıdakı sözləri deyirdilər:

Evləri köndələn yar,
Bizə gül göndərən yar.
Gülün yarpıza dönsün,
Bizdən üz döndərən yar!

Dağlara çən düşəndə,
Sünbülə dən düşəndə.
Göönlüm səni isdər
Yadıma sən düşəndə.

***

Qaynanam qarə köpəg,
Qapıda yatır.
Qaynatam sarı yağdı,
Canıma yatır.
Baldızım kəmki[1] darax,
Gedir-gəlir,
Başıma batır[2].

---

[1] Yəni baldızım gedip gəlir, aranı qarışdırır.
[2] Qırıq

# BAŞLIQIAR

TƏRTİBÇİDƏN ............................................................ 3

I MİFLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR ............................ 8

Dünyanın yaranışı haqqında ........................................ 8
Ülkər ulduzu ................................................................ 8
Məkkə yolu ................................................................. 9
Toyuq ........................................................................... 9
Pişik mundar sayılmaz ................................................. 9
Dil bəlası .................................................................... 10
Cavanlar niyə ölür? .................................................. 10
Borc ........................................................................... 11
Xornəçi təpəsi ........................................................... 11
İtə yazılan dua ........................................................... 11
Varını öz əlinlə ver .................................................... 12
Bal-çörək ................................................................... 12
Qarıya bax, qarıya ..................................................... 13
Duz ucuz, kərmə baha ............................................... 14
İz eşşəyin, fel gəlinin ................................................ 15
Ata-ana borcu ............................................................ 16
Səbət .......................................................................... 16
Qazinin bölgüsü ......................................................... 17
Beşi mollanın ............................................................. 17
Molla, gəl al bunu ..................................................... 18
Bəy və nökər .............................................................. 18
Qonşunun əcəli .......................................................... 18
Uşağın böyüklüyü ...................................................... 19
Rüstəm Zal ................................................................ 20
Qadınlar üç cür olur .................................................. 21
Hər ət öz dırnağından asılar ....................................... 22

Atasına rəhmət ........................................ 22
Qara daş nə vaxt dilləndi, sən də o vaxt ........................................ 23
Qarğanın narahatlığı ........................................ 24
Göy muncuq ........................................ 24
Ehsanı olsun ........................................ 24
Maralın incikliyi ........................................ 25
Ananın günahı ........................................ 25
Ağıllı məsləhət ........................................ 26
Şir və tülkü ........................................ 26
Bəxtsiz kişi ........................................ 27
Hər kəsə öz yurdu ........................................ 27
Allah kərimdir ........................................ 28
Xəşil ........................................ 28
Ziyarət ........................................ 29
Altı daş, üstü aş ........................................ 30
Keçib gedər ........................................ 30
Gəlinin səhvi ........................................ 31
Övlad borcu ........................................ 31
Naşükür qohum ........................................ 31
Qorxu ........................................ 32
Varlı çoban ........................................ 33

KƏRAMƏT SAHİBLƏRİ ........................................ 35
Mir Sultan Ağa ........................................ 35
Seyid Tapı ........................................ 35
Mir Fəttah Ağa ........................................ 36

MİFOLOJİ MƏTNLƏR ........................................ 37
Qaraçuxa ........................................ 37
Xornəçi ........................................ 37
Al arvadı ........................................ 37
Gecəquşu ........................................ 38

XATİRƏLƏR ........................................................................ 39
Qızları zəlil elədik ................................................................. 39
Qorxulu zarafat ...................................................................... 39

DEYİMLƏR ........................................................................ 41
Toxum götür, yer axtar ........................................................ 41
Can al gətir ............................................................................ 41
Qarğa qarğayla uçar ............................................................. 41
Birini ötür, birini götür ........................................................ 41
Qarı deyir, öləcəm ................................................................ 42
Saili boş qaytarma ................................................................. 42
Ovsanaya düşmək ................................................................. 42
Qırx eşşəyi sağına gedir ....................................................... 42
Həmədan eşşəyi .................................................................... 42

LƏTİFƏLƏR ........................................................................ 43
Molla Nəsrəddin və eşşək .................................................... 43
Hünərin var, dillən ................................................................ 43
Fil həkimi .............................................................................. 44
Rus dilini bilən oğlan ............................................................ 44
Qonşunun qəzəbi .................................................................. 44
Ağılsız gəlin .......................................................................... 45
Heç mən dindim? ................................................................. 45
Ay eşşək, çıx yoldan! ........................................................... 46
Canavar ................................................................................. 46

MARAQLI ƏHVALATLAR ................................................ 47
Ölünüzə sahib çıxın ............................................................. 47
Ağaqulu bizi ac eylədi .......................................................... 48
Dinc durmaz ......................................................................... 48
Zirək arvad ........................................................................... 49

NAĞILLAR .................................................................... 50
Yazıya pozu yoxdur .................................................................... 50
Allahın ruzisi .................................................................... 51
Sözün hikməti .................................................................... 55
Haqq var, divan yoxdur .................................................................... 56
Etibarlı dost .................................................................... 59
Yəhudi, yoxsa, insafsız müsəlman .................................................................... 61
Şah Abbas və keçəl .................................................................... 63
Ağılsız vəzir .................................................................... 64
Ovsanaya düşən tikə .................................................................... 66
Dəvə kini .................................................................... 67
Hər şey vərdişdən asılıdır .................................................................... 68
Qumarbazın aqibəti .................................................................... 70
Ata məsləhəti .................................................................... 71
Çörəyə hörmət .................................................................... 71

TOY MƏRASİMİ .................................................................... 73
Elçilik .................................................................... 73
Nişan .................................................................... 74
Paltarbişdi .................................................................... 74
Xınayaxdı .................................................................... 74
Toy .................................................................... 75
Bəy tərifi .................................................................... 77
Təzə gəlin .................................................................... 77

DİGƏR MƏRASİMLƏR .................................................................... 78
"On tökmə" mərasimi .................................................................... 78
"Qırx tökmə" mərasimi .................................................................... 78
YAS MƏRASİMİ .................................................................... 79
MƏHƏRRƏMLİK .................................................................... 80

TƏQVİM TƏSƏVVÜRLƏRİ .................................................................... 83
Çərşənbələr .................................................................... 83

Çilələr........................................................................................84
İl və aylar ..................................................................................84

ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR...................................85

TAPMACALAR .........................................................................104

ALQIŞLAR.................................................................................108

QARĞIŞLAR..............................................................................109

YANILTMACLAR.....................................................................110

ƏZİZLƏMƏLƏR.........................................................................111

LAYLALAR ...............................................................................114

SAYMACALAR.........................................................................115

OYUN-SAYMACALAR.............................................................117

OYUNLAR .................................................................................119
Bənövşə oyunu...........................................................................119
Bayraqqaçdı ...............................................................................119

ETNOQRAFİK MƏTNLƏR .......................................................120
Cürəli kəndi və tayfaları.............................................................120
Qədim qablar..............................................................................123
Üzərlik haqqında........................................................................125
Hörümçək haqqında inanc .........................................................126

BİLƏSUVAR YEMƏKLƏRİ......................................................127
Duzlu balıq buğlaması ...............................................................127

Balıq qızartması ........................................................................ 127
Boranı aşı ................................................................................ 127
Ləvəngi ................................................................................... 128
Ayran aşı, dovğa ...................................................................... 128
Bulama ..................................................................................... 128
Qaymaq ................................................................................... 129
Quymaq ................................................................................... 129
Xəşil ......................................................................................... 129

BAYATILAR ............................................................................ 130

SAYAÇI SÖZLƏR .................................................................... 172

TOY NƏĞMƏLƏRİ ................................................................. 172

**Usta söyləyicilərin repertuarı,**
**II kitab.**
Bakı, "Sabah", 2024

Nəşriyyat redaktoru:
**Biçə Ramazanqızı**

Korrektor:
**İlahə Qurbanova**

Kompyuter tərtibçisi:
**Səbinə İmanova**

Kağız formatı: 60x84 $^{1}/_{16}$
Mətbəə kağızı: №1
Həcmi: 11,25 ç.v.
Tirajı: 400

Kitab AMEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş,
"Sabah" nəşriyyatı tərəfindən ofset üsulu ilə
hazır deopozitivlərdən çap olunmuşdur.